

## Sərt karantin bu şəhərlərdə 5 avqusta qədər uzadıldı

*Yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılması ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə uyğun olaraq ölkə üzrə xüsusi karantin rejimi 2020-ci il 31 avqust saat 00:00-dək uzadılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Modern.az-a verilən məlumatda bildirilib. Qeyd edilib ki, bununla yanaşı, şəxslər arasında COVID-19 infeksiyasına yoluxma dinamikası nəzərə alınmaqla...*

Səh.2


# Unikal

№23 (2018) 18 iyul 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Elman Rüstəmovla bağlı 1 milyard manatlıq borc qalmaqalının sirri...

### Baş bankir 3 ildən bu yana səslənən ittihamlar qarşısında niyə susur?

*Ötən həftənin sonlarında Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmovun adı ətrafında yeni qalmaqal yaşandı. "Son 10 ildə bir çox banklar bağlanıb və çoxları öz halal pulunu bu günə qədər də ala bilmir. Nə üçün həmin bank sahiblərinə qarşı sərt tədbirlər görülmür? Axı, hamı bilir ki, o pullar buxarlanmayıb, bank sahibləri tərəfindən mənimsənilib. Elə bu günün özündə həmin bankirlər o villalarda yaşayır və bahalı maşınlarda şütüyürlər" - bunu həmin vaxt vəkil Aslan İsmayılov bildirmişdi. Onun sözlərinə görə, həmin banklara nəzarəti həyata keçirən, vətəndaşların halal pullarının mənimsənilməsinin qarşısını almalı olan Mərkəzi Bankın sədri Elman Rüstəmovun elə özünün dövlətə 1 milyarda yaxın borcu var. O əlavə etmişdi ki, bu borc barədə mətbuatda məlumatlar dərc edilsə də, buna aydınlıq gətirilməyib.*

Səh.13

Səh.5



## Azərbaycan Prezidentindən mühüm mesajlar

## Prezidentin köməkçisi Arsen Xaratyanla debata çıxdı



*Prezidentin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Aljazeera İnternational" kanalında "İnside Story" verilişində Ermənistan baş naziri N.Paşinyanın sabiq diplomatik müşaviri Arsen Xaratyan ilə debata çıxıb. Unikal.org xəbər verir ki, Hikmət Hacıyev...*

Səh.2

## Elmar Məmmədyarov həbsin bir addımlığında...



*Nəhayət, gözlənilən baş verdi: Elmar Məmmədyarov Azərbaycan Respublikası Xarici İşlər naziri postundan kənarlaşdırıldı. Əslində Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) növbəti antikorrupsiya əməliyyatını Xarici İşlər Nazirliyində (XİN) keçirməsindən sonra bu gözlənilən idi: belə ki...*

Səh.12

## Zakir Həsənov şəhidlərlə bağlı generallara tapşırıq verdi



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinin hərtərəfli diqqətlə əhatə olunması və onlara yüksək qayğı göstərilməsi istiqamətində...*

Səh.7

# Prezident şəhid general və polkovnikin ailəsinə ev bağışladı



***Prezident İlham Əliyev şəhid olan general və polkovnikin ailəsinə ev verib.***

Unikal.org xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Qeyd edilib ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə iyulun 16-da Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, eləcə də nazirliyin idarə rəisləri general-mayor Rasim Əliyev, general-mayor Rasim Babayev və digər zabitlər Qəbələ rayonunda şəhid general-mayor Polad Həşimovun və Bakı şəhərində şəhid polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər:

"Hər iki ailənin qayğıları ilə maraqlanan Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri bir daha Ali Baş Komandanın və Müdafiə nazirinin başsağlıqlarını şəhid ailələrinə çatdıraraq, Prezident İlham Əliyev tərəfindən onlar üçün ayrılan mənzillərin sertifikatlarını ailələrə təqdim ediblər.

Söhbət zamanı şəhid general-mayor P. Həşimovun və polkovnik İ. Mirzəyevin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına və nazirliyin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər".

# AQTA 213 obyektdə reyd keçirdi, 84-nü cərimələndi

***Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş koronavirusun (COVID-19) profilaktikasına dair metodiki göstərişlərin icrasına nəzarət məqsədi ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ictimai iaşə və qida məhsullarının ticarəti ilə məşğul olan sahibkarlıq subyektlərində reydlər davam etdirilir.***

AQTA-dan "Unikal"a bildirilib ki, Agentlik əməkdaşları tərəfindən 16 iyul 2020-ci il tarixində Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən 38 ictimai iaşə obyekti, 175 ərzaq satışı mağazası olmaqla ümumilikdə 213 müəssisədə reyd keçirilib. Sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Reyd keçirilən obyektlərdən 84-də Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin tələblərindən irəli gələn bir sıra qaydalara əməl olunmaması və kobud şəkildə pozulması faktları aşkarlanıb. Aşkarlanmış faktlarla bağlı həmin müəssisələr barədə qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülüb.

Qeyd edək ki, AQTA Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektləri və ərzaq mağazalarında yoxlama-nəzarət tədbirlərini bundan sonra da davam etdirəcək və Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərə əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcəkdir.

# AŞPA həmməruzəçiləri Tovuzdakı gərginliklə bağlı bəyanat yaydılar

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) həmməruzəçiləri Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi hərbi təxribatlarla bağlı bəyanat yayıblar.***

"Unikal" xəbər verir ki, AŞPA-nın Ermənistan üzrə finlandiyalı həmməruzəçisi Kimmo Kiljunenin AŞPA-nın Azərbaycan üzrə avstriyalı həmməruzəçisi Stefan Şennax və britaniyalı həmməruzəçisi Rojer Gale ilə birgə yaydığı sənəddə Ermənistan və Azərbaycan təmkinli olmağa çağırılıb. Bəyanatda həmçinin Ermənistan və Azərbaycan arasında atəşkəsin pozulmasından narahatlıq ifadə olunub: "Xatırladırıq ki, Avropa Şurasına üzv olduqları zaman sülhün yaradılması hər iki ölkənin üzərlərinə götürdükləri öhdəliklərdəndir. Ona görə də Ermənistan və Azərbaycanı təhlükəli vəziyyətdən çıxmaq və iltihablı ritorikadan çəkinmək üçün lazımi təmkin göstərməyə çağırırıq". "Biz həmçinin hər iki ölkəni həmsədrlərin 15 iyul tarixli bəyanatlarında göstərilən qaydada ATƏT-in Minsk Qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün danışıqları davam etdirməyə və ATƏT-in müşahidəçilərinin bölgəyə qayıtmalarına icazə verməyə dəvət edirik", - bəyanatda vurğulanıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Sərt karantin bu şəhərlərdə 5 avqusta qədər uzadıldı

***Yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılması ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə uyğun olaraq ölkə üzrə xüsusi karantin rejimi 2020-ci il 31 avqust saat 00:00-dək uzadılıb.***



Nazirlər Kabineti yanında Operativ Qərargahdan Modern.az-a verilən məlumatda bildirilib. Qeyd edilib ki, bununla yanaşı, şəxslər arasında COVID-19 infeksiyasına yoluxma dinamikası nəzərə alınmaqla Lənkəran şəhəri və Samux rayonunda 20 iyul 2020-ci il tarixdən etibarən sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunmayacaq. Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Siyəzən və Şəki rayonlarında isə mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il 5 avqust saat 06:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi davam edəcək. Həmçinin xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda aşağıdakı tarixlərdə həftəsonları bütün ictimai nəqliyyatın hərəkəti dayandırılacaq: 25 iyul saat 00:00-dan 27 iyul saat 06:00-dək; 1 avqust saat 00:00-dan 3 avqust saat 06:00-dək; Xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda 2020-ci il 20 iyul tarixdən edibarən masaj və hamam xidməti istisna olmaqla bərbərxana, gözəllik salonlarının fəaliyyətinə və kosmetik xidmətlərin göstərilməsinə icazə verilir.

Eyni zamanda şəxslərin yaşayış yerini və olduğu yeri tərk etmək üçün SMS icazənin müddəti 2 saatdan 3 saatadək artırılır. Mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, özünü və yaxınlarını virusa yoluxmadan maksimum qorumaq üçün preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq.

# Ceyhun Bayramov Lavrovla telefonla danışdı

***Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovun Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov ilə telefon söhbəti baş tutub.***



Xarici İşlər Nazirliyindən (XİN) "Unikal"a verilən məlumata görə, nazir Ceyhun Bayramov Rusiya Xarici İşlər naziri Sergey Lavrovun təbriklərini qəbul edib.

Tərəflər iki ölkə arasındakı münasibətlərin geniş spektri üzrə fikir mübadiləsi aparıblar, strateji tərəfdaşlıq münasibətlərinin inkişafı üzrə səylərin bundan sonra da davam etdiriləcəyini vurğulayıblar.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfindən Azərbaycan-Ermənistan sərhədində törədilən son hərbi təxribat və bölgədəki gərgin vəziyyət ilə bağlı rusiyalı həmkarını məlumatlandırıb və yaşanan bu gərginliyin əsas səbəbinin məhz Ermənistanın 30 ilə yaxındır ki, davam edən təcavüzkar siyasətinin olduğunu vurğulayıb.

Rusiya Xarici İşlər naziri hər iki tərəfi atəşkəsə riayət etməyə və bölgədə gərginliyin azaldılması üçün tədbirlər görməyə çağırdıqlarını qeyd edib.

# Prezidentin köməkçisi Arsen Xaratyanla debata çıxdı

***Prezidentin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Aljazeera İnternational" kanalında "İnside Story" verilişində Ermənistan baş naziri N.Paşinyanın sabiq diplomatik müşaviri Arsen Xaratyan ilə debata çıxıb.***



Unikal.org xəbər verir ki, Hikmət Hacıyev Ermənistanın gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal etdiyini, işğal olunmuş ərazilərdə qanlı etnik təmizləmə törətdiyini qeyd edərək beynəlxalq hüquqa əsasən Ermənistanın hüquqi məsuliyyət daşıdığını bildirib.

H.Hacıyev danışıqlar prosesində münaqişənin mərhələli şəkildə həll edilməli və bu istiqamətdə ilkin addımı kimi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalı olduğunu, amma Ermənistan baş nazirinin ziddiyyətli bəyanatları ilə danışıqlar prosesini pozduğunu diqqətə çatdırıb.

O, münaqişənin həllinin siyasi-hüquqi əsaslarının müəyyən olunduğunu və bunun beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Helsinki Yekun Aktına əsaslandığını deyib.

H.Hacıyev Ermənistanın atəşkəs rejiminin arxasında gizlənərək Azərbaycan ərazilərinin ilhaqını həyata keçirdiyini, işğal olunmuş torpaqlarımızda qanunsuz əməllər, o cümlədən qanunsuz məskunlaşma siyasəti apardığını vurğulayıb.

Ermənistan baş nazirinin sabiq diplomatik müşavirinin Ermənistanda demokratiya qurulması barədə iddialarına cavab olaraq H.Hacıyev demokratiya Ermənistanın danışmalı olduğunu sonuncu məsələ olduğunu bildirib.

Prezidentin köməkçisi əlavə edib ki, Ermənistanda inqilabi diktatura qurulur, jurnalistlər və müxalifətçilər həbs olunur: "Demokratik dövlət digər dövlətin ərazisini işğal etmir və qanlı etnik təmizləmə törətmir".

Qarşı tərəfin qardaş Türkiyəyə qarşı iddialarına cavab olaraq H.Hacıyev Ermənistan konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiaları irəli sürüldüyünü, Ermənistanda dövlət səviyyəsində şovinizm əsasında "böyük Ermənistan" təbliğatının aparıldığını və gənc nəslin bu ruhda böyüdüldüyü vurğulayıb.

H.Hacıyev Ermənistanın sərhədlərinin bağlı olmasının və Ermənistanın özünü təcrid vəziyyətində yaşamasının günahının Ermənistanın yürütdüyü irticaçı siyasət olduğunu bildirmişdir. H.Hacıyev rasizm, şovinizm prinsipləri əsasında Ermənistanın yeni milli təhlükəsizlik strategiyasının hazırlandığını qeyd edib.

Türkiyə-Ermənistan sərhədinin bağlı olmasına gəldikdə isə Prezidentin köməkçisi Ermənistanın öz ərazisindən hücum edərək Kəlbəcəri işğal etdikdən sonra BMT Nizamnaməsini əsas tutaraq Türkiyənin təcavüzkar ölkə olan Ermənistanla sərhədlərini bağladığını xatırladıb.

H.Hacıyev dövlət sərhədinin Tovuz istiqamətində baş verən hadisələr, Ermənistanın növbəti təxribatı və hərbi avantürası, mülki insanların Ermənistan tərəfindən qəsdən hədəfə alınması faktlarını diqqətə çatdırıb.

# Xalqımız hər zaman Sizin arxanızdadır, biz birlikdə güclüyük! - Prezidentə yazırlar

***Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər.***

"Unikal" Prezident saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir. Lerik rayonunun Barzavu kəndindən Hakim Qənbərov yazır: "Hörmətli cənab Prezident, bu gün ölkəmizdə baş verənlər Lələtəpə, Bayraqtəpə, Günnüt zəfərləri ərəfəsində Azərbaycanda yaşanan döyüş əzminin, qələbə ruhunun davamıdır. Bu möhtəşəm hissləri Vətənə sevgi, Sizin qətiyyətli siyasətiniz, dövlət-vətəndaş birliyi yaradıb. Bu dönməz qətiyyətin sayəsində Sizin - Ali Baş Komandanımızın döyüş əmri ilə yaxın zamanlarda torpaqlarımızı işğaldan azad edəcəyimizə əminik. Bu hissləri bizə yaşatdığınıza görə leriklilər adından Sizə minnətdaram. Dövlətim və millətim üçün həmişə döyüşməyə və şəhid olmağa hazıram. Vətən sağ olsun!".

Saatlı rayonunun Mollavəzili kəndində bayrağımızı dalğalandıranlardan biri olmaq arzusu ilə döyüş əmrinizə hazıram".

Daşkəsən rayonundan Günel Məmmədova: "Hörmətli cənab Prezident və əziz Mehriban xanım, bu narahat günlərdə Sizin ordumuza, xalqımıza verdiyiniz dəstək əvəzedilməzdir. Əminəm ki, bu günlər arxada qalacaq, gələcəkdə bizi yalnız qələbə sevinci ilə dolu günlər gözləyəcək. Hamımız bilirik ki, Siz gecə-gündüz çalışır, bu məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gəlirsiniz. Xalqımız da hər zaman Sizin arxanızdadır. Biz birlikdə güclüyük!".

Ağdam rayon 135 saylı köçkün tam orta məktəbinin müəllimi Aynurə Səlimova: "Hörmətli Cənab Prezident, vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan ordumuz bu gün Sizin sayənizdə Cənubi Qafqazın ən güclü ordusudur. Həmişə olduğu kimi, yenə də işğalçı qonşumuz Tovuz rayonunda dinc əhalinin üzərinə mərmi yağdırdı. 2016-cı ilin aprel ayında olduğu kimi, güclü ordumuz yenə düşmənə layiqli cavab verir. Cənab Prezident, belə bir güclü ordumuz olduğu üçün Sizə minnətdarıq. İnşallah, Sizin rəhbərliyinizlə biz köçkünlər öz ata-baba yurdumuz olan Qarabağı azad edəcəyik. O torpaqda axan şəhid qanları yerdə qalmayacaq. Xalqın daim Sizin ətrafınızda bir yumruq kimi birləşməsi Sizə olan inamdandır. Güclü Ali Baş Komandan və güclü ordunun olması bütün gənclərin döyüş ruhunu yüksəldir. Biz Sizinlə qürur duyuruq".

Bakı şəhərinin sakini Rüfət Əhmədov: "Hörmətli cənab Prezident, son günlərdə cəbhə xəttində baş verən hadisələr bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənə daim layiqli cavab vermiş, onların həmlələrini uğurla dəf etməklə nəyə qadir olduğunu bütün dünyaya sübut etmişdir. Bu gün Azərbaycanın bütün uğurları Sizin adınızla bağlıdır. Cənab Prezident, biz Sizinlə birgə güclüyük. Yaşından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı Sizin hücum çağırışınıza qoşulmağı özünə fəxr bilir".

Zəngilan rayon 35 saylı məktəbin müəllimi Həyat Abdullayeva: "Hörmətli cənab Prezident, Sizin həyata keçirdiyiniz siyasətin nəticəsidir ki, bu gün Azərbaycan güclü orduya malikdir. Ordu quruculuğu istiqamətində gördüyünüz işlərin nəticəsidir ki, Azərbaycan bu gün düşmənə layiqli cavab verə bilir. Həm Aprel döyüşlərində, həm də son günlərdə Tovuzda baş verən erməni təxribatına layiqli cavab verilmişdir. Qüdrətli ordumuz istənilən vaxt işğalda olan torpaqlarımızı azad etmək iqtidarındadır. Cənab Ali Baş Komandan, Zəngilan gəncləri olaraq bizlər daim dövlətimizə xidmət edirik. Sizə olan inamımız sonsuzdur. Biz Sizin ətrafınızda sıx birləşmişik və daim əmrinizə hazırıq".

Bərdə rayonunun sakini Ramal Əhmədov: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bütün dünyada koronavirus pandemiyasının tüğyan etdiyi bir zamanda erməni faşistləri öz çirkin xislətinə sadiq qalaraq, Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Qüdrətli Azərbaycan Ordusunun cavabı nəticəsində düşmən böyük itki verərək geri çəkilməyə məcbur olmuş və həlak olan hərbçilərimizin qisası alınmışdır. Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının gənc üzvü olaraq Sizi əmin edirəm ki, bizlər daim dövlətimizə və dövlətçiliyimizə xidmət edirik. Sizin yanınızda yumruq kimi birləşmişik. Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün hər an ön cəbhəyə getməyə hazırıq. Azərbaycan vətəndaşı olmağımızla, Sizin kimi Prezidentimizlə qürur duyuruq".



dindən Mirzəka Ağayev və Rövşən Bədəlov yazırlar: "Hörmətli cənab Prezident, Sizin qətiyyətli çıxışlarınızda böyük qələbənin işartılarını görürük. Əminik ki, bu günlərdə yaşananlar Şuşada, Xankəndidə dalğalanacaq bayrağımızın şanlı yolunun başlanğıcı olacaq. İgid əsgərlərimiz, unudulmaz şəhidlərimiz artıq bu yola cığır salıblar. Kəndimizin bütün sakinləri qətiyyətli siyasətinizi dəstəkləyir, hər an Sizin yanınızda olduğunu bildirir, döyüş əmrinizi gözləyirlər".

Füzuli rayonundan Fuad Şükürov: "Cənab Ali Baş Komandan, Azərbaycan xalqı öz ordusuna inanır, ona güvənir. Ordumuz düşmənə hər an layiqli cavab verməyi bacarır. Xalq-iqtidar birliyi torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminlik yaradır. Azərbaycan xalqı Sizin ətrafınızda sıx birləşib".

Bakı şəhərinin sakini Günay Yusifova: "Hörmətli cənab Prezident, iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutmaları hamımızı hiddətləndirdi. Bu hadisə Ermənistanın atəşkəsə əməl etmədiyini, onun təcavüzkar olduğunu bir daha göstərdi. Buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri düşmən hücumlarının qarşısını məharətlə aldı və düşməni geri oturtdu. Sizin də dediyiniz kimi, biz Azərbaycan torpaqlarında ikinci Ermənistan dövlətinin yaranmasına imkan verməyəcəyik. Torpaqlarımızın tezliklə azad ediləcəyinə inanırıq".

Masallı rayonunun sakini Spartak Nadirov: "Hörmətli cənab Prezident, bütün regiona təhlükə olan erməni vandalizminin qarşısını alan ordumuzun qəhrəmanlığını alqışlayıram. Şiddətli döyüşlərdə əsgərlərimizi dəstəkləyir, şərəfli Azərbaycan əsgərinin formasını geyinərək cəbhə bölgəsinə getmək, torpaqlarımızı erməni faşistlərindən azad etmək üçün əmrinizi gözləyirəm. Sizinlə qürur duyuram. Qara-

Bakı şəhərinin daha bir sakini Yeganə Məmmədova yazır: "Möhtərəm cənab Prezident, bu gün Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir. Sizin məqsədyönlü siyasətinizin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri gənclərimizə daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib. Bu gücün mənbəyi Heydər Əliyev yoludur, bu gücün mənbəyi xalqla iqtidarın birliyidir, bu gücün mənbəyi Azərbaycan xalqının Sizə inamıdır. Azərbaycan gəncləri Sizin ətrafınızda sıx birləşib. Sizin ordumuzun inkişafına daim qayğı göstərməyiniz, onun daha da qüdrətli olması üçün bütün tədbirləri həyata keçirməyiniz sayəsində güclü ordumuz daha da təkmilləşir. Bu gün ordumuzun qarşısında çox mühüm vəzifələr durur. Əsas vəzifə torpaqlarımızın düşmən əsarətindən azad edilməsidir. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün hər cür imkan var".

Paytaxt sakini Ümudə Rəhimova: "Möhtərəm cənab Prezident, biz gənclər Sizi hər zaman dəstəkləyirik. Yeni Azərbaycan Partiyasının gənc üzvü olaraq Sizin tapşırıqlarınızı hər zaman uğurla yerinə yetirəcəyimə tam əmin ola bilərsiniz. Biz Sizin iradənizə güvənirik".



## Azərbaycanda koronavirus: Sağalma sayı artdı, yoluxma azalır

***Azərbaycanda 471 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 549 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Bu barədə "Unikal"a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 26 636 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib.

Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Onlardan 17 805 nəfər müalicə olunaraq sağalıb, 341 nəfər vəfat edib. Aktiv xəstə sayı 8 490 nəfərdir.

## Paşinyan: "Sülh danışıqlarının alternativi yoxdur"

***Ermənistan baş naziri Nikol Paşinyan Azərbaycanı sülh danışıqlarına dəvət etdi.***

"Unikal" Rusiya KİV-nə istinadən xəbərt verir ki, o bu barədə Avrasiya Hökumətlərarası Şurasının genişləndirilmiş iclasında deyib. "Münaqişənin hərbi həll yolu yoxdur və regionun bütün xalqlarının maraqlarına cavab verən sülh danışıqlarının alternativi yoxdur"- deyə açıqlama verib.

Növbəti iclas oktyabrda Yerevanda baş tutacaq.

## Ordumuz təlim Naxçıvanda keçirdi

***Əlahiddə Ümumqoşun Orduda keçirilən tabor, divizion döyüş atışlı və atışsız taktiki təlimləri davam edir.***



"Unikal" xəbər verir ki, taktiki təlimlərdə haubitsalı artilleriya, aviasiya, hava hücumundan müdafiə və digər bölmələr arasında qarşılıqlı əlaqə sualları işlənilib. Bölmələrin uzlaşmasının və səhra vərdişlərinin yüksəldilməsinin ən səmərəli ali forması döyüş atışlı taktiki təlimlər olduğu üçün tabor və divizionlarda keçirilən bu təlimlərə Əlahiddə Ümumqoşun Orduda xüsusi diqqət yetirilir.

Haubitsalı artilleriya divizionlarının döyüş atışlı taktiki təlimləri də döyüş vəziyyətinə tam yaxınlaşdırılmış şərtlərlə keçirilib.

Təlimlər zamanı aviasiya ilə qarşılıqlı əlaqə sualları işlənilib, hava hücumundan müdafiə bölmələri ilə birlikdə düşmənin hava hücum vasitələri və pilotsuz uçuş aparatlarına qarşı fəaliyyətlər icra edilib.

Şəxsi heyət taktiki və atəş tapşırıqlarının icrasında müsbət nəticələr göstərib.

# “Bizim sistemdə indiki nazirlərin heç biri işləməyəcək”

## İqbal Ağazadə: “Hakimiyyət sistemi dəyişməyib problemləri ayrı-ayrı adamların, fərqli epizodların üzərinə atsa da, onu durdurmağa çalışsa da, bütövlükdə sistemi dəyişə bilməyəcək”

***Son dövrlər hüquq-mühafizə orqanlarının ayrı-ayrı dövlət qurumlarında həyata keçirdikləri əməliyyatlar, aşkarladıqları cinayət əməlləri müzakirə olunmaqdadır. Məlum olduğu kimi, öncə Sərhəd Xidmətində, Mədəniyyət Nazirliyində, daha sonra Xarici İşlər Nazirliyində analoji əməliyyat keçirildi. Əməliyyatlar zamanı yüksək vəzifəli şəxslər həbs olunsa da, aidiyyatı qurumlarda birinci şəxslərin məsuliyyətdən kənarda qalması birmənalı qarşılanmır. Düzdür, hər iki nazir vəzifədən kanarlaşdırılıb, amma onların hüquqi müstəvidə cəzalandırılması da müzakirə olunmaqdadır.***

“Unikal” qəzeti bu və ya digər məsələlərlə bağlı fikirlərini bölüşən Ümid Partiyasının sədri İqbal Ağazadənin Unikal.org-a müsahibəsini təqdim edir.

***-İqbal bəy, cəmiyyətdə belə fikirlər var ki, nazirliklərdə əməliyyat keçirilir, nazir müavini, digər məmurlar həbs olunur, amma nazir buna görə məsuliyyət daşımır. Bu, necə olur?***

-Əməliyyatların keçirilməsi tapşırığını və cinayətlərin müəyyən olunmasını bütövlükdə hakimiyyət strukturları təyin edir. Başqa bir mərkəz harada cinayət halının baş verməsini müəyyənləşdirə bilməz və əməliyyat keçirməyi tapşıra bilməz. Bu məsələlərlə bağlı ən yüksək səviyyədə tapşırıqlar verilir. Qərar veriləndə kimi tutub, kimi tutmamağı, kimin vəzifədə qalıb-qalmayacağını müəyyənləşdirən hakimiyyətdir. Buna mənim hər-hansı münasibətim ola bilməz. Bu cür məsələlər hüquq-mühafizə orqanlarının hər-hansı bir faktın araşdırılması hadisəsi deyil. Bu cür əməliyyatlar dövlətin yuxarı strukturlarında müəyyən olunur və gerçəkləşdirilir. Demək, kimin həbs olunub-olmayacağı qərarı da orada verilir. Ona görə də burada dartışılası bir şey yoxdur.

***- Sizin bu prosesə siyasi müxalif kimi münasibətinizi bilmək istəyirəm...***

-Mənim siyasi münasibətim birmənalıdır. Mən, Azərbaycan iqtidarının bütövlükdə idarəetmə sisteminin bu detallar və sxemlər üzərində qurulduğunu uzun illərdir deyirəm. Parlamentdə olanda da, indi də həmin mövqeni ifadə etmişəm. Sistem dəyişməyənə qədər ciddi dəyişiklik ola bilməz. Baş verən hadisələri də sistem cinayəti hesab edirəm. Xarici İşlər Nazirliyindən əvvəl Mədəniyyət Nazirliyində də əməliyyat keçirildi. Sabah hansısa başqa nazirlikdə əməliyyat keçirilsə, bu faktlar ortaya çıxmayacaqmı? Demək ki, bunlar sistemlə bağlı olan məsələlərdir. Buna sistem cinayətləri aspektindən yanaşmaq lazımdır. Sistem cinayətlərini aradan qaldırmaq üçün yeni idarəetmə sisteminə keçidin əsasları ortaya qoyulmalıdır. Yeni bir sistem doktrinası işlənilməlidir ki, onun da içərisində həm yeni təfəkkürlü insanlar, həm



də idarəetmənin fəlsəfəsinin özü bütöv dəyişməlidir. Bir müxalifət partiyasının rəhbəri kimi hər zaman yanaşmam bu olub. Hakimiyyət sistemi dəyişməyib problemləri ayrı-ayrı adamların, fərqli epizodların üzərinə atsa da, onu durdurmağa çalışsa da, bütövlükdə sistemi dəyişə bilməyəcək. İqtidar bu sistemi dəyişə bilmədiyinə görə, biz də iqtidarı dəyişməyə çalışırıq.

***-Gəlin, bir qədər real danışaq da... İllərdir görürsünüz ki, hakimiyyəti dəyişmək mümkün deyil. Bir məsələ var ki, cəmiyyətdə bəlli personalara qarşı sərt münasibət var. Məsələn, Elmar Məmmədyarova olan münasibət ortada idi...***

-Siz Azərbaycanda hansısa nazirin sevilməsini eşitmisinizmi? Azərbaycanda sevilən məmur varmı? Yoxdur. Bəli. Uzun müddət yerində qalanlar və daha çox ortada olanlara daha sərt münasibət var. Amma ümumən hər-hansı sevilən persona yoxdur. Ramin Quluzadəni cəmiyyət tanımır, çünki onun insanlarla mütəmadi təması olmur. Bir dənə internetdə problem olanda Ramin Quluzadə yada düşür. Yəni, persona olaraq, diqqət mərkəzində olmur. Amma bizim Qarabağ kimi problemimiz olduğuna və mütəmadi danışıqlar aparıldığına görə Xarici İşlər naziri persona olaraq göz önündə olur. Bəli, mən Elmar Məmmədyarovun fəaliyyətini qəbul etməmişəm. Ümumiyyətlə, Azərbaycanın xarici siyasətinin doktrinasının olmadığı qənaətindəyəm. Amma personalar ciddi dəyişiklik edə bilməz. 2003-cü ildən bu yana dəyişməyən nazir varmı? Hamı dəyişib. Sizcə, həmin nazirliklərdə idarəetmə fəlsəfəsi dəyişibmi?

***-Niyə ki, müəyyən...***

-(Sözümüzü kəsərək) Ciddi heç nə dəyişməyib. Hamısında problemlər qalıb. Deməli, söhbət personalardan getmir, sistemdən gedir. Elə üç-dörd dəfə yenilənən nazirlik var. Amma həmin qurumda ciddi heç bir dəyişiklik nəzərə çarpmır. Bəli, kosmetik, xırda-para dəyişikliklər var. Lakin sistematik dəyişiklik yoxdur.

***-Hakim komandanın bu boyda kadr bankında bir normal persona yoxdurmu? Bəlkə elə siz müxalifətçiliyinizə salıb görmürsüz?***

-Mən hakimiyyətə bütöv baxıram. Bütöv siyasətə nəzərən qiymətləndirmə edirəm. Ona görə də şəxs olaraq kimisə pisləmək niyyətim yoxdur. Mən görəvlərin icrasına baxıram. Ümumilikdə, hakimiyyətin siyasətinə qiymət verirəm. Prezident deyilən ki, hər-hansı konkret sahəyə qiymət verim. Deyim ki, iqtisadiyyat nazirim yaxşı işləyir, vergi nazirim pis, maliyyə nazirim ortabab işləyir, bir başqa nazirim də heç işləmir. Buna Prezident nəzarət edə bilər və ona nəzərən də komandasını dəyişər, formalaşdırar. Mən müxalifət olaraq, ümumən hakimiyyətin apardığı siyasətin kafi, yoxsa qeyri-kafi olduğuna qiymət verirəm. Hesab edirəm ki, bütün sahələrə kafi qiymət vermək mümkün deyil. Sosial vəziyyətə, Qarabağ məsələsinə, münasibətlər sisteminə, iqtisadi sahəyə baxanda yaxşı qiymət cəmiyyətin arzu elədiyi qiymət deyil.

***-Cəmiyyətin Məmmədyarovu ən çox ittiham elədiyi məsələ onun Azərbaycan dilində danışa bilməməsi idi. Bu ki, sistem məsələsi deyil...***

-Təəssüf ki, Məmmədyarov nümunəsi tək nümunə deyil. Bu gün ölkədə nazirliklərin hamısında rus dili hakimdir. Kluarlarda, dəhlizlərdə münasibətlər sistemi bu dildədir. İstənilən nazirə zəng eləsəniz, katibəsi sizinlə rus dilində danışacaq. Bunun da təbii səbəbləri var. Ölkənin məktəblərində rus dilində təhsil almaq üçün yer yoxdur. Azərbaycan sektorları boş, rus sektorları ağzına qədər dolu. Aparılan siyasət budur. Biz nə edək? Əgər Azərbaycanda ana dilinə münasibət siyasəti fərqli olsaydı, Elmar Məmmədyarovun ağzı nə idi Azərbaycan dilini öyrənməsin. Elə öyrənərdi, bal kimi. Necə ola bilər ki, ölkənin Baş qərargah rəisi Azərbaycan dilində danışa bilməsin. Mədəniyyət naziri Azərbaycan dilində düz-əməlli danışa bilirdi ki? Adam İlhamə Quliyevaya şəhid deyirdi. Bu kimi məsələləri kontekstdən çıxarıb bir şəxsin məsuliyyəti kimi qələmə vermək doğru deyil.

***-Siz hakimiyyətə gəlməyə iddiası olan partiyanın liderisiniz. Hakimiyyətə gələcəyiniz təqdirdə indiki hakim komandada hansısa kadrla işləyə bilərsinizmi?***

-Siyasi təyinatı olan bir adam belə mənimlə işləməyəcək. Ora kimlər aiddir?.. Nazirlər. Mənim tələb elədiyim, qurduğum sistemdə indiki nazirlərin heç biri işləməyəcək. Mənim komandamda ölkəni idarə edə biləcək nə qədər desən, bacarıqlı mütəxəssislər var.

***Z.Məmmədli***

# XİN-dən Fransanın Overn-Ron-Alp regionunun prezidentinə etiraz

***”Fansanın Overn-Ron-Alp (Auvergne Rhone Alpes) regionunun prezidenti Loran Vokenin (Laurent Wauquiez) Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini təhrif edən, o cümlədən iki ölkə sərhədində Ermənistan silahlı qüvvələri tərəfindən bu ilin 12 iyul tarixindən etibarən törədilən hərbi təxribat ilə bağlı tamamilə həqiqətə uyğun olmayan və qərəzli bəyanat ilə çıxış etməsini qətiyyətlə pisləyirik”.***

“Unikal” xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin məlumatında bildirilib.

Qeyd olunub ki, qatı ermənipərəst mövqeyi ilə tanınan L.Vokenin rəhbərlik etdiyi və erməni icmasının çoxluq təşkil etdiyi Overn-Ron-Alp regionunun ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ bölgəsində yaradılmış qanunsuz rejimlə 10 əməkdaşlıq xartiyasını imzalaması region prezidentinin mövqeyinin qərəzli xarakter daşıdığını aşkar şəkildə göstərir.

”Beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycanın beynəlxalq tanınmış ərazilərini hərbi işğal altında saxlayan Ermənistanın təcavüzkar siyasətinə haqq qazandıran bu bəyanat, Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin ruhuna uyğun gəlmir, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransanın mövqeyinə ciddi zərbə vurur. Fransanın ikinci böyük regionunun prezidentinin bu kimi birtərəfli və reallıqdan uzaq mövqeyi Azərbaycan ictimaiyyətinin Minsk Qrupunun həmsədri qismində Fransanın qərəzsiz mövqeyinə inamını sarsıdır. Bəyanat Fransanın beynəlxalq, Avropa, ikitərəfli və milli səviyyədəki öhdəliklərinə ziddir.

Azərbaycan tərəfi Fransadan Minsk Qrupunun həmsədri olaraq münaqişənin həlli istiqamətində real addımlar atacağını, eləcə də Fransanın seçkili orqanlarının bəzi nümayəndələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qondarma “qurum”u təşviq edən hər hansı fəaliyyətinin qarşısının alınması üçün bütün zəruri tədbirləri görəcəyini gözləyir”.

# İcra başçılarına ağır dərs...

## Nizami rayonunun sabiq rəhbəri Qoca Səmədovun aqibətini yaşaya bilərmi?

***Yola salmaq üzrə olduğumuz həftə ölkə başçısının sərəncamı ilə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov vəzifəsindən azad edildi. Yerli KİV-də yazılanlara görə, Qasımovun vəzifədən azad edilməsinə AzTV-nin Nizami rayonunun M.X.Şərifli və Ş.Mirzəyev küçələrinin kəsişməsində yerləşən parkda qanunsuz tikilmiş obyektlə bağlı hazırladığı süjet səbəb olub.***



Süjetdə bildirilib ki, dövlətin həyata keçirdiyi sosialyönümlü layihələrin hər biri vətəndaşların güzəranının daha da yaxşılaşdırılmasına hesablandığı halda bəzi şəxslər yalnız maddi qazanc haqqında fikirləşir. Maddi qazanc uğrunda görülən işləri, vətəndaşların haqlarını heçə saymaqdan çəkinmirlər.

Qeyd olunub ki, bəzi hallarda acgözlük, artıq tamah bütün mənəvi dəyərləri üstələyir. Vətəndaşlar üçün salınan bu parkda ot örtüyünün üzərində hansısa qazanc məqsədli obyektin tikilməsini, yəqin ki, başqa cür izah etmək mümkün deyil. Vətəndaşlar da belə vəziyyətdən məmnun deyillər.Reportajın efirə verildiyi gün, səhər saatlarında isə sakinlərin də narazılığına səbəb olan obyekt sökülüb. Bunun ardınca Nizami rayonunun icra başçısının vəzifədən azad edilməsi ilə bağlı sərəncam imzalanıb. Arif Qasımov bu posta 2015-ci ildə təyin olunmuşdu.

Unikal.org-a açıqlama verən sabiq icra başçısı əslində yuxarıda yazılanları dolayısı ilə təsdiqləyib. Qasımov prezidentin onunla bağlı verdiyi qərarın düzgün olduğunu deyib: "Cənab prezidentin verdiyi qərar bizim tacımız, qəbulumuzdur. Səhvim oldu, cənab prezident də məni vəzifəmdən azad etdi".

Nizami rayonunun sabiq icra başçısının vəzifəsindən azad edilməsi Azərbaycanın şəhər və rayon rəhbərləri üçün yeni xəbərdarlıq siqnalı hesab edilə bilər. Bu, onlara yol verdikləri hər hansı səhvin bağışlanmayacağı, kəskin şəkildə cəzalandırılacaqları barədə növbəti konkret mesajdır.

Bu yerdə xatırlatmağa ehtiyac var: xüsusilə ötən ilin sonlarından etibarən Azərbaycanda rayon icra hakimiyyəti başçılarının qanunsuz əməlləri ilə bağlı sərt cəza tədbirləri görülməkdədir. 2019-cu ilin dekabrından başlayaraq öncə Ağstafanın icra başçısı Nizaməddin Quliyev və müavini Ramiz Tatarov, sonra Yevlax Şəhər İcra Hakmiyyətinin başçısı Qoca Səmədov, ardınca Neftçalanın icra başçısı İsmayıl Vəliyev, daha sonra Biləsuvarın icra başçısı Mahir Quliyev, son olaraq isə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev həbsxanaya göndərildi. Bu siyahının uzanacağına isə çoxları şübhə etmir.Əslində yuxarıda adları çəkilənlərlə müqayisədə Arif Qasımov bəlkə də canını yaxşı qurtarıb: o sadəcə vəzifəsini itirdi, bəlkə də şükür eləyir ki, indi digər keçmiş həmkarları kimi həbsxanada deyil. Lakin hər bir halda onun "vurulması" yerdə qalan rayon rəhbərləri üçün görk olmalıdır. Dərk edilməlidir ki, icra başçılarının vəzifəsi vətəndaşa xidmətdir, Az.TV-nin məlum süjetində deyildiyi kimi, acgözlük, artıq tamah heç bir şəkildə mənəvi dəyərləri üstələməməlidir!

Bu artıq sirr deyil ki, icra başçıları çox zaman vətəndaşlarla kobud rəftarı, laqeyd münasibəti, korrupsiyaya meylliliyi ilə gündəmə gəlib. Sovet dövrünün idarəetmə sisteminin təsirindən irəli gələn haldır ki, bəzi icra başçıları özlərini az qala əyalət padşahı kimi aparırlar. Diqqətçəkən maraqlı məqamlardan biri də onların bir çoxunun sırf kommunist ruhlu olmasıdır. Müqayisə edəndə icra başçılarının Sovet dövrünün raykom katiblərindən fərqlənmədiyini görürük. Bu cür şəraitdə onların ölkədə həyata keçirilən islahatlarla ayaqlaşması qeyri-mümkündür.

Elə son yarım ildə bir sıra rayon rəhbərlərinin həbsi, son olaraq isə Nizami rayonunun icra başçısının "vurulması" bu sadə həqiqətin təsdiqidir. Aydın görünür ki, ölkənin siyasi rəhbərliyi belələrini vəzifələrində saxlamaq, cəzasız qoymaq niyyətində deyil. Elə ona görə də hələlik iş başında olan icra başçıları bütün bunları dərindən təhlil etməli, dərs almalıdırlar. Əks halda onların aqibətlərinin də Arif Qasımovdan fərqli olmayacağına şübhə yoxdur. Hətta beləlləri yollarının Nizaməddin Quliyev, Vilyam Hacıyev və digərləri kimi həbsxanadan düşə biləcəyini də unutmamalıdırlar. Elə Nizami rayonunun sabiq icra başçısının özü də sadəcə vəzifəsini itirməsi ilə canını qurtardığına sevinməməli, haqqında daha sərt ölçü götürülməsini istisna etməməlidir. Vaxtilə Yevlaxa rəhbərlik edən Qoca Səmədov da yol verdiyi nöqsanlara, pozuntulara görə işdən çıxarılmış, bir müddət sonra isə barəsində daha kəskin addım atılmış, xüsusi əməliyyatla saxlanılmış, törətdiyi qanunsuz əməlləri istintaq qarşısında etiraf etməli olmuşdu. Hazırda isə o, məhkəmənin qərarı ilə həbsdədir...

***Orxan Həsənli***

# Elmar Məmmədyarov Ceyhun Bayramovdan danışdı



***Prezident İlham Əliyevin sərəncamı ilə Xarici İşlər naziri vəzifəsindən azad olunan Elmar Məmmədyarov Gununsesi.org-a qısa müsahibə verib.***

"Unikal" sabiq nazirlə qısa söhbəti təqdim edir:

Elmar müəllim, vəzifənizi itirdiniz. Özünüzü necə hiss edirsiniz?

Vəzifə insan üçün əbədi deyil. Ona görə də özümü normal hiss edirəm. Uzun illər çalışmışam, xidmət göstərmişəm.

Gələcək planınız nədir?

Mən cəmi iki gündür ki, xarici işlər naziri vəzifəsindən azad olunmuşam. Evimdə oturmuşam. Gələcəklə bağlı hansısa qərarım yoxdur. Söz verirəm ki, hansı qərarım olsa, bunu sizlə bölüşəcəyəm.

ABŞ-a övladlarınızın yanına gedəcəksiniz, ya Azərbaycanda qalacaqsınız?

Dedim axı, hələ heç nə qərarlaşdırmamışam. Hansı addımı atsam bunu biləcəksiniz.

Yeni XİN rəhbəri Ceyhun Bayramov haqqında düşüncələriniz nədən ibarətdir? Onun diplomat kimi təcrübəsinin olmamasını xüsusi vurğulayanlar var.

Mən elə sizin sayt vasitəsilə Ceyhun Bayramova uğurlar diləyirəm. Savadlı insandır. Şəxsən də tanışlığımız var. Sualınızın ikinci hissəsinə gəlincə, bu, mənə ünvanlacaq sual deyil. Ona görə də bu haqda özündən soruşsanız daha yaxşı olardı.

# Soydaşlarımız Ermənistanın ABŞ-dakı səfirliyi önündə etiraz aksiyası keçiriblər



***Son günlər dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Ermənistanın ölkəmizin dövlət sərhəddində hərbi təxribatlar törətməsinə etiraz olaraq bu ölkənin müxtəlif ölkələrdəki səfirliklərinin önündə aksiyalar keçirirlər.***

Modern.az ABŞ-da yaşayan soydaşlarımız da Vaşinqtonda Ermənistan səfirliyinin qarşısına toplaşaraq baş verənlərə öz hiddət və kəskin etirazlarını bildiriblər. Əllərində Azərbaycan və Türkiyə bayraqlarını, erməni təxribatları zamanı qəhrəmancasına həlak olmuş şəhidlərimizin şəkillərini, müxtəlif şüarların yazıldığı plakatları tutan soydaşlarımız Ermənistan səfirliyinin önündə Azərbaycanın dövlət himnini oxuyublar.

Aksiya ərzində tədbir iştirakçıları "Yaşasın Azərbaycan!" "Yaşasın millətimiz!", "Yaşasın dövlətimiz!", "Yaşasın birliyimiz!", "Şəhidlər ölməz, vətən bölünməz!" şüarlarını səsləndirməklə dövlətimizə, xalqımıza və ordumuza dəstək olduqlarını ifadə ediblər.

# "Yoluxma sayı artacaq" - Baş infeksionist karantin rejiminin uzadılmasını istədi

***Karntin rejiminin daha 2 həftə uzadılması gözlənilir. Hazırkı situasiya bunu diqtə edir. Bunu Modern.az-a açıqlamasında respublikanın baş infeksionisti Cəlal İsayev bildirib.***



C.İsayev qeyd edib ki, yoluxma sayında müəyyən stabilləşmə müşahidə edilsə də, bu, virusun tamamilə yox olması anlamına gəlmir: "Dünən ilk dəfə yoluxanların sayı 500-lərdən 493-ə düşdü. Əsas bu stabilləşmənin növbəti günlərdə də müşahidə edilməsinə nail olmaqdır. Yoluxma sayında azalma əhəmiyyətli dərəcədə olarsa, sərt karantinin yumşaldılmasından söhbət gedə bilər".

Baş infeksionist deyib ki, orduya dəstək məqsədilə ötən günlərdə əhalinin aksiyaya toplaşması yoluxma sayının artımına səbəb olacaq: "Aksiyada bütün qaydalar pozuldu, yoluxma ehtimalı yüksəldi. Gözlənilir ki, yoluxma sayı artsın. Virusun inkubasiya dövründən asılı olaraq, aksiyadakı yoluxma nəticələri özünü göstərəcək. İnkubasiya dövrü 4-5 gün,14 gün də ola bilər. Orada yoluxan insanlarda xəstəlik subklinik keçə bilər ki, bu da cəmiyyət üçün təhlükəli ola bilər. Bu baxımdan yaxın günlərdə Azərbaycanda yoluxma hadisələrində artım gözlənilir".

# Deputatlar şəhid generalın və polkovnikin məzarını ziyarət etdilər



***Milli Məclisin bir qrup deputatı II Fəxri Xiyabanda Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində törətdiyi hərbi təxribatın qarşısını alarkən şəhid olmuş general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevin məzarlarını ziyarət edib.***

"Unikal"ın məlumatına görə, Milli Məclisin sədr müavini Fəzail İbrahimli, deputatlar - Soltan Məmmədov, Elnur Allahverdiyev, Razi Nurullayev, Müşfiq İskəndərov, Rüfət Quliyev, Məşhur Məmmədov şəhid hərbçilərimizin məzarı önünə əklil qoyublar.

# Azərbaycan Prezidentindən mühüm mesajlar

## İlham Əliyev: "Azərbaycan xalqının səbrinin həddi var"

***Məlum olduğu kimi, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycanın mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində hərbiçilərimiz həlak olub, yaralanıb. Artıq bir neçə gündür ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş hadisələr əsas gündəm mövzusudur. İyulun 15-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında baş verənlərə bağlı mühüm çıxış edib, mövcud durumu dəyərləndirib, həm ölkə ictimaiyyətinə, həm də beynəlxalq aləmə olduqca əhəmiyyətli mesajlar verib.***

Prezident çıxışına əsasən erməni tərəfinin təxribat planlarını ifşa etməklə başladı. Ölkə başçısı bildirib ki, Ermənistan bu təxribatın səbəbkarı kimi Azərbaycanı göstərməyə cəhd etsə də, bunun üçün hər hansı məntiqə söykənə bilmirlər: "Bizim Ermənistanla Azərbaycanın dövlət sərhədində hər hansı bir hərbi məqsədimiz yoxdur. Bildiyiniz kimi, bir neçə il bundan əvvəl mənim tapşırığımla sərhədin bir hissəsinin qorunması Sərhəd Qoşunlarına həvalə olunubdur. Bu da onu göstərir ki, bizim bu istiqamətdə hər hansı bir hərbi planımız yoxdur və prinsip etibarilə hərbi məqsədlər nöqteyi-nəzərdən bunun heç bir əhəmiyyəti yoxdur. Üstəgəl Ermənistan dırnaqarası "Azərbaycan diversiyasını" əsaslandırmaq üçün çox ağılsız və hesab edirəm ki, onların səviyyəsinə uyğun səbəb göstərməyə cəhd etdi. Guya ki, Azərbaycanın hərbi qulluqçuları - iki nəfər UAZ maşını ilə Ermənistan sərhədini pozaraq hərbi diversiya törətməyə cəhd etmişlər. Sual olunur, hansı ölkənin ordusu hücumu iki zabit və əsgərlə UAZ maşını ilə təşkil edir? Bəlkə Ermənistan ordusu belə "müdrik" hərbi əməliyyatlar hazırlamaqla məşğuldur? Ancaq Azərbaycan Ordusu və dünyanın heç bir ordusu belə ağılsız addım atmaz. Yəni, bu cəfəng versiyanın Ermənistan tərəfindən təqdim edilməsinin əsas səbəbi, günahı bizim üzərimizə yıxmaqdır, hər dəfə olduğu kimi. Ancaq bu dəfə buna heç kim inanmayıb. Hərbi mütəxəssis olmaq lazım deyil ki, bu cəfəng versiyaya insanlar inansın. Əsl vəziyyət ondan ibarət idi ki, bir daha demək istəyirəm bizim hərbi postumuz artilleriya atəşi ilə vurulub və bu qəfil çirkin addım nəticəsində hərbçilərimiz həlak olublar. Dərhal mən bütün müvafiq göstərişlər verdim. Azərbaycan Silahlı Qüvvələrinə göstəriş verdim ki, hərbçilərimizin intiqamı alınmalıdır, onların qanı yerdə qalmamalıdır və düşmənə elə bir zərbə endirilməlidir ki, onu uzun illər bundan sonra yaddan çıxarmasın. Eyni zamanda, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, aidiyyəti qurumlara göstəriş verilib ki, bütün beynəlxalq təşkilatlar Ermənistanın bu diversiyası ilə əlaqədar məlumatlandırılsın, bu hadisə haqqında dolğun məlumat verilsin. Mən dərhal Təhlükəsizlik Şurasının toplantısını çağırdım və orada qeyd etdim ki, operativ vəziyyət imkan verən kimi, biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin nümayəndəliklərində işləyən hərbi attaşeləri, jurnalistləri, əgər belə istək olarsa, səfirliklərin digər nümayəndələrini həmin bölgəyə dəvət edəcəyik, onları bu vəziyyətlə tanış edəcəyik və onlar yerində görəcəklər ki, bu təxribatı törədən kimdir və bu təxribat nəticəsində həlak olanlar hansı ordunun əsgərləridir".

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal" qəzetinə açıqlamasında qeyd edib ki, ölkə başçısının dövlət sərhədində baş verənlərlə bağlı mövqeyi, verdiyi mesajlar olduqca



dəqiq və yerində idi. Onun sözlərinə görə, Prezidentin hadisənin baş verən anında aktiv fəaliyyəti, proseslərin yönləndirilməsi istiqamətindəki verdiyi tapşırıqlar hiss olunurdu: "Ölkə başçısı hadisələrin idarə edilməsində çox yüksək səriştə və qabiliyyət göstərdi. Lazımi anlarda Ali Baş Komandan kimi Ordunun idarə edilməsində, müvafiq göstərişlərin verilməsi sahəsində də qabiliyyəti ilə seçildi. Prezident həm də baş verənlərin dərin analizini apardı və siyasi izahatını verdi. Məsələn, ermənilərin Tovuz istiqamətində hücumunun səbəblərini dəqiq ifadələrlə, Ermənistan daxilindəki siyasi gərginliyi, Azərbaycanın informasiya siyasətində Ermənistanı xeyli qabaqladığını konkret faktlarla açıb göstərdi. Bundan başqa, ölkədə yayılan müəyyən şayiələrin qarşısının alınması istiqamətində də dəqiq fikirlər səsləndirdi. Bir daha bəyan etdi ki, Azərbaycan Ordusu bir sm torpaq verməyib, hələ üstəlik istəsəydik, əməliyyatları davam etdirib Ermənistanın bir neçə rayonunu öz nəzarətimiz altına keçirə bilərdik. Azərbaycan Prezidenti ölkənin Xarici İşlər Nazirliyinin də fəaliyyətini ciddi tənqid elədi. Çox da haqlı tənqid elədi. Onun çıxışından biz bilmədiyimiz müəyyən şeylərdən də agah olduq. Biz bilirdik ki, XİN onsuz da passiv işləyir və proseslərin arxasınca sürünür. Amma ölkə başçısı konkret detallarla bu fəaliyyətsizliyi dilə gətirdi. Əslində xarici siyasətlə bağlı bütün işləri ölkənin Prezidenti həyata keçirir. Xarici siyasətdəki uğurlarımızın hamısı bir başa cənab Prezident İlham Əliyevin adı ilə bağlıdır. O bütün beynəlxaq tədbirlərdə Qarabağ məsələsini qaldırır, Ermənistanın təcavüzkar siyasətini ifşa edir. Bunlar Azərbaycanı önə çıxaran, dünya siyasətində fəal oyunçuya çevirən addımlardır. Xarici işlər naziri bütün bunların fonunda nələrəsə çiyinlərini verməyə çalışmalıydı, amma görünür, bunu bacarmadı".

Prezident daha sonra bildirdi ki, Azərbaycan imitasiya naminə danışıqlar aparmaq, mənasız videokonfranslar keçirmək fikrində deyil: "Bunun mənası olmalıdır. Mən demişəm ki, Minsk qrupunun işi çox fəal olmalıdır və onların mandatı çərçivəsində təkcə təmas xəttində, yaxud da ki, dövlət sərhədində atəşkəsin təmin edilməsi məsələsi yox, mahiyyət üzrə danışıqlar aparılmalıdır və bunun üçün artıq uzun illər ərzində formalaşmış baza var. Ancaq Ermənistan öz destruktiv addımları, qeyri-konstruktiv bəyanatları, sərhəddə və təmas xəttində törətdikləri hərbi cinayətləri ilə bütün bu danışıqlar konstruksiyasını məhv edir. Ermənistan danışıqların formatını dəyişmək, mahiyyətini pozmaq istəyir. Yəni, faktiki olaraq bu gün Ermənistan danışıqlar prosesini dağıdır və bunu hər kəs görür. Sadəcə olaraq, Ermənistan rəhbərliyinin açıqlamalarına fikir vermək kifayətdir. Onların hərbi rəhbərliyi bizi hədələməyə çalışır. Bizi yeni torpaqların işğalı ilə hədələmək istəyir. Ancaq bunlara bu günlərdə verilən dərs hesab edirəm ki, uzun müddət onların yaddaşından silinməyəcək. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Azərbaycan xalqının səbrinin həddi var. Ona görə danışıqlar mahiyyət üzrə aparılmalıdır. Əgər biz görsək ki, bu danışıqlar əhəmiyyətsizdir, onda buna uyğun şəkildə öz addımlarımızı da atacağıq və bəyanatlarımızı da verəcəyik".

Qabil Hüseynli onu da qeyd edib ki, Tovuz istiqamətindəki gərginlik səngimək üzrədir. Onun sözlərinə görə, ermənilər hər vasitə ilə provokasiyanı davam etdirməyi planlaşdırırlar: "Burada ermənilərin məqsədi Azərbaycanı onların daxil olduqları və "Moskva NATO"su deyilən Kollektiv Müdafiə Müqaviləsi Təşkilatı ilə üz-üzə qoymaq idi. Amma buna nail ola bilmədilər. Prezidentin dediyi kimi, Azərbaycan potensialını tam şəkildə işə salsaydı, ən azı Ermənistanın üç-dörd rayonunu işğal edə bilərdi. Amma bu iri miqyaslı müharibə riski demək idi. Azərbaycan bu məsələlərdə təmkinli davrandı. Hesab edirəm ki, bundan sonar üzümüzü işğal edilmiş ərazilərə çevirməliyik. Məncə, ermənilərlə danışıqlar prosesi iflasa uğradı. İndi yeganə yol müharibə yoludur. Biz torpaqlarımızın 1 sm ərazisini bağışlamaq fikrimiz yoxdur. Bu məsələdə ölkə əhalisinin hamısı Prezidentin ətrafında birləşib. Gənclərimiz yüksək vətənpərvərlik əhval-ruhiyyəsindədir. Məsləhət olarsa, hətta mən də bu yaşımda keçmiş ehtiyatda olan bir zabit kimi könüllü olaraq orduda xidmətə gedərəm".

Prezident İlham Əliyev beynəlxalq aləmin baş verən hadisələrə reaksiyasına da toxunub: "Təxribat törədiləndən dərhal sonra - ayın 12-də günorta saatlarında mən Prezident Administrasiyasına müvafiq göstərişlər verdim və bizim beynəlxalq təşkilatlardakı nümayəndələrin, o cümlədən parlamentlərarası təşkilatlardakı nümayəndələrin hər biri təlimat aldı və təmsil olunduqları təşkilatların rəhbərlərinə məsələ ilə bağlı dolğun məlumat verdi. Ancaq mən hesab edirəm ki, bizim diplomatik fəaliyyətimiz daha səmərəli ola bilərdi. Mən dəfələrlə demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır. Kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinən diplomatiya olmamalıdır. Mən bunu dəfələrlə demişəm, həm müxtəlif tədbirlərdə, həm Xarici İşlər Nazirliyində, Azərbaycanın xarici ölkələrdəki səfirləri ilə görüşlərdə yol göstərmişəm ki, nə etməlisiniz. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hansı addımları atmalısınız. Xarici ölkələrdə fəaliyyət göstərən mətbuatla necə işləməlisiniz. Azərbaycanın iqtisadi maraqlarını necə müdafiə etməlisiniz, Azərbaycan vətəndaşlarının hüquqlarını necə qorumalısınız. Diaspor təşkilatları ilə əlaqədar səmərəli işləri necə aparmalısınız. Beynəlxalq təşkilatlarda Azərbaycana bəzi hallarda ünvanlanan əsassız ittihamlara necə cavab verməlisiniz. Düşməni necə susdurmalısınız. Demişəm, hər bir məsələ ilə bağlı yol göstərmişəm. Amma biz bu göstərişlərin həyatda öz əksini tapmasını görürükmü? Bir çox hallarda görmürük. Əfsuslar olsun ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmır, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğuldur. Düşmən ölkə ilə, bizimlə münaqişədə olan ölkə ilə COVID-lə bağlı hansı danışıqlar aparıla bilər?! Bu, cəfəngiyyatdır. Yəni, nədir, biz Ermənistanla əməkdaşlığımı başladıq?!".

Politoloq Elxan Şahinoğlu bizimlə söhbətində deyib ki, 2016-cı ildən fərqli olaraq, Azərbaycan bu dəfə prosesi davam etdirmək istəyir. Onun sözlərinə görə, 2016-cı ildə Rusiyanın təzyiqi oldu və 4 gündən sonra savaş dayandı: "Halbuki o vaxt biz daha çox ərazi azad edə bilərdik. Bu dəfə də dayansaq, cəmiyyətin ciddi narazılığına səbəb ola bilər. Bakıda keçirilən yürüş, gənclərin orduya yazılması, prezidentin Elmar Məmmədyarovu mənasız danışıqlarda iştirak etməkdə tənqid etməsi, bütün cəmiyyətin prosesin davam etməsini tələb etməsidir. Danışıqların dayandırılması, məsələni birdəfəlik həll etmək, döyüşləri Qarabağ istiqamətinə yönəltməkdir. Təzyiqi fikirləşək, gərək biz Qarabağ barədə fikirləşməyək. Bu günə olan vəziyyət odur ki, hələlik bizə heç kim mane olmur. Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Ukrayna bizə dəstək olacaqlarını bəyan ediblər. Heç bir beynəlxalq təşkilat bizi qınamır. Sabah bizim ordu Ağdamı azad etmək istəyəndə kim bizim qarşımızı ala bilər. Rusiyadan Ermənistana hər hansı dəstək olarsa, Türkiyə ilə ittifaqı daha üst səviyyəyə qaldırmaq lazımdır. Mənə elə gəlir ki, bu proses artıq başlayıb".

***Z.Məmmədli***

# Məmurların Azərbaycandan qaçaq saldığı on milyonlarla dollar...

## Vətəndaşlarımız niyə kütləvi şəkildə başqa ölkələrdə əmlak alırlar?

***Bu ilin iyun ayında Azərbaycan vətəndaşları Türkiyədə 70 mənzil alıb. Bu barədə Türkiyənin Statistika İdarəsinin məlumatında qeyd olunub. Daha öncəki ayla müqayisədə rəqəmlərdə müəyyən qədər də olsa artım nəzərə çarpıb. Ümumilikdə isə cari ilin 6 ayı ərzində Azərbaycan vətəndaşları Türkiyədə 431 mənzil alıb.***

Qeyd edək ki, Türkiyədə mənzillərin kvadrat qiyməti yerindən asılı olaraq dəyişir. Ümumilikdə isə qiymətlər kvadrata görə, 601 manatla 2 min 918 manat arasında ( 2 430 TL - 11 988 TL) dəyişir. Ötən ilin cari dövrü ilə müqayisədə isə kvadrata görə qiymətlərdə kifayət qədər artım nəzərə çarpır. Belə ki, 2019-cu ilin ilk 6 ayında daha öncəki dövrlə müqayisədə qiymətlərdə enmə müşahidə olunmuşdu. Cari ildə isə qiymətlərdə 8-11 faizədək artım olub. İstanbulda kvadrata görə qiymətlər 950 manat civarındadır, Ankarada isə qiymət 493 manat civarındadır. İzmirdə bu qiymət 771, Antalyada 656-dır.

Yeri gəlmişkən, son illərdə azərbaycanlıların təkcə Türkiyədə deyil, Avropanın bir çox ölkələrində də mənzil



almaları xeyli artıb. Xüsusilə Mərkəzi və Şərqi Avropa ölkələrində mülk sahibi olmağa üstünlük verənlər çoxdur. Vətəndaşlarımız bu ölkələr arasında daha çox Çexiya Respublikasını seçirlər. Eyni zamanda son illər Macarıstan və Polşada da mənzil alanların sayında artımlar var. Lakin bu, bir o qədər də ciddi rəqəmlə ifadə olunmur. Qərbi Avropa ölkələrindən Almaniyada mənzil alan azərbaycanlıların sayında yüksəlmə var. Ancaq bütün bunların fonunda Azərbaycanda yaşayıb İngiltərə, Amerika Birləşmiş Ştatları kimi ölkələrdə ev alanların sayı azdır.

Elə qonşu Gürcüstanda da əmlak sahibi olmaq istəyən azərbaycanlıların sayında xeyli artım müşahidə edilir. Orada həmin rəqəm 2017-ci ilin əvvəlinə 1700-yə yaxın olub. Bu Gürcüstanın Miqrasiya məsələləri üzrə hökumət komissiyasının 2012-2016-cı illəri əhatə edən son hesabatı əsasında müəyyən edilib.

Sənədə əsasən, ölkədə əcnəbilərin mülkiyyətində olan 34 024 daşınmaz əmlakın 4,9%-i və yaxud 1 678-i azərbaycanlılara məxsusdur. Bunun isə 1 133-ü kənd təsərrüfatı torpağı, 126-sı qeyri-kənd təsərrüfatı torpağı, 419-u isə mənzil və yaxud yaşayış evidir. Baş ofisi Gürcüstanda yerləşən "York Towers Developments" beynəlxalq şirkətinin Əmlak üzrə məsləhətçisi Ahmed Amin üç il öncə bildirib ki, "Azərbaycan vətəndaşları Tbilisidə mənzil əldə etməyə böyük maraq göstərirlər: "Bu maraq getdikcə daha da artır". Onun sözlərinə görə, Azərbaycan vətəndaşları Tbilisidə daha çox investisiya qoymaq məqsədilə mənzil alırlar.

Amin deyib ki, şirkət 2016-cı ildən fəaliyyət göstərir və Tbilisidə artıq 3 yaşayış kompleksi layihəsini başa çatdırıb: "Hazırda Tbilisidə digər bir böyük layihənin tikintisi davam edir və işlər 2 ildən sonra yekunlaşacaq. Bu layihəyə də Azərbaycan vətəndaşları böyük maraq göstərir. Gürcüstan qanunvericiliyinə görə əcnəbi vətəndaş çox asanlıqla ölkədə mənzil əldə edə bilir".

Gürcüstanda fəaliyyət göstərən "Red-Co" daşınmaz əmlak şirkətinin marketinq meneceri Katya Absandze isə deyib ki, Azərbaycan vətəndaşları adətən Batumi və Qudauri kimi turizm mərkəzlərində inşa edilmiş binalardan mənzillər alırlar: "Azərbaycan vətəndaşlarının fəallığı ilin bütün mövsümlərində müşahidə edilir, alıcılar əsasən fiziki şəxslərdir".

Azərbaycanlıların xaricdə daşınmaz əmlaka artan marağının və nəticədə on milyonlarla dolların ölkəmizdən kənara çıxmasının səbəbi, yaxud səbəbləri nədir? Bu sual bir neçə ildir iqtisadçı ekspertlər arasında ciddi müzakirə mövzusudur. Bir neçə gün əvvəl daşınmaz əmlak üzrə ekspert Elnur Fərzəliyev Sputnik Azərbaycan-a açıqlamasında bu haqda danışıb: "Türkiyədə Azərbaycanla müqayisədə azad iqtisadi zona var. Bu gün bəzi imkanlı şəxslərimiz Türkiyədə bağ evləri, mənzil, villa alır, ya yaşayır, ya da həmin evi kirayə verir. Orada mənzil bazarında qiymətlər bizimki ilə müqayisədə çox aşağıdır. Orada sənədləşmə işi də qaydasındadır. Hətta tikilməkdə olan binalar üçün də kupçalar verilir", - deyə ekspert əlavə edib.

O bildirib ki, yerli vətəndaşlarımız daha çox Türkiyənin turistik ərazilərində mənzil almağa üstünlük verir: "Türkiyə xarici vətəndaşları investor kimi ölkəsinə cəlb edib. Dövlət binanın tikilib başa çatacağına zəmanət verir".

"Azərbaycana gəlincə isə, pandemiya şəraiti olsa da, tikinti bazarı işləyir. Daha çox ipoteka ilə mənzillər alınır. Lakin bu sahədə müəyyən problemlər var ki, bunlardan da ən birincisi sənədləşmə ilə bağlıdır", - Fərzəliyev əlavə edib.

"MBA Group" konsaltinq və qiymətləndirmə şirkətinin baş direktoru, daşınmaz əmlak bazarı üzrə ekspert Nüsrət İbrahimov isə hələ bir müddət öncə bu mövzuda danışarkən demişdi ki, Azərbaycan vətəndaşları "sadəcə xaricdə evim olsun" deyə qonşu ölkələrin daşınmaz əmlak bazarına pul yatırmırlar. "Məsələn, vətəndaşlarımız həm istirahət etmək, həm də təhsil almaq üçün daha çox Türkiyəyə gedir. Bunun üçün onlara yaşayış yeri lazımdır və hər dəfə xərc çəkib kirayəyə ev tutmaqdansa, oteldə qalmaqdansa birdəfəlik əmlak almağa üstünlük verirlər. Yatırımda digər səbəb risklərin bölüşdürülməsi ola bilər. Yəni, insanlar bütün vəsaiti Azərbaycana qoymaqla müəyyən risklə qarşılaşa bilər, buna görə də həmin riski bir növ paylayırlar", - deyə o, qeyd etmişdi.

İqtisadçı-ekspert Rəşad Həsənov isə ötən il yerli KİV-ə açıqlamasında demişdi ki, Azərbaycanın daşınmaz əmlak bazarında qiymətlər real dəyərdən xeyli yüksəkdir, odur ki, ölkə vətəndaşları yerli bazara investisiya qoymaqdansa, xarici bazara üz tutmağı daha məqsədəuyğun hesab edirlər. Sitat: "Son 20 ildə Azərbaycanın daşınmaz əmlak bazarında süni, reallığa uyğun gəlməyən qiymətlər formalaşdı, insanların əmlaka əlçatanlığı azaldı. Paralel olaraq Türkiyə və Gürcüstanda daşınmaz əmlak əldə etmək üçün qanunvericilik sadələşdirildi və istər-istəməz azərbaycanlılar bu iki ölkəyə meylləndilər, onlara investisiya qoydular".

Bundan başqa, mütəxəssisin sözlərinə görə, Azərbaycanda daşınmaz əmlakın gəlirliliyi qonşu ölkələrlə müqayisədə aşağıdır. Yəni, Türkiyə və Gürcüstanda əmlak alanlar onun pulunu kirayə (icarə) yolu ilə daha tez çıxarır.Daha bir nüans isə məmur özbaşınalığıdır. Bəzi vəzifəli şəxslərin süründürməçiliyindən, qanunsuz hərəkətlərindən bezənlər, monopolistlərin ucbatından biznes, sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa imkan tapmayanlar da bir çox hallarda ölkədən kənara üz tutur, öz potensiallarını orada reallaşdırmaq məcburiyyətində qalırlar...

Xaricdə alınan mənzillərin bir çoxu isə elə məmurların özlərinə, yaxınlarına aiddir. Onların əksəriyyəti burada müxtəlif qanunsuzluqlara əl atırlar, bir gün həmin əməllərinə görə cəzalandırılacaqlarını bildiklərindən işlərini daha ehtiyatlı tutur, bəri başdan ölkə kənarında, əsasən də korrupsiya pulları hesabına biznes qurur, mülk, mənzil alırlar....

***Sənan Mirzə***



# Zakir Həsənov şəhidlərlə bağlı generallara tapşırıq verdi

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan hərbi qulluqçuların ailələrinin hərtərəfli diqqətlə əhatə olunması və onlara yüksək qayğı göstərilməsi istiqamətində konkret addımlar atılır.***

Bu barədə Unikal.org-a Müdafiə Nazirliyindən məlumat verilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə iyulun 16-da Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, eləcə də nazirliyin idarə rəisləri general-mayor Rasim Əliyev, general-mayor Rasim Babayev və digər zabitlər Qəbələ rayonunda şəhid general-mayor Polad Həşimovun və Bakı şəhərində şəhid polkovnik İlqar Mirzəyevin ailələrini ziyarət ediblər.

Hər iki ailənin qayğıları ilə maraqlanan Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri bir daha Ali Baş Komandanın və Müdafiə nazirinin başsağlıqlarını şəhid ailələrinə çatdıraraq, Prezident İlham Əliyev tərəfindən onlar üçün ayrılan mənzillərin sertifikatlarını ailələrə təqdim ediblər.

Söhbət zamanı şəhid general-mayor P. Həşimovun və polkovnik İ. Mirzəyevin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına və nazirliyin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Tovuz rayonu istiqamətində döyüşlərdə şəhid olan bütün hərbi qulluqçuların ailələrinin qayğıları öyrənilir və onların həlli istiqamətində də addımlar atılacaqdır.

# Birinci kurslar dərslərə nə vaxt başlayacaq?

***Universitetlərə yeni qəbul olunmuş birinci kurslar müxtəlif səbəblərdən sentyabrın 15-dən dərslərə başlamaya bilər.***



Unikal.org xəbər verir ki, bu sözləri Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə onlayn mətbuat konfransında deyib. O bildirib ki, II-IV kurslarda təhsil alan tələbələr üçün hər hansı problem yoxdur:

"Bu, sadəcə bir ehtimaldır və ola bilər ki, nəticələr əsasında ayın 15-nə kimi yerləşdirməni çatdıra bildik. Yəni yerləşdirmə ola bilər ki, bitsin, ancaq boş qalan yerlərə qəbul bizim vaxtımızı ala bilər".



Zaur Əhməd

# Adını tarixə qanla yazanlar

***Azərbaycanın şəhid olmuş yüksək rütbəli zabitləri - general mayor Polad Həşimov və polkovnik-leytenant Raquf Orucov...***

Bu iki zabit Azərbaycan Ordusunun əfsanəvi nümayəndələri olublar. Həm Azərbaycan zabiti adına, həm də Azərbaycan kişisi adına şərəf gətirən şəxslər olublar. Yaxşı, bəs biz bu adamları nə zaman tanımışıq? Mənim Raquf Orucovla tanışlığımız olub. Adamla yarım saat söhbətim ona ruhən bağlanmağıma kifayət edib. Amma mən həyatımın ciddi səhvlərindən birini edərək onunla görüşdən sonra nəsə yazmadım. Bəlkə də özünün reaksiyasını bildiyim üçün bunu eləmədim. Çünki o, özü barəsində



nəsə müsbət şey deyilməsindən xoşlanmazdı. Ruhən bağlı olduğu vətəni işğaldaydı... Deyirdi ki, Qarabağ azad olunmayana qədər biz bir iş görmüş sayılmırıq. Yenə də nəsə borclu sayıram özümü. Zamanında Raquf Orucovu böyük ictimaiyyətə tanıtmaq üçün nəsə eləmədiyim üçün günahkaram. Yəqin ki, Raquf bunu mənə bağışlayar. Ən azından indi qonşu olduğu atama görə bağışlayar...

Gələk, general-mayor Polad Həşimova. Qos-qoca general şəhid olur səngərdə. Bu faktın nə olduğunu anlayırsınız da. İllərlə kabinetdə ulduzlarını parıldadan generallardan olmayıb eee. Səngər zabiti olub. Onun barəsində bu iki-üç gündə nələr eşitmədik, nələr danışılmadı. Zabit şərəfini layiqincə daşıyasan, üstəlik adam kimi adam olasan. Əsgərə ata, böyük qardaş olmaq elə də asan deyil. Onu tanıyan kim varsa, danışanda gözləri dolur, ürəyi parçalanır. Adamın heç inanmağı gəlmir ki, belə bir adam general rütbəsinə qədər necə gəlib çıxıb. Axı, bizdə belə adamları geri itələmək, önünü kəsmək həmişə dəb olub. O qədər gözügötürməyən adam var ki. Polad dişi ilə, dırnağı ilə o rütbəni qazanıb, amma yenə də səngərdən çıxmayıb. Adam səngər adamı idi, kabinet generalı yox, döyüş, səngər generalı idi. Elə döyüşdə, səngərdəcə canını sevdiyi vətəninə fəda etdi.

Bəs biz bu adamları niyə sağikən tanımadıq, tanıtmadıq? Axı, onlar diriykən də qəhrəman idilər. Deyəsən, biz diri qəhrəman sevmirik. Yaxud da adamı öləndən sonra urvata mindiririk. Azərbaycan Ordusunun mənim üçün göz bəbəyi sayılan bu iki zabiti öz yaşamaqları ilə də, ölməkləri ilə də tarix yazıblar. Biri var tarixi kiməsə mürəkkəblə yazdırasan, biri də var tarixi qanınla özün yazasan. ŞƏHİDLƏR adlarını tarixə öz qanları ilə yazanlardır.

Bizi bağışla cənab general, bizi bağışla cənab polkovnik. Siz bu Vətənə layiq oldunuz, amma hələlik biz sizə layiq deyilik. İnşallah qisasınızı alıb, Sizə layiq olarıq!!!

# Oliqarx banklarına vacib sual...

## Onlar pandemiya ilə bağlı niyə güzəştə getmirlər?

***Dünyanın hər yerində olduğu kimi, koronavirus (COVİD-19) pandemiyası da Azərbaycan iqtisadiyyatına öz mənfi təsirini göstərir. Digər tərəfdən, neft qiymətlərinin xeyli aşağı düşməsi də bu mənfi təsiri gücləndirir. Dövlət anti-böhran tədbirləri ilə bu prosesi dayandırmağa və zəifləmməyə çalışır.***

Hökumət tərəfindən aprel və may aylarında ilk növbədə, birinci dərəcəli sahələrə xüsusi dəstək və yardım göstərildisə, iyun ayı başlayan kimi bunları davam etdirmək lazım gəldiyi zərurəti göründü.Ekspertlərin fikrincə, zərərçəkən sektorların siyahısında dəyişikliklərə ehtiyac yaranmaqdadır ki, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov da qeyd edib ki, pandemiya ilə bağlı yaranmış müddət uzandıqca dəstək və yardım istəyən sahələrin sayı artır. Bəziləri bank sektorunu da bura daxil etməyi vacib bilirlər. Lakin həmin fikirlə razılaşmayanlar da var. Məsələn, iqtisadçı Pərviz Heydərov bu günlərdə yazıb ki, hələlik buna ehtiyac yoxdur. Səbəb o deyil ki, burada vəziyyət əladır və yaxud da koronavirus adı çəkilən sektoru vurmayıb. Xeyr. Sadəcə, dövlətin sözügedən sektoru yaranmış vəziyyətlə bağlı sığortalamasına hələ ki, ehtiyac yaranmayıb. Əksinə, yaranmış vəziyyətdə bank sektorunun özünün bir sıra güzəştlərə getməsi tələb olunur ki, əslində, bu daha düzgün yoldur. Hansı ki, bu, özünü bankaların müştəriləri ilə aralarındakı münasibətlərdə büruzə verməlidir. Ya kreditlərin verilməsi prosedurunda, ya da geri ödənişdə müxtəlif güzəştlərin tətbiqi yolu ilə... Odur ki, dövlətin bank sektoruna dair hər hansı güzəşt paketinə və sairəyə baxmasına heç bir ehtiyac yoxdur.Ancaq iqtisadçı maraqlı sual qoyub ki, heç olmasa, banklar özləri hansısa güzəştlərə getməyə hazırdırlarmı? Xeyr. Real vəziyyət göstərir ki, təəssüf, hətta pandemiya şəraitində də banklar buna hazır deyillər!

İqtisadçının fikrincə, əvvəla, bank sektoruna pandemiya təsirini belə tez göstərə bilməz. Bunun üçün bir az vaxt lazımdır. Bundan əlavə, lap əgər, hansısa göstəricilərdə mənfi fəsadlar və meyllər ortaya çıxmış olsa da belə, bu, koronavirus səbəbindən deyil, sektorun vəziyyətindən irəli gəlir. Bizdə, bank sektorunu sağlamlaşdırmağa hələ əvvəldən ehtiyac var idi. Mövcud iqtisadi şərait isə hər şeyi daha əyani üzə çıxartdı.Üçüncüsü, lap tutaq ki, pandemiya hər şeyi korlayıb. Bank sektoru iqtisadiyyatın spesifik sahəsidir və o əgər, sağlam vəziyyətdədirsə, kənar və subyektiv təsirlər ucbatından dərhal pis vəziyyətə düşə bilməz. Sözügedən sektor və yaxud sistem gərək "xəstə vəziyyətdə" olsun ki, kənar mənfi şoklar da sektoru dərhal silkələsin. Azərbaycanda bank sektoru isə əvvəldən sağlam vəziyyətdə deyildi.2015-2016-cı illərdəki böhrandan sonra ölkənin bank sistemində 11-dən çox bank bağlanmışdı. Proses hələ davam edəcəkdi, sadəcə, hökumətin və dövlətin üzləşdiyi problemlər və çətinliklər digər bankların ləğvi prosesini dayandırdı. Çünki başqa əlac yox idi. Böhrandan sonra ölkə iqtisadiyyatı 2017-ci ildən etibarən bərpa olunmağa başlasa da, bank sektoru iflic vəziyyətində qalmaqda davam etdi. Yalnız dövlət başçımızın təşəbbüsü və birbaşa müdaxiləsi yolu ilə problemli kreditlər məsələsi həllini tapdıqdan sonra banklar özlərinə gəlməyə başladılar ki, bu bir növ onların koma vəziyyətindən çıxmalarına bənzədi.Ekspert qeyd edir ki, bəli, bank sektorunun ən böyük problemi vaxtı ötmüş kreditlər məsələsi idi və dövlət keçən il buna müdaxilə etdi - Prezident tərəfdən bir növ xalqa hədiyyə yolu ilə bu məsələ həllini tapdı. Xatırladım ki, problemli kreditlərin həcmi həmin vaxt 2 milyard manata çatırdı.



Problemli kreditlər azalıbmı? Və indi hansı tendensiya əsasında dinamika nümayiş etdirilməkdədir? Məsələ bundadır ki, sektorda problemli kreditlər məsələsi gah azalan, gah da artan tendensiya üzrə dinamika nümayiş etdirir ki, bunu cari ilin yanvar-may aylarının göstəriciləri də təsdiq edir. Bu il yanvarın 1-nə vaxtı ötmüş kreditlərin həcmi 1273.1 milyon manat təşkil edirdi ki, fevralın 1-nə bu rəqəm 1306.9 milyon manat, martın əvvəlinə 1297.8 milyon, aprelin əvvəlinə 1386.8 milyon, may və iyun aylarına görə isə müvafiq olaraq 1232.4 milyon və 1084.8 milyon manat olub. Ümumiyyətlə, ilin əvvəlinə nisbətən problemli kreditlər artsa da, son 1 ildə azalıb.P.Heydərovun fikrincə, iş bundadır ki, banklar qeyri-neft sektorunu maliyyələşdirə bilmirlərsə və bu sahəyə kredit vermirlərsə, yenidən "koma"ya düşə bilərlər. Çünki onları bu vəziyyətə istehlak kreditləri salmışdı. "Mən əvvəlki illərdə bunu demişəm ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektorunun böhranının səbəblərindən biri də məhz o idi. İndi də mənə məlumat verilir ki, yenə də bu meyillər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yəni, istehlak mallarının alınmasına kreditlər verilir. Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik", - deyə, Prezident müşavirələrin birində vurğulamışdı.

Yeri gəlmişkən, daha bir fakt ondan ibarətdir ki, ölkədə fəaliyyət göstərən 26 bankdan 21-i verdiyi kreditlərin 58 faizə qədərini təminatsız ötürüb. Belə şəraitdə, koronavirusla bağlı dövlətin banklara kreditlərin geri ödənişi ilə bağlı güzəşt paketindən söhbət gedə bilərmi? Lazımdırsa, bunu banklar özləri niyə etməsinlər ki?!

Fikrimizcə, ekspertin yuxarıda səsləndirdiyi suallar yetərincə maraqlı, eyni zamanda cavabı intizarla gözlənilən suallardır...

***Toğrul Əliyev***

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF

# Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında yeni metodlardan istifadə labüddür

## Nigar Arpadarai: "Bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır!"

***Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi artıq illərdir ki, dövlətimizin prioritet siyasi xəttinə çevrilib. Amma indiyə qədər bu istiqamətdə aparılan işlər artıq Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünyanın diqqətinə çatdırılmasında yeni metodların seçilməsini labüd edir. Bu günlərdə Diasporla İş üzrə Dövlət Komitəsi,Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə birlikdə Qarabağ həqiqətlərinin dünyada təbliği və Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətməsi ilə bağlı birgə videokonfrans təşkil edib.***

Dövlət Komitəsindən bildirilib ki, videokonfransda Komitə rəhbərliyi və əməkdaşları, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının, "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin təmsilçiləri, müharibə veteranları və bir sıra başqa şəxslər iştirak ediblər. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov işğalçı dövlət olan Ermənistanın silahlı qüvvələrinin ötən gün Tovuz istiqamətində törətdiyi hərbi təxribat və onun qarşısının alınmasını, Ermənistanın bütün cəhdlərinin iflasa uğramasını diqqətə çatdırıb. O bildirib ki, bu gün dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları və nümayəndələri bu təxribat əməlinə qarşı etiraz bəyanatları yayır, beynəlxalq təşkilatları təcavüzkara qarşı addımlar atmağa çağırırlar. Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri, deputat Tural Gəncəliyev dünya azərbaycanlılarının bu istiqamətdə daha müfəssəl məlumatlandırılması üçün Komitə ilə ortaq layihələrin həyata keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Çıxış edənlər Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında diasporun böyük rola malik olması barədə danışıb, xaricdə yaşayan azərbaycanlıların davamlı şəkildə məlumatlandırılmasının vacibliyini qeyd ediblər.

Videokonfransda Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının yeni metod və formaları ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Bəs görəsən Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünyanın diqqətinə çatdırılmasında hansı yeni metodlardan istifadə edilə bilər?

Bu suala cavab tapmazdan öncə qeyd edək ki, son günlər cəbhədə düşmən tərəf atəşkəsi aramsız pozmaqda davam edir.

Milli Məclisin deputatı Nigar Arpadarai deyir ki, ATƏT və Avropa Şurası kimi beynəlxalq təşkilatlar öz mandat və missiyalarında nəzərdə tutulmuş prinsiplərə üzv dövlətlər tərəfindən əməl olunmasını təmin edə bilmirsə, üzv dövlətlərdən biri beynəlxalq hüququn prinsiplərini, bu təşkilatların işinin təməl prinsiplərini pozursa, ya o dövlət təşkilatdan uzaqlaşdırılmalıdır, ya da təşkilat mandat və missiyasına yenidən baxmalıdır, sadə dillə desək fəaliyyətini dayandırmalıdır: "Məlum olduğu kimi, İyulun 12-də erməni silahlı qüvvələri Azərbaycanın mövqelərinə artilleriya atəşi ilə zərbə endirmişlər və bu gözlənilməz zərbə nəticəsində bizim hərbçilərimiz həlak olmuş, yaralanmışlar. Həlak olanlar arasında, orduda çox böyük hörmətə malik olan, general-mayor Polad Həşimov da var idi. Cənab Prezident öz çıxışlarında dəfələrlə bildirib ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, passiv, özünü müdafiə edən diplomatiya olmamalıdır. Bu çox haqlı bir iraddır. Diplomatiya nədir? Diplomatiyanın bir çox istiqaməti var.

Xarici İşlər Nazirliyinin, səfirliklərimizin apardığı iş ancaq bir istiqamətdir. Vətəndaş cəmiyyəti, Parlamentlərarası münasibətlər, media diplomatiyası və s. kimi müxtəlif istiqamətlər var. Və bu istiqamətlərin hər birinin öz yeri var, hər istiqamətdə ciddi işləmək lazımdır.

Mən Milli Məclisin deputatı və ölkəmizin AŞPA-dakı Nümayəndə heyətinin üzvü olaraq hazırda onlarla məktub hazırlayıram - müxtəlif ölkələrin deputatlarına, AŞPA-dakı komitələrə, beynəlxalq mətbuata, beynəlxalq təşkilatların katibliklərinə. Bilirəm ki, həmkarlarım da bunu edir. Bütün bu qurumlara Azərbaycanın haqlı mövqeyini çatdırmağa çalışmalıyıq. Yorulmamalıyıq, qətiyyətli olmalıyıq. Cənab Prezidentin söylədiyi kimi, kiminsə xoşuna gəlmək naminə öz sözünü deməkdən çəkinməməliyik. Göndərilən 10 məktubdan 1-i bizim istədiyimiz nəticəni gətirərsə, bu da nailiyyətdir. Mövqeyimə gəldikdə isə, o belədir ki, hal-hazırda Avropada, Avropa Şurası və ATƏT-in üzv dövlətlərindən biri olan, Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş hüquqları kobud şəkildə pozulur. Avropanın ərazisində təhlükəsizlik və əməkdaşlıq prinsipləri pozulur. ATƏT və Avropa Şurası kimi beynəlxalq təşkilatlar öz mandat və missiyalarında nəzərdə tutulmuş prinsiplərə üzv dövlətlər tərəfindən əməl olunmasını təmin edə bilmirsə, üzv dövlətlərdən biri beynəlxalq hüququn prinsiplərini, bu təşkilatların işinin təməl prinsiplərini pozursa, ya o dövlət təşkilatdan uzaqlaşdırılmalıdır, ya da təşkilat mandat və missiyasına yenidən baxmalıdır, sadə dillə desək fəaliyyətini dayandırmalıdır. ATƏT-in sədri, Azərbaycan və Ermənistana ünvanlanmış, sərhəddə mövcud vəziyyətin deeskalasiyası və atəşkəsin bərpası ilə bağlı çağırış tərkibli bəyanat verir və bununla da kifayətlənir. Lakin biz bununla kifayətlənməməliyik! Deeskalasiya və atəşkəsə çağırış əvəzinə ATƏT tərəflər arasında daimi sülhün bərpasına çağırış etməlidir və bu sülh ancaq ATƏT-in fəaliyyətinin başlıca prinsiplərindən olan ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslana bilər. Əgər ATƏT-in üzvlərindən biri olan Ermənistan bu prinsiplərə əməl etmirsə, bu prinsipləri kobud şəkildə pozaraq digər dövlətin ərazisini işğal edirsə, ya Ermənistan bu təşkilatdan çıxarılmalıdır, ya da ATƏT missiya və mandatına yenidən baxmalıdır, çünki hazırkı vəziyyətdə onun fəaliyyəti mənasızdır.Diplomatlar daha çətin terminlərlə danışa bilər, amma biz deputatlar daha sadə və açıq söyləməliyik, biz xalqın suallarını səsləndirməliyik. İndi əsas sual odur ki, sözdə bir şey söyləyən, əməldə isə elan etdikləri prinsiplərə əməl qoymayan beynəlxalq təşkilatlara üzvlüyümüz bizə nə verir ?".

Qeyd edək ki, ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin həllində hər zaman sülh və danışıqlar yolunu seçib. Ölkəmiz məhz bu səbəbdən də Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çatdırılması istiqamətində iş aparır. Torpaqlarımızın işğaldan azad edilməsində müharibə yolu hər zaman mümkün olduğu halda, Azərbaycan tərəfi münaqişənin danışıqlar yolu ilə həllinin tərəfdarıdır. Heç də təsadüfi deyildir ki, Azərbaycan hərbi güc tətbiq etməkdən belə çəkinməyəcəyini hər dəfə vurğulayır. Dünya təcrübəsində işğal altında olan torpaqların hüquqi yolla geri qaytarılması mümkün olub. Məhz Kosovo təcrübəsində bunun şahidi olmuşuq. Lakin bu ağrılı bir prosesdir. Çünki hər zaman ikili standartlar mövcud olub. Hazırda Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması, eləcə də Qarabağ haqqında həqiqətlərin daha dolğun, real faktlara və mənbələrə əsaslanaraq obyektiv şəkildə dünya ictimaiyyətinə çatdırılması olduqca zəruridir. Elə Tovuzda dörd gündür ki, Ermənistan Silahlı Qüvvələrinin törətdiyi cinayətlər buna sübutdur. Dinc əhalinin hədəfə alınması dünya ictimaiyyətinə çatdırmaqla Ermənistanın təcavüzkar siyasətinin bütün dünyada ifşa olunmasına nail olmalıyıq. Elə bu gün də ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, Qarabağ haqqında əsl həqiqətlərin dünyaya çatdırılması, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması




Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq bir sıra beynəlxalq təşkilatlar qəbul etdiyi sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilib.

# Nazirlik çətin durumda olan ailəyə yardım etdi



***Sabunçu rayonu ərazisində Nəcəfova Pərvanə Əziz qızının övladları ilə birlikdə çətin vəziyyətdə yaşadığı barədə sosial şəbəkə səhifələrindən birində yayımlanan videosujetlə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ailə ilə əlaqə saxlayıb. Ailənin sosial dəstək tədbirlərinə cəlb olunması üçün uşaqlarının şəxsiyyətini təsdiq edən sənədlərinin olmadığı müəyyən olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Fazil Talıbov deyib.

Onun sözçərinə görə, Nazirlik tərəfindən ASAN Xidmətə müraciət edilərək onların səyyar xidmətlərindən istifadə olunub.

"İlkin olaraq ailənin 14 yaşına çatmayan iki övladının şəxsiyyət vəsiqələri ilə bağlı məsələ həllini tapıb. Sənədləşmə işləri aparılıb. Yaxın günlərdə şəxsiyyət vəsiqələri ailə üzvlərinə çatdırılacaq.

Bundan sonra Nazirlik tərəfindən ailəyə ailə başçısını itirməyə görə müavinət təyin ediləcək. Həmçinin P.Nəcəfova istəyi əsasında ödənişli ictimai işlərə cəlb olunub. Yaxın günlərdə əmək müqaviləsi bağlanacaq və işə başlayacaq. P.Nəcəfovaya ünvanlı dövlət sosial yardımı üçün müraciət proseduru da izah olunub".

# Könüllü qanvermə aksiyası keçirilir

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) əməkdaşları Azərbaycan Ordusuna, Silahlı Qüvvələrə mənəvi dəstəyini qanvermə aksiyası keçirməklə bildirib.***

ETSN-in mətbuat xidmətindən "Unikal"a bildirilib ki, nazirliyin kollektivi və ekokönüllülər xüsusi karantin rejiminin qaydalarına əməl etməklə qanvermə aksiyasında iştirak edirlər.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının xüsusi tibb briqadasının həkim hematoloqları donorların sağlamlıq vəziyyətini yoxladıqdan sonra onlardan qan götürürlər.

Nazirlik səhhəti imkan verən hər kəsi qanverməyə, birlik və həmrəylik nümayiş etdirməyə çağırır.

# Nazirlik işçiləri ağır durumda olan ailə ilə görüşdü

***Sabunçu rayonu ərazisində Nəcəfova Pərvanə Əziz qızının övladları ilə birlikdə çətin vəziyyətdə yaşadığı barədə sosial şəbəkə səhifələrindən birində yayımlanan videosujetlə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ailə ilə əlaqə saxlayıb. Ailənin sosial dəstək tədbirlərinə cəlb olunması üçün uşaqlarının şəxsiyyətini təsdiq edən sənədlərinin olmadığı müəyyən olunub.***

"Unikal" xəbər verir ki, bu barədə nazirliyin mətbuat katibi Fazil Talıbov məlumat verib.

O bildirib ki, nazirlik tərəfindən ASAN Xidmətə müraciət edilərək onların səyyar xidmətlərindən istifadə olunub. İlkin olaraq ailənin 14 yaşına çatmayan iki övladının şəxsiyyət vəsiqələri ilə bağlı məsələ həllini tapıb. Sənədləşmə işləri aparılıb. Yaxın günlərdə şəxsiyyət vəsiqələri ailə üzvlərinə çatdırılacaq.

Bundan sonra Nazirlik tərəfindən ailəyə ailə başçısını itirməyə görə müavinət təyin ediləcək. Həmçinin P.Nəcəfova istəyi əsasında ödənişli ictimai işlərə cəlb olunub. Yaxın günlərdə əmək müqaviləsi bağlanacaq və işə başlayacaq.

# "Dövlət rüsumu haqqında" qanuna dəyişikliyi təsdiqləndi –Detallar

***Prezident İlham Əliyev "Dövlət rüsumu haqqında" qanuna dəyişikliyi təsdiqləyib.***

"Unikal" xəbər verir ki, dəyişikliklə tibb müəssisələrin akkreditasiyasının keçirilməsinə görə tutulacaq dövlət rüsumunun məbləğləri müəyyənləşib. Bununla da dövlət rüsumu tutulmalı olan hərəkətlər və dövlət rüsumunun məbləği aşağıdakılardır:

- ambulator xidmət göstərən tibb müəssisələri - 2 000 manat
- stasionar xidmət göstərən tibb müəssisələri - 4 000 manat.



Eyni zamanda qanun layihəsində tibb müəssisələrinin akkreditasiyasının keçirilməsinə görə dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri də göstərilir.

Belə ki, ambulator xidmət göstərən tibb müəssisələri üçün nəzərdə tutulmuş dövlət rüsumunun Bakı şəhəri üzrə 100 faizi, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərləri və Abşeron rayonu üzrə 70 faizi, digər regionlar üzrə isə 50 faizi ödəniləcək.

Stasionar xidmət göstərən tibb müəssisələri üçün nəzərdə tutulmuş dövlət rüsumunun 250-dən çox çarpayısı olan tibb müəssisəsi üzrə 100 faizinin, 101-250 çarpayısı olan tibb müəssisəsi üzrə 90 faizinin, 50-100 çarpayısı olan tibb müəssisəsi üzrə 70 faizinin, 50-dən az çarpayısı olan tibb müəssisəsi üzrə isə 50 faizinin ödənilməsi nəzərdə tutulub.

# Erməni təxribatı ilə bağlı daha bir cinayət işi açılıdı

***Ermənistan Azərbaycan Respublikasının Silahlı Qüvvələri qarşısında növbəti dəfə acizlik nümayiş etdirməklə toqquşmanın intensivləşməsinə nail olmaq, habelə təcavüzkar siyasətinin nəticələrini möhkəmləndirmək və yeni təcavüz aktları həyata keçirmək məqsədilə mülki əhalinin sıx yaşadığı əraziləri atəşə tutmaqla onlara qarşı müxtəlif cinayətlər törətməyə davam edir.***

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, iyulun 16-da, saat 06 radələrində Ermənistanın silahlı qüvvələri tərəfindən Tovuz rayonu, Dondar Quşçu kənd sakini Abdullayeva Roza Asif qızına məxsus evə və evin qarşısındakı yardımçı tikiliyə odlu silah mərmisinin atılması və həmin mərminin partlaması nəticəsində zərərçəkmiş şəxsin əmlakı qəsdən məhv edilməklə sonuncuya xeyli miqdarda ziyan vurulub.

Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilməklə maddi sübutlar toplanılıb, dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədi ilə mütəxəssislər cəlb olunub və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

Faktla bağlı Tovuz rayon prokurorluğunda Cinayət Məcəlləsinin 186.2.2-ci (yandırmaqla, partlatmaqla, və ya başqa ümumi təhlükəli üsulla özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurulmaqla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.



Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədi ilə zəruri və institusional tədbirlər görüləcək.

# DTX Rauf Xələfovla bağlı açıqlama yaydı

***İnternet resurslarında cari il iyulun 14-də gecə saatlarında bir qrup şəxsin təxribat məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin inzibati binasına daxil olmasının Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşı Rauf Xələfovla əlaqələndirilməsi kimi absurd, heç bir əsası və məntiqi olmayan fikirlər səsləndirilməkdədir.***

Dövlət Təhlükəsizliyi Xidmətindən "Unikal"a verilən məlumata görə, Dövlət Təhlükəsizliyi Xidmətinin adı çəkilən əməkdaşının digər hüquq mühafizə orqanlarının işçiləri ilə həmin vaxt xüsusi mühafizə obyekti olan Milli Məclisdə olması xidməti vəzifələrin icrasından irəli gəlib: "Ayrı-ayrı sosial şəbəkə və media resurslarında bilərəkdən qərəzli məqsədlər üçün belə məlumatları yayanlar, heç şübhəsiz düşmən və antiazərbaycan qüvvələr tərəfindən idarə olunduqlarını və onların sifarişlərini yerinə yetirdiklərini aydın şəkildə bir daha sübut edirlər.

Milli Məclisin binasında avadanlıq və inventarların sıradan çıxarılmasında və digər pozucu hərəkətlərdə iştirak etmiş şəxslər qanunvericiliyə uyğun məsuliyyətə cəlb olunacaqlar.

Dövlət Təhlükəsizliyi Xidməti vətəndaşlarımızı heç bir təxribata uymamağa və dövlətçilik mövqeyindən çıxış etməyə çağırır".

# "Bu proqram departamentlərin qeyri-peşəkarlığındandır" - Müşfiq Hətəmov

***Sosial şəbəkələrdə ən çox qınanılan mövzulardan biri də efirlərdə 1960-1980-ci illərə aid filmlərin nümayiş etdirilməsidir. İnsanların çoxu hazırda vətənpərvərlik mövzusunda yeni filmlərin çəkilmədiyindən şikayətlənirlər.***

Sözügedən məsələ ilə bağlı Unikal.org-a açıqlama verən Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsinin sektor müdiri Müşfiq Hətəmov bildirib ki, bunun səbəbi televiziyalardakı proqram departamentlərinin qeyri-peşəkarlığıdır: "İnsanları qınamıram, çünki adi vətəndaşlar yeni filmləri tanımırlar. Köhnə filmləri nə qədər göstərmək olar? Köhnə filmlər də düzgün təbliğ edilmir, 4-5 film var ancaq onları efirə verirlər. Tək mənim dövrümdə neçə yeni filmlər çəkilib, ancaq "Dolu" və "Yarımçıq xatirələr" adlı filmlər göstərilir. Tək onlar deyil axı, "Üçüncü günün adamı", "Qisas almadan ölmə", Eldar Quliyevin "Dərvişin qeydləri", "Mən evə qayıdıram" kimi filmlər vətənpərvərlikdən, Qarabağdan və milli kimliyimizdən bəhs edir. Hətta Qarabağ mövzusunda çəkilən "Nabat" filmi beynəlxalq rezonans doğuran filmlərdən oldu. 1941-1945-ci illərə həsr olunan filmlərimiz var, milli qəhrəmanlar haqqında 100-dən çox sənəndli film çəkilib. Gənc rejissorların Qarabağa aid 15-ə yaxın qısametrajlı filmləri var ki, heç biri gösərilmir. Bu proqram departamentlərinin qeyri-peşəkarlığındandır".

***Dürrə Həsənova***

# Sığorta fəaliyyəti niyə bankların yedəyində gedir? – TƏHLİL



***Sığorta bütövlükdə maliyyə sektorunun bir hissəsidir, başqa sözlə desəm, onun seqmentidir və sığortanın inkişaf səviyyəsi həm də məhz həmin sektorun özünün nə dərəcədə tərəqqi etməsindən asılıdır. Çünki sığorta bazarı pul münasibətlərinin xüsusi sferasını təşkil edir. Və bu bazar pul münasibətlərinə aid digər bütün bazarlar ilə istər-istəməz sıx əlaqədə çalışır.***

Odur ki, bütövlükdə maliyyə bazarı mövcud iqtisadi sistemin tələblərinə tam cavab vermədikdə sığorta sahəsi də qeyri-qənaətbəxş vəziyyətdə olur və hansısa digər seqmentin kölgəsində qalmaqla, yedəyində gedir. Necə ki, ölkəmizdə sığorta fəaliyyəti ilk gündən bank sektorunun kölgəsində qalıb, yedəyində getdiyi kimi... Söhbət nədən gedir?

Sığorta 2 formada həyata keçirilir: könüllü və icbari formalarda... Məsələ bundadır ki, bizdə sığortanın könüllü forması da əksər hallarda faktiki olaraq məhz icbari qaydada həyata keçirilməkdədir. Məsələn, kreditlə avtomobil və yaxud mənzil alınarkən olduğu kimi... Sığorta münasibətlərinə girmək alıcının öz şəxsi istəyinə və qərarına bağlı məsələ olsa da, müvafiq kredit müqaviləsi bağlanarkən bu məsələ də bir növ məcburən, yəni icbarı şəkildə həyata keçirilir. Yəni, müxtəlif izahatlar və təbliğat aparılması yolu ilə. Sonra da qeyd edilir ki, könüllü sığorta müqaviləsi bağlandı.

Məsələn, kasko sığortada olduğu kimi: vətəndaş bu və ya digər şirkətdən avtomobil alarkən həmin anda kredit müqaviləsi ilə birgə onunla bağlanılan kasko razılaşmasının müvafiq kredit müqaviləsi bitəndən və həmçinin avtomobilin istismar üzrə zəmanət müddəti də başa çatdıqdan sonra nədən yenidən təklif olunmaması heç kimdə sual doğurmur. Bunun bir səbəbi var. O da bundan ibarətdir ki, bizdə malı təklif edən də, krediti verən bank da və üstəlik, sığorta təklifini irəli sürən də eyni "əl"dir. Yəni, faktiki olaraq, eyni sahibkarlıq strukturudur. Və odur ki, həmin malın satışı zəifləyəndə, bankı batanda, yəni Mərkəzi Bank tərəfindən müflis elan edilərək lisenziyası əlindən alınanda sığorta təklifi və fəaliyyəti də avtomatik olaraq iflasa uğrayır. Bu, normaldırmı?! Sözsüz ki, xeyr!..

Bunun özü də bir daha, Azərbaycanda sığorta sahəsinin yaxşı inkişaf etmədiyi, bu sahədə fəaliyyət və o cümlədən, maraq amilinin bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə təmin olunmadığı, formalaşmadığı göstəricisidir. Bəli, ölkədə ümumən sığorta sahəsində nə əldə etmişiksə, 2000-ci illərdən sonrakı dövrə düşür. Niyə? Çünki, ölkə iqtisadiyyatının gəlir gətirmək qabiliyyəti məhz qeyd olunan dövrdən özünü göstərməyə başlayıb. Halbuki, sığorta özü bir biznes sahəsidir. Yəni, gəlir gətirən fəaliyyət növüdür. Ancaq bunun üçün müvafiq şərait, bazar mövcud olmalıdır. Bizdə isə bunlar yoxdur.

Əvvəla, sığorta barədə anlayış zəifdir, maraq sıfır dərəcəsindədir - gəlirlər sığorta xidmətindən istifadəyə bir çox hallarda imkan açmır. İmkan olduqda isə keyfiyyətli sığorta xidmətinə rast gəlinmir.

İkincisi də, bəli, sahibkar da, fiziki şəxs də əmlakını - malını sığortalamalıdır. Ancaq sahibkar və fiziki şəxs fəaliyyətini, mülkiyyətində olan mal və obyektləri o zaman sığortalayır ki, qazanclarında və yaxud əldə etdikləri gəlirlərdə gündəlik deyil, uzaq maraqları və məqsədləri olsun.

Bizdə isə məsələn, bilavasitə sahibkarları götürsək, ticarətlə məşğul olanların 99,9 faizi ancaq gündəlik qazanc barədə düşünür və bunun üçün çalışırlar. Başqa sözlə desəm, həyata keçirdikləri bütün fəaliyyət ancaq bu məqsədə xidmət edir. Çünki xırda-xuruş alverlə məşğul olurlar, bu adamlar sahibkar deyillər, alverçidirlər, sovet hökuməti vaxtı qeyd etdiyimiz alverçilərdən. Sadəcə olaraq, onların müasir variantı...

Belələri sığorta haqda nə düşünə və necə maraqlı ola bilərlər? Əslində, bu, ölkəmizdə fəaliyyət göstərən bütün kiçik və orta sahibkarlara aid məsələdir. Onların heç birinin strateji baxımdan planları və məqsədləri yoxdur. Ona görə də, fövqəladə bir hadisə, itki və zərər baş verən kimi dərhal hər şeylərini itirirlər və başlayırlar ki, dövlət kompensasiya ödəsin. Halbuki, çoxunun dövlətə vergini düzgün veribvermədiyi bəlli deyil. Ancaq sağlam və şəffav biznes olarsa, sığortaya da meydan açılar, sığorta haqları barədə də düşünülər...

Yuxarıda qeyd etdim ki, sığorta özü ayrıca biznes sahəsidir. Bu və ya digər sahibkarın ticarəti zəifləyəndə, bankı batanda, onun məşğul olduğu sığorta təklifi və fəaliyyətinin də, yəni sığorta biznesinin də avtomatik olaraq iflasa uğramaması üçün isə ilk növbədə bütövlükdə maliyyə bazarı mövcud iqtisadi sistemin tələblərinə cavab verməli, inkişaf etməlidir, ikincisi isə sığorta bazarının özünün də tam təşəkkül tapması üçün iqtisadiyyat tələb olunan səviyyəyə çatmalıdır.

Belə ki, kölgə iqtisadiyyatının çəkisi azalmalı, sığortaya inam və maraq yaranmalı, gəlirlər artmalı, sığorta xidmətləri maksimum səviyyədə stimullaşdırıcı - cəlbedici xarakter daşımaqla, sığorta anlayışı və onun səmərəsi cəmiyyətdə hər kəs üçün eyni dərəcədə aydın əhəmiyyət daşımalıdır. Ölkədə sırf, yəni təpədən-dırnağa sığorta biznesi formalaşmalı, ancaq bu işlə məşğul olan sahibkarlar sinfi yaranmalıdır.

***Pərviz Heydərov***

# Şəhid ailələri ilə bağlı təklif

***Şəhid analarının və ərləri şəhid olan qadınların TƏQAÜDƏ 65 yox, 55 yaşında çıxarılmalarını təklif edirəm - iş stajından asılı olmayaraq!***

Məgər onların dərdi-qəmi azdırmı ki, hələ bir 65 yaşına kimi də işləyib, təqaüdə çıxmalarını gözləsinlər? Onsuz da ömürlük dərd-qəm onları elə 50-55 yaşında da əyəcək, qocaldacaq (təəssüf ki, çoxları bəlkə heç o yaşa da çata bilməyəcəklər). Şəhid anasını və şəhid xanımını əlavə olaraq 10 il də işləməyə məcbur etmək düzgün deyil. Onların ailə, övlad-nəvə qayğıları, problemləri də az olmur axı.

Onu da unutmayaq ki, indi bəyənmədiyimiz sovetlərin dövründə qadınlar təqaüdə 50-55 yaşında çıxırdılar. Özünün xalqa zidd, ziyankar təklifləri ilə əhalinin kinini-küdurətini, nifrətini qazanmış əzazil Hadı Rəcəblinin qoyduğu ədalətsiz qaydanı ləğv etmək lazımdır.

İnanmaq istərdim ki, ölkə rəhbərliyi növbəti humanist addım ataraq, bu mühüm məsələnin tezliklə həllinə nail olacaqdır.

***P.S. Bu, həm də, az da olsa, işsizliyin müəyyən qədər azadıllmasında, qadınların işlə təminində mühüm rol oynaya bilər.***

# Dövlət Komitəsində sədr müavinlərinin sayı artırıldı



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnaməyə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyevin Fərmanı ilə komitənin sədr müavinlərinin sayı artırılıb.

Belə ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən müavinlərinin sayı 4 olub. İndiyədək Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin 3 müavini var idi.

# Bakının bəzi ərazilərində su olmayacaq

***Paytaxtın bir neçə ərazisində su olmayacaq. "Azərsu" ASC-dən "Unikal"a veilən məlumata görə, Bakı şəhərinin mərkəzi hissəsini qidalandıran magistral su kəmərində (Sulutəpə qəsəbəsi ərazisindən keçən hissəsində) baş vermiş qəza ilə əlaqədar Səbail, Yasamal, Nəsimi və Binəqədi rayonlarının bir hissəsinə içməli suyun verilməsində 18 iyul 2020-ci il səhər saatlarına qədər məhdudiyyətlər olacaq.***

ASC-nin qəza briqadaları, xüsusi texnikası əraziyə cəlb edilib və qəzanın aradan qaldırılması istiqamətində tədbirlər görülür.

# AQTA bitki sağlamlığına nəzarət üzrə sistem yaradıb

***"Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın 2019-cu il üzrə icrası çərçivəsində bitki sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistem yaradılıb.***

"Unikal"Azvision.az xəbər verir ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) Dövlət Proqramında icrası nəzərdə tutulmuş əkin təyinatlı torpaq sahələrində bitki mühafizəsi vasitələrindən və aqrokimyəvi maddələrdən istifadəyə dair monitorinqlər keçirib.

Bu tədbir üzrə torpaqlarda aqrokimyəvi analizlər aparılıb, hədəflərə nail olunub. AQTA tərəfindən bitki mühafizəsi vasitələri və aqrokimyəvi maddələrdən normativlərə uyğun istifadə ilə bağlı fermer və ailə-kəndli təsərrüfatları maarifləndirilib.

Əsas kənd təsərrüfatı bitkilərinin zərərli orqanizmlərdən mühafizəsi üzrə inteqrir mübarizə tədbirlərinə dair 4 təlimat hazırlanaraq nəşr edilib. Bunlar "Üzüm bağlarında inteqrir mübarizə tədbirləri sistemi üzrə təlimat", "Kartof əkinlərində inteqrir mübarizə tədbirləri sistemi üzrə təlimat", "Tumlu və çəyirdəkli meyvə bağlarında inteqrir mübarizə tədbirləri sistemi üzrə təlimat" və "Pambıq əkinlərində inteqrir mübarizə tədbirləri sistemi üzrə təlimat"dır.



## Elnur Allahverdiyev GUAM üzvlərinə bəyanat göndərdi

***İyulun 12-dən etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycanın Tovuz rayonunun sərhədyanı kəndlərini atəşə tutur, mövqelərimizi ələ keçirməyə cəhd göstərir. Bu aqressiya nəticəsində dinc əhali və hərbçilər arasında ölən və yaralananlar var.***

Azərbaycan bu təcavüzün dünya birliyinə çatdırılması tədbirləri çərçivəsində sədrlik etdiyi GUAM Parlament Assambleyasının növbədənkənar Büro iclasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. Bu barədə bəyanat artıq GUAM üzvlərinin parlament heyətlərinin rəhbərlərinə göndərilib.

Unikal.org Ermənistan-Azərbaycan sərhədində son qarşıdurmalar ilə əlaqədar GUAM Parlament Assambleyasının sədri Elnur Allahverdiyevin bəyanatını təqdim edir:

"Biz, Azərbaycanın Tovuz rayonunda həm hərbçilərin, həm də mülki şəxslərin həlak olmasına səbəb olan, Ermənistan-Azərbaycan sərhəddi boyunca Ermənistan silahlı qüvvələri tərəfindən zorakılığın artmasından olduqca narahatıq. Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və Ermənistan Respublikasını təcavüzkar hərbi siyasət və təxribata dərhal son qoymağa çağırırıq.

Biz təəssüf edirik ki, Azərbaycan ərazilərinin, yəni Dağlıq Qarabağ və ətraf yeddi rayonun erməni işğalı 30 ilə yaxındır ki, davam etməkdədir və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb etməsinə baxmayaraq, Ermənistan beynəlxalq birliyə etinadsızlıq göstərməyə davam edir. Sərhəd boyunca Ermənistan tərəfindən törədilmiş son zorakılıq rəsmi Yerevanın Azərbaycan torpaqlarının işğalına son qoymaqda və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaqda maraqlı olmamasının daha bir əyani sübutudur.

Biz beynəlxalq birliyin COVİD-19 ilə mübarizə apardığı bir zamanda Ermənistanın BMT Baş katibinin COVİD-19 səbəbindən ümumbəşəriatəşkəsə dair təşəbbüsünü dəstəkləyərək öz üzərinə götürdüyü öhdəliyə əməl etməyərək Azərbaycan qarşı hücuma başlaması faktından olduqca narahatıq.

Biz aşkar şəkildə üzv olduğu hərbi-siyasi təşkilatların Azərbaycan Respublikası ilə münaqişəyə cəlb edilməsi məqsədini güdən Ermənistan Respublikasının təhlükəli hərbi addımlarınıdiqqətlə izləyirik. Ermənistanın bu məqsədi qəbuledilməzdir, belə ki, Cənubi Qafqaz regionunda siyasi-hərbi vəziyyət artıq olduqca həssasdır və regiondankənar hər hansı müdaxiləyə davam gətirə bilməz.

Buna görə də biz Ermənistan Respublikası rəhbərliyini gələcək eskalasiyanın qarşısını almaq üçün dərhal Azərbaycan ilə sərhəddə bütün hərbi əməliyyatlara və silahlı qarşıdurmalara son qoymağa, atəşkəs rejimini bərpa etməyə və gərginliyi artıran hər hansı addımlardan çəkinməyə, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü kimi beynəlxalq norma və prinsiplərə müvafiq olaraq münaqişənin dərhal həlli ilə əlaqədar öhdəliklərini icra etməyə çağırırıq.

Ermənistan-Azərbaycan sərhəddindəson dövrdə şiddətin artması və qalmaqda olan gərginlik və hərbi əməliyyatları nəzərə alaraq, mən, Sədr olaraq növbəti həftədə Ermənistan Respublikasının Azərbaycana qarşı zorakılığı və onun səbəb olduğu nəticələrin müzakirəsi üçün GUAM Parlament Assambleyasının növbədənkənar Büro iclasının keçirilməsinə çağırış edirəm.

# Elmar Məmmədyarov həbsin bir addımlığında...

## Sabiq nazir haqqında siyasi qərar verildi, qarşıda isə onu hüquqi qərar gözləyir

***Nəhayət, gözlənilən baş verdi: Elmar Məmmədyarov Azərbaycan Respublikası Xarici İşlər naziri postundan kənarlaşdırıldı. Əslində Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) növbəti antikorrupsiya əməliyyatını Xarici İşlər Nazirliyində (XİN) keçirməsindən sonra bu gözlənilən idi: belə ki, Məmmədyarovun başqa bir sabiq həmkarının - Əbülfəs Qarayevin aqibətini yaşayacağına və görəvdən uzaqlaşdırılacağına şübhə yox idi.***

Lakin xarici siyasət idarəmizin keçmiş rəhbərinin sonluğu ikiqat ağır oldu. Dövlət başçısı İyulun 15-də Nazirlər Kabinetinin videokonfrans vasitəsilə gerçəkləşdirilən iclasında cəmiyyəti heyrətləndirən məlumatlar açıqladı. Məlum oldu ki, iyulun 12-də cəbhənin Tovuz istiqamətində vəziyyət həddən artıq gərginləşdikdən və faktiki olaraq müharibə şəraiti yarandıqdan sonra dövlət rəhbəri şəxsən XİN rəhbərini axtarıb. Aidiyyatı qurum rəhbərlərinin hamısı iş başında ikən önəmli bir vəzifəni yerinə yetirməli olan - Xarici İşlər naziri postunu tutan Elmar müəllim ortada olmayıb! Baş nazir Əli Əsədov E.Məmmədyarovu tapa bilib, o isə olduqca məsuliyyətli günlərdə heyrətamiz cavab verib: "Mən evdən işləyirəm".

Ölkə başçısının sabiq nazirin fəaliyyəti (daha doğrusu, fəaliyyətsizliyi!) barədə sərt tənqidlərindən sonra XİN rəhbərinin əvəzlənəcəyinə artıq şübhə yox idi: DTX-nin əməliyyatı ilə bu nazirlikdə rüşvət və korrupsiyanın dərin kök salması azmış kimi, cəbhədə şiddətli döyüşlər getdiyi bir vaxtda iş başında tapılmaması Məmmədyarovun öz postunda bir gün belə qalmayacağının anonsu idi. Necə ki, elə bu cür də oldu.

Dövlət başçısının elə həmin iclasda da vurğuladığı kimi, əfsus ki, son vaxtlar bizim diplomatiyamız ölkəmizin uğurlu inkişafı ilə uzlaşmırdı, bəzi hallarda mənasız işlərlə, mənasız danışıqlarla məşğul idi. Prezidentin çıxışından sitat: "Düşmən ölkə ilə, bizimlə münaqişədə olan ölkə ilə COVID-lə bağlı hansı danışıqlar aparıla bilər?! Bu, cəfəngiyyatdır. Yəni, nədir, biz Ermənistanla əməkdaşlığamı başladıq?!"

Bir sözlə, Elmar Məmmədyarov nazir postunu tutandan bu yana Azərbaycan xarici siyasətinin müəyyənləşmiş prioritetlərini həyata keçirməyə məsul olan bu dövlət orqanının fəaliyyətini təmin etməyi faktiki bacarmayıb! Son illərdə isə XİN ümumiyyətlə rüşvət və korruspiya bataqlığına yuvarlanıbmış, intiriqa yuvasına çevrilibmiş. Cəmiyyət bu nazirlikdəki gerçək vəziyyətdən xəbərdar olmağa başladıqdan sonra isə keçmiş nazirlə bağlı tənqidi çıxışlar, yazılar KİV səhifələrini, sosial şəbəkələri, elektron medianı zəbt etməkdəydi: dövlət üçün mühüm və strateji olan bu strukturun rəhbərliyi və diplomatik korpusun bəzi nümayəndələri bir neçə il idi ki, keçmiş diplomatlar, millət vəkilləri, ekspertlər tərəfindən belə demək, mümkünsə, "topa tutulurdu". Xüsusilə XİN-dəki kadr təyinatları, səfirliklərə kadr seçimi, konsulluq idarəsindəki viza problemləri, həmçinin, Dağlıq Qarabağ məsələsində XİN-in təşəbbüskar ola bilməməsi zamanla tanınmış şəxslər tərəfindən kəskin şəkildə tənqid olunub.Bu gün Məmmədyarovun ətrafında baş verənlər onu göstərir ki, belə tənqidlər tamamilə, hətta artıqlaması ilə haqlıymış.

Beləliklə, ölkəmizin xarici siyasət idarəsi Elmar müəllimin yarıtmaz, Azərbaycanın inkişaf strategiyası ilə uzlaşmayan və islahat konsepsiyası ilə ayaqlaşmayan fəaliyyətindən qurtuldu.

Lakin bir məsələ açıq qalır: haqqında siyasi qərar verilən Məmmədyarovla bağlı artıq hüquqi ölçüdə də bir qərar verilməsi mümkün ola bilərmi? DTX-nin antikorrupsiya əməliyyatı nəticəsində ortaya çıxarılan faktlar (məsələn, XİN-in İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Molla-zadənin korrupsiya yolu ilə əldə edilən pulların 20 faizini özlərində saxlayıb 80 faizini faktiki olaraq Elmar müəllimə ötürdüklərini söyləməsi!) və aparılan qandallamalar onu göstərir ki, bunun üçün kifayət qədər əsas var. Ən əsası isə ölkə başçısının həm Nazirlər Kabinetinin videokonfrans yolu ilə keçirilən iclasındakı sərt tənqidləri belə düşünmək üçün zəmin yaradır ki, sabiq nazir sadəcə postunu itirməklə canını qurtara bilməyəcək. Onun öncə istintaq, sonra isə məhkəmə qarşısına çıxarılması yetərincə realdır.



Bu yerdə nəzərə alaq ki, XİN-in yeni başçısı Ceyhun Bayramovu videoformatda qəbul edərkən ölkə rəhbəri növbəti kəskin bəyanat səsləndirib və bildirib ki, "Bəzi diplomatlar dövlətə xəyanət ediblər, satqınlıq ediblər və bunu gizlətmirlər. Yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədirlər. Bizdə kifayət qədər məlumatlar var. Bu gün Azərbaycana qarşı çirkin kampaniya aparan, özünü azərbaycanlı kimi təqdim edən, əslində, ermənilərdən də pis olan ünsürlərin mütləq əksəriyyəti yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədir. Onlardan pul və təlimatlar alırlar. Bizdə bu məsələ ilə bağlı kifayət qədər məlumatlar var". Ölkə başçısının bu sözləri Məmmədyarovun bir nazir kimi nə qədər bərbad, yarıtmaz işlədiyini, xarici siyasət idarəsi kimi strateji əhəmiyyətli qurumun fəaliyyətini tamamilə iflic vəziyyətinə saldığını gözlərimiz önünə sərir. Bunlar bağışlanmaz əməllərdir və məhz ona görə də XİN-in keçmiş rəhbəri ilə bağlı vaxtında verilmiş, olduqca düzgün siyasi qərarı qarşıdakı günlərdə hüquqi bir qərarın da təqib edəcəyini düşünmək mümkündür.

***Orxan Həsənli***

# Elman Rüstəmovla bağlı 1 milyard manatlıq borc qalmaqalının sirri...

## Baş bankir 3 ildən bu yana səslənən ittihamlar qarşısında niyə susur?

***Ötən həftənin sonlarında Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmovun adı ətrafında yeni qalmaqal yaşandı. "Son 10 ildə bir çox banklar bağlanıb və çoxları öz halal pulunu bu günə qədər də ala bilmir. Nə üçün həmin bank sahiblərinə qarşı sərt tədbirlər görülmür? Axı, hamı bilir ki, o pullar buxarlanmayıb, bank sahibləri tərəfindən mənimsənilib. Elə bu günün özündə həmin bankirlər o villalarda yaşayır və bahalı maşınlarda şütüyürlər" - bunu həmin vaxt vəkil Aslan İsmayılov bildirmişdi.***



Onun sözlərinə görə, həmin banklara nəzarəti həyata keçirən, vətəndaşların halal pullarının mənimsənilməsinin qarşısını almalı olan Mərkəzi Bankın sədri Elman Rüstəmovun elə özünün dövlətə 1 milyarda yaxın borcu var. O əlavə etmişdi ki, bu borc barədə mətbuatda məlumatlar dərc edilsə də, buna aydınlıq gətirilməyib.

Unikal.org-un əldə etdiyi məlumata görə isə sözügedən 1 milyard manat vəsaiti E.Rüstəmov "DekaBank", "StandartBank", "ZaminBank" və digər bağlanan, eləcə də hazırda fəaliyyətdə olan bir sıra banklardan dostları və qohumlarının şirkətlərinin adına şəxsi mənafeyi üçün alıb. Bildirilib ki, AMB-nın rəhbərinə həmin vəsaiti dövlətə qaytarmağına ilin sonuna kimi vaxt verilib.Unikal.org-un sonradan əldə etdiyi başqa bir məlumatda isə bildirilir ki, AMB sədri Mərkəzi Bankın təlimatlarını pozaraq "StandartBank" və "DekoBank" vasitəsilə xarici şirkətlərə, fiziki şəxslərə aşağı faizlə yüz milyonlarla uzun müddətli kreditlər verib. Rüstəmovun Bakıda şəriki olduğu MTK-lara da yeni binalar tikmək üçün böyük məbləğlərdə kreditlər verdiyi üzə çıxıb. Bütün kreditlər düşünülmüş şəkildə, 2015-ci ildəki devalvasiyadan öncə verilb.

Şəxsən Elman Rüstəmovun tapşırığı əsasında, ciddi qanun pozuntusu ilə verilən kreditlərin 70-80%-i Gürcüstan və Rusiyaya köçürülüb. Bildirilir ki, baş bankir Avstriyada yeni çap olunan əskinazlarla da bağlı qanun pozuntularına yol verib və bu barədə də geniş məlumat açıqlanacaq. Bundan başqa iddia olunub ki, AMB sədrinin növbəti qurbanı "MuğanBank" olmalıdır. Belə ki, bankda Elman Rüstəmova yaxın olan şəxslərin adına aid 44 mln krediti var. Baş bankirin bu kreditinin silinməsi üçün "MuğanBank" da bağlanmış bankların taleyini yaşaya bilər. Bu deyilənlərin, yazılanların, üstündən bir həftə keçsə də, ölkənin baş bankiri iddialara dair hər hansı münasibət bildirməyib, yaxud da münasibət bildirmək ehtiyacı hiss etməyib. Halbuki ictimaiyyətdə yaranan suallara, şübhələrə son qoymaq adına bu çox yaxşı olardı. Çünki söhbət sıradan bir bank rəhbəri ilə bağlı yox, ölkənin baş bankının rəhbəri ilə bağlı səsləndirilən yetərincə ciddi iddialardan gedir.

"Unikal" qəzetinin araşdırmasına görə isə hələ 2017-ci ildə bank ekspertləri virtualaz.org-un redaksiyasına həyəcan və təəccüb doğuracaq informasiya veriblər. Sayt etibarlılığına heç bir şübhə olmadığını bəyan etdiyi həmin mənbələrə istinadən yazıb ki, Mərkəzi Bankın rəhbəri E.Rüstəmov birinci devalvasiyadan (21 fevral, 2015) bir neçə həftə əvvəl Gürcüstanın inşaat sektoruna 700 milyon manat vəsait qoyub. "Devalvasiyadan əvvəlki məzənnə ilə bu məbləğ təxminən 1 milyard dollar təşkil edir. Bank mənbələrinin məlumatına görə, E.Rüstəmov həmin məbləği özünün Respublika Bankından, Beynəlxalq Bankdan və Azərbaycanın daha bir neçə bankından götürüb və hələ də qaytarmayıb. "Azərbaycan iqtisadiyyatının kreditləşməsinə və yeni layihələrin həyata keçirilməsinə xüsusi ehtiyac duyulduğu, iqtisadi və maliyyə böhranının yaşandığı bir dövrdə Mərkəzi Bank başçısının təşəbbüsü çox qəribə görünür və təəccüb doğurur" - sayt həmin vaxt yazıb.

Maraqlıdır ki, AMB rəhbəri həmin vaxt bu məlumatı yalanlamayıb.

Onu da bildirək ki, 2018-ci il martın 28-də İctimai Televiziyanın efrində prezidentliyə namizədlərin sayca 6-cı debatı zamanı da sözügedən məsələ gündəmə gəlib. Prezidentliyə namizədlərdən biri - Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğu maliyyə-bank sektorundakı vəziyyətlə bağlı fikirlər səsləndirərkən deyib: "Birinci devalvasiyadan qabaq Mərkəzi Bankın sədri Elman Rüstəmova sual vermişdilər ki, devalvasiya ola bilərmi, o da hələlik belə bir şeyin gözlənilmədiyini bildirmişdi. Üç gün sonra devalvasiya oldu, Azərbaycan xalqı 10 milyard zərərə düşdü. Amma sonradan məlum oldu ki, Elman Rüstəmov devalvasiyadan qabaq 800 milyon kredit götürüb dollara çevirərək 1 milyarddan çox pul qazanıb..."

Lakin baş bankir bu dəfə də deyilənləri cavabsız buraxıb: yəni nə təsdiq, nə də təkzib edib.

Qısası, 3 ildir ki, Elman Rüstəmovun külli miqdarda kredit borcu ilə bağlı məsələ bu və ya digər şəkildə gündəmə gəlir. Lakin AMB rəhbəri həmin mövzuda danışmamağı, susqun qalmağı üstün tutur. Bunun "niyə"si isə əlbəttə ki, çox maraqlıdır. Susmağın razılıq əlaməti sayıldığını nəzərə alsaq, belə aydın olur ki, Elman müəllimin 1 milyardlıq borcu ilə bağlı deyilənlərdə, yazılanlarda həqiqət payı kifayət qədərdir...

***Elvin Rüstəmov***




# Dövlət xidmətindən könüllü döyüşə getmək istəyənlərə müraciət

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) vətəndaşlara müraciət edib.***

Dövlət Xidmətindən Unikal.org-a daxil olan məlumatda bildirilib ki, könüllü olaraq orduda xidmət etmək istəyən vətəndaşlar bu gündən Xidmətin www.seferberlik.gov.az saytında aşağıdakı keçid vasitəsilə öz müraciətlərini elektron qaydada həyata keçirə bilərlər.

Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısını almaq və insanların sağlamlıq təhlükəsizliyini təmin etmək məqsədilə müəyyən olunmuş tələblərə əməl edilməsi, respublikamızda və xaricdə yaşayan vətəndaşların rahatlıqlarının, müraciət imkanlarının daha əlçatanlığının, həmçinin çoxsaylı vətəndaş müraciətlərinin qeydiyyatının operativliyinin təmin olunması üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yeni elektron xidmət istifadəyə verib.

Qeyd edək ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatla əlaqədar Xidmətin aparatına, yerli idarə, şöbə və bölmələrinə könüllü olaraq cəbhə bölgəsinə gedərək döyüşmək və lazımi köməklik göstərmək istəyən vətəndaşlarımız tərəfindən çoxsaylı müraciətlər daxil olmaqdadır.

***Famil***

# 8500 vətəndaş könüllü olaraq orduya yazıldı - RƏSMİ

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin çağırışına səs verən 8500-ə yaxın vətəndaş bugünədək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatına elektron qaydada, həmçinin qeydiyyatda olduqları yerli idarə, şöbə və bölmələrinə gələrək könüllü olaraq orduda xidmət etmək haqqında öz arzularını ifadə edib və müvafiq formada qeydiyyata alınıblar.***

Bu barədə Unkal.org-a Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən məlumat verilib.

Dövlət Xidməti vətəndaşlarımıza göstərdikləri yüksək vətənpərvərliyə görə təşəkkürünü bildirir.

Qeyd edək ki, zərurət yarandığı halda ehtiyatda olan hərbi vəzifəlilər mövcud qanunvericiliyin tələblərinə əsasən Xidmətin yerli struktur bölmələrinə çağırılaraq ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq tədbirlərə cəlb edilə bilərlər.

# Məleykə Abbaszadə qəbul imtahanlarının keçiriləcəyi tarixi açıqladı

***"Təxminən avqustun 13-14-ü qəbul imtahanları başlaya bilər. Bu tarix də hələ ki dəqiq deyil. Çünki buraxılış imtahanlarının hamısının nəticələri elan olunmalıdır".***

Unikal.org xəbər verir ki, bu fikirləri Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə növbəti buraxılış (qəbul) imtahanlarının keçirilməsi ilə bağlı danışarkən deyib.

Onun sözlərinə görə, avqust ayında dörd gün ərzində qəbul imtahanlarının keçirilməsi planlaşdırılır.

M.Abbaszadə bildirib ki, avqustun 10-dək rezidenturaya qəbul imtahanlarının keçirilməsi nəzərdə tutulur: "Dövlət qulluğu ilə əlaqəli müəyyən təxirə salınan imtahanların da avqustun 1-dən 10-na qədər baş tutması nəzərdə tutulur".

# Putin Təhlükəsizlik Şurasını topladı - Vasitəçiliyə hazırlıq



***Rusiya Prezidenti Vladimir Putin və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının daimi üzvləri Ermənistan-Azərbaycan sərhədindəki vəziyyəti müzakirə edərək, Moskvanın vasitəçilik etməyə hazır olduğunu qeyd ediblər.***

Bu barədə dövlət başçısının mətbuat katibi Dmitri Peskov videobağlantı vasitəsilə keçirilən müşavirədən sonra bildirib.

Onun sözlərinə görə, Ermənistan-Azərbaycan sərhədindəki vəziyyət barədə ətraflı fikir mübadiləsi aparılıb: "Davam edən eskalasiya ilə əlaqədar həddən artıq narahatlıq ifadə edildi, tərəflərin atəşkəs rejimi ilə təmin edilməsinə təcili ehtiyac duyulduğu, habelə vasitəçilik fəaliyyətinə hazırlıq vurğulandı".

İclasda hər iki parlament palatasının spikerləri - Valentina Matviyenko və Vyaçeslav Volodin, Təhlükəsizlik Şurası rəhbərinin müavini Dmitri Medvedyev, Kreml Administrasiyasının rəhbəri Anton Vayno, Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev, Daxili İşlər naziri Vladimir Kolokoltsev, Xarici İşlər naziri Sergey Lavrov, Federal Təhlükəsizlik Xidmətinin rəhbəri Aleksandr Bortnikov, Xarici Kəşfiyyat İdarəsinin rəhbəri Sergey Narışkin və Prezidentin ətraf mühitin qorunması, ekologiya və nəqliyyat üzrə xüsusi nümayəndəsi Sergey İvanov iştirak edib.

# Rusiya Təhlükəsizlik Şurası və Ərdoğanın son açıqlaması göstərir ki... - Şərh

***Əgər ruslar Azərbaycan-Ermənistan sərhədində baş verənlərdən narahatdırlarsa, öz əlaltıları olan erməniləri qapımızdan geri çəksinlər.***

Bu fikirləri Teleqraf.com-a Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov Rusiya Təhlükəsizlik Şurasının toplantısında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində yaşanan gərginlikdən narahat olduqlarını dilə gətirməsi və vasitəçiliyə hazır olmaları haqda verilən açıqlamanı şərh edərkən deyib.

Deputat bildirib ki, dövlət sərhədində 6 gündür erməni təxribatı davam edir:

"Rusiya bu prosesdə nəinki görsənmir, hətta nümayiş etdirirlər ki, erməniləri geri çəkilməməyə sövq edirlər. İstisna etmirəm ki, bütün bu məsələlərin arxasında Rusiyanın özü dayanıb. Onlar gözləyirdilər ki, Azərbaycan ağır silahlardan - qratlardan, smerçlərdən istifadə etsin. Onlar da bundan bəhanə kimi istifadə edərək bizim Tovuzdan keçən boru xətlərini vursunlar. Məqsəd budur. Biz ağır silahlardan istifadə etmirik. Əslində heç erməni tərəfində ağır silahlarla vurulası bir şey də yoxdur. Üstəlik ermənilərə bəhanə də vermək istəmirik."

R. Musabəyov bir daha xatırladıb ki, Ermənistan Rusiyanın forpostudur və Kremli istəsə, öz tulasını qapımızdan çəkə bilər.

Deputat Rusiya Təhlükəsizlik Şurasının iclasının keçirilməsinin və bunun publik olaraq nümayiş etdirilməsinin səbəblərini də açıqlayıb:

"Onların məqsədləri var. Düşünürəm ki, məqsədlərini müzakirə edirlər. Yəni belə olsa nə olar, elə olsa nə olar məsələsi. Anlayırlar ki, ermənilərin bizim beynəlxlaq infrastrukturumza qəsdi cavabsız qalmayacaq. Türkiyə də açıq elan edib ki, buna yol verməyəcək. Fərz edirəm ki Türkiyənin arxasında ABŞ və İngiltərə durub. İndi hansısa bir işə başlayıblar, bunun riskləri də böyükdür və indi toplaşıb götür-qoy edirlər".

Prosesin necə başa çatacağına gəldikdə, Musabəyova görə, baş verənlər bizim ssenarimiz deyil:

"Gərginliyi Azərbaycan yaratmayıb. Heç zaman konfliktdə düşmən və düşmənə dəstək verən xarici qüvvələrin ssenarisi ilə getmək olmaz. Orada gərginlik dondurulmalıdır. Amma Azərbaycanın öz planları var. Düşünürəm ki, bu planlar ciddi şəkildə götür-qoy edilərək, strateji müttəfiqimiz olan Türkiyə ilə müzakirə edilib həyata keçirilməlidir".

Rusiya Təhlükəsizlik Şurasının toplantısı ilə paralel olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə Azərbaycanı dəstəkləyən bəyanat səsləndirməsinə gəldikdə, siyasi şərhçi deyib ki, bu iki mövqe arasında bağlantı var:

"Düşünürəm ki, Prezident Ərdoğanın dedikləri sadəcə söz deyil. Təsəvvür edin ki, 2-3 türk təyyarəsi silahları və mütəxəssisləri ilə Gəncəyə ensə, bu, bir çoxlarını ağıla gətirməyə kifayət edər. Türklər Suriya və Liviyada nümayiş etdiriblər ki, düşməni yerinə oturtmağa qadirdilər".

# Türkiyə yenidən qızışmış münaqişəyə müdaxilə edəcəkmi?

***Türkiyə bu gün şərq qonşusu Ermənistana xəbərdarlıq edib ki, hər iki tərəfdən ümumən 16 nəfərin ölümünə səbəb olan keçmiş sovet dövlətləri arasında sərhəd toqquşmaları başlayandan bəri Azərbaycana qarşı hücumlara görə cavab verəcək.***

Ölənlərdən ən azı 11-i azərbaycanlıdır, o cümlədən ölkənin müdafiə qüvvələrinin generalı və bir polkovnik. 4 günlük döyüşlər 2016-cı ilin aprel ayından bəri ən ağır toqquşmadır.

Türkiyənin müdafiə naziri Hulusi Akar Ankarada neftlə zəngin respublikanın hava qüvvələrinin komandanı Ramiz Tahirovla danışıqlarından sonra Ermənistanın "mütləq cavabsız qalmayacağı"nı bildirib.

Akar Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın azərbaycanlı vəzifədaşı İlham Əliyevlə təmasda olduğunu və Türkiyə liderinin "hadisələri çox yaxından izlədiyini" söyləyib. "Azərbaycan türkünün dərdi bizim dərdimizdir. Bilməyinizi istəyirik ki, orada Azərbaycanda hiss etdiyiniz hər cür çətinlik burada Türkiyədə çox dərin hiss olunur. Azərbaycanlı qardaşlarımızın qanı yerdə qalmayacaq".

Tərəflər arasında toqquşmalar qısa fasilədən sonra bu gün yenidən başlayıb. Ermənistan Müdafiə Nazirliyinin sözçüsü Suşan Stepanyan Azərbaycan qüvvələrinin erməni kəndlərini minaatanlarla və qaubitsalarla atəşə tutduğunu, dağlıq bölgədəki Azərbaycan kəndlilərdən qalxan kimi istifadə etdiyini deyib. Azərbaycan bugünkü hücumlara görə Ermənistanı günahlandırıb.

Azərbaycan və Ermənistan 1991-ci ildə Sovet İttifaqının dağılmasından bəri Dağlıq Qarabağ ərazisi ilə bağlı münaqişədədir. Rusiya hər iki tərəfə silah tədarük edərkən Türkiyə Azərbaycanı dəstəkləyib. Ankara Ermənistanla sərhədlərini möhürləyib və İrəvanla diplomatik münasibətləri yoxdur. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı tərəfindən münaqişənin dayandırılması üçün vasitəçilik illərlə nəticəsiz qalıb.

Rusiya təcili atəşkəsə çağırıb və Kremlin sözçüsü Dmitri Peskov Çərşənbə axşamı günü Moskvanın döyüşlərdən "çox narahat olduğunu" bildirib. Çərşənbə günü ABŞ-ın dövlət katibi Mayk Pompeo de-eskalasiyanı və sülh danışıqlarını dərhal bərpa etməyə çağırıb.

Ankaradan gələn hədələyici bəyanatlar Suriyada və Liviyada əzələ nümayiş etdirən Türkiyənin yenidən Azərbaycanın nəfinə müdaxilə edə biləcəyi barədə fərziyyələrə səbəb olub. Ərdoğan və Əliyevin enerji sazişləri ilə çox yaxın əlaqələrə sahibdir. Üstəlik, Ermənistanla sərt davranmaq Ədalət və İnkişaf Partiyasının 18 il əvvəl hakimiyyətə gəlişindən bəri ölkənin ən pis iqtisadi böhranı şəraitində öz seçici bazasını yenidən canlandırmağa çalışan Ərdoğanın xeyrinədir.

Türkiyə parlamentinin etnik müdaxilə edəcəyinə inanmıram, - deyə o, Bakıdan telefonla "əl-Monitor"a bildirib. - Türkiyə ilə Azərbaycan arasında artıq hərbi əməkdaşlıq mövcuddur. Azərbaycanın Türkiyədən gözlədiyi şey dünya miqyasında davamlı diplomatik dəstəkdir".

Bundan əlavə, Qarabağ münaqişəsi həm Azərbaycanda, həm də Türkiyədə millətçi ehtirasları coşdursa da, qarışıqlıq Ermənistan və Azərbaycan arasındakı mübahisə doğurmayan sərhəddə yaranır. Çərşənbə axşamı Bakıda 30 minə yaxın azərbaycanlı nümayişçi küçələrə çıxaraq hökumətdən zəruri tədbirlər görməyi tələb edib.

ABŞ-ın Marşal Fondunun



erməni üzvü Qaro Paylan bu həftə "əl-Monitor"a verdiyi müsahibədə bildirib ki, "Türkiyə Tələt və Ənvər paşanın dövrünə xas millətçilik dalğasına bürünüb".

Amma təhlilçilər arasında üstünlük təşkil edən konsensus budur ki, Türkiyə öz sərhədlərində başqa bir isti müharibəyə maraq göstərmir.

"Carnegie Europe"-ın böyük elmi işçisi və Qarabağ münaqişəsinə dair ən nüfuzlu kitablardan biri olan "Qara bağ"ın müəllifi Tomas de Vaalın fikrincə, Ərdoğan "istənilən vəziyyətdən istifadə etməkdə maraqlı"dır. Onun fikrincə, Türkiyə prezidenti silahlı müharibədən daha çox söz müharibəsi ilə maraqlanır" və "Azərbaycan da həqiqətən, müharibə istəmir".

Beynəlxalq Böhran Qrupunun Cənubi Qafqaz üzrə analitiki Zaur Şiriyev də eyni fikirdədir. "Türkiyənin hərbi

Türkiyə üzrə direktoru Özgür Ünlühisarcıklı bildirib: "Qafqaz Rusiyanın arxa bağçasıdır, Türkiyənin Suriyada və indi Liviyada olduğu kimi, Moskvanın oraya yolunu bağlaması ehtimalı yoxdur".

De Vaal düşünür ki, "1990-cı illərdəki kimi böyük bir müharibə gözlənilmir. Amma bu, bizi 2016-cı ilin aprelinə qədər geri çəkə biləcək zəncirvari reaksiya ola bilər".

Əliyev 14 illik xarici işlər nazirini Elmar Məmmədyarovu işinə məsuliyyətsiz yanaşmaqda ittiham edərək vəzifəsindən azad edib. De Vaal bildirib: "Onun sülh danışıqları ilə bağlı institusional bir yaddaşı var. Xarici işlər nazirini günahlandırmaq yersizdir. Bu, Əliyevin demək olar ki, danışıqlardan imtina etdiyini göstərir".

***Amberin Zaman***
***"Əl-Monitor",***
***16.06.2020***

***Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Dinc əhalinin hədəfə alınması beynəlxalq təşkilatları ayağa qaldırmalıdır!

## Umud Mirzəyev: "Dünyanı Ermənistanın təcavüzkar hərəkətlərinə qarşı açıq mövqe sərgiləməyə və Ermənistan silahlı qüvvələrini azərbaycanlı mülki şəxslərə hücumlarına görə qəti şəkildə qınamalı, təcavüzkar və işğalçıya qarşı konkret tədbirlər görməlidir"

***Tovuzun Dondar Quşçu və Ağdam kəndləri dörd gündür ki, Ermənistan silahlı qüvvələri tərəfindən aramsız atəşə tutulur. Azərbaycan 30 ildir ki, sülh və danışıqlar tərəfdarı olsa da, düşmən atəşkəs rejimini tez-tez pozur, dinc əhalini belə hədəfə alır. Azərbaycan bu münaqişədə zərərçəkmiş tərəf olsa belə, işğalçı Ermənistan hər vəchlə danışıqların sülh yolu ilə aparılmasına mane olur. Elə cəbhədə baş verən son hadisələr də, Ermənistanın bu məkrli niyyətindən xəbər verir.***

Ordumuz düşməni cavab atəşi ilə susdursa da, Ermənistan Silahlı Qüvvələri itkilərini etiraf etmir, bu döyüşdən də məğlub çıxdıqlarını gizlətməyə çalışır. Amma beynəlxalq təşkilatlar bu münaqişənin sülh yolu ilə həll olunmasına Ermənistan tərəfinin mane olduğunu hələ də etiraf etmir . Elə ATƏT-in Minsk qrupunun həmsədrlərinin Stefan Viskonti (Fransa), İqor Popov (Rusiya) və Endrü Şoferin (ABŞ) iyulun 12-13-də Azərbaycan - Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş döyüşlə bağlı bəyanatı da bu səpgidəndir. Bəyanatda bildirilib ki, Ermənistan və Azərbaycan Müdafiə nazirliklərinin və digər mənbələrin məlumatına görə, 12-13 iyul tarixlərində Ermənistan-Azərbaycan sərhədində atəşkəs rejiminin ciddi şəkildə pozulması nəticəsində itkilər olub, hər iki tərəfə məxsus qüvvələrin müxtəlif kalibrli artilleriyalardan istifadə etdiyi bildirilir.Qeyd olunub ki, həmsədrlər və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik itkilərin olmasına təəssüflənir, həlak olanların ailələrinə başsağlığı verir: "Həmsədrlər və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi insident başlayandan bəri Ermənistan və Azərbaycan rəsmiləri ilə birbaşa təmasda olublar. Döyüşün başlanmasında tərəflər bir-birini ittiham edir. Minsk Qrupu həmsədrləri atəşkəsin pozulmasını qınayır və gərginliyin daha da artmaması üçün tərəfləri aralarındakı birbaşa rabitə kanallarından istifadə etmək də daxil olmaqla, bütün zəruri addımları atmağa çağırır".

Bundan başqa, Minsk Qrupu həmsədrləri tərəfləri mümkün qədər qısa zamanda substantiv danışıqlara başlamağa çağırıb.Həmsədrlər şərtlər imkan verən kimi ATƏT müşahidəçilərinin bölgəyə qayıtmasının vacibliyini də vurğulayıblar.

Ekspertlər bildirir ki, Azərbaycan Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ədalətli mövqeyinin qorunması istiqamətində işlərini daha da intensivləşdirməlidir. Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Qarabağlı Umud Mirzəyev deyir ki, beynəlxalq təşkilatlar Ermənistan rəhbərliyinin və silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi növbəti təcavüzü sərt şəkildə qınamalıdırlar: "Bildiyiniz kimi, İyulun 12-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Ermənistanla Azərbaycan arasında dövlət sərhədi boyu Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə edərək Azərbaycan silahlı qüvvələrinin mövqelərini atəşə tutub. Qısa müddət ərzində iki yüksək rütbəli hərbçi də daxil olmaqla on bir Azərbaycan hərbçisi şəhid olub. Bir neçə əsgər yaralanıb. Qeyd etmək lazımdır ki, Tovuz rayonu 1991-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində qanunsuz olaraq işğal edilən Qarabağ bölgəsi və ətraf 7 rayona daxil deyil. Ermənistan öz hərəkətləri ilə beynəlxalq hüquq və prinsiplərə məhəl qoymadan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirmək və genişləndirmək niyyətini açıq şəkildə bəyan edir. Atəşkəs rejimi elan olunandan bəri Ermənistan həm Azərbaycan silahlı qüvvələrinin mövqelərini, həm də mülki yaşayış məntəqələri istiqamətində atəşkəs rejimini davamlı şəkildə pozub. 2017-ci ildə Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini atəşə tutması nəticəsində 2 yaşlı qız və nənəsi öldürülüb. Təkcə 2019-cu ildə sərhəddə 6 vətəndaş qətlə yetirilib. Hər kəsin koronavirus pandemiyası ilə mübarizə apardığı bu çətin dövrdə Ermənistan rəhbərliyi ölkələrindəki sosial-iqtisadi problemlər fonunda vəziyyəti gərginləşdirməyə çalışaraq cinayət törətməyə davam edir. Ermənistan, həmçinin beynəlxalq ictimaiyyətin diqqətini uzun illərdir Azərbaycana məxsus Dağlıq Qarabağ və ona bitişik 7 rayonunun qanunsuz işğalından yayındırmaqla münaqişəyə yeni istiqamət verməyə çalışır. Üstəlik, bu açıq şəkildə KTMT-nin nüfuzunu qlobal miqyasda artıraraq ikitərəfli münaqişəyə cəlb etmək cəhdidir. Unutmayaq ki, Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində 1,2 milyondan çox qaçqın və məcburi köçkün hələ də doğma yurdlarına qayıda bilmir. Son iki gündə Ermənistan silahlı qüvvələri dəfələrlə Azərbaycanın qərbində yerləşən Tovuz rayonunda dinc kəndləri bombalayaraq, 120 mm-lik minaatanlardan və D-30 tipli haubitsalardan istifadə edərək mülki şəxslərin həyatını təhlükə altında qoyur və qətlə yetirir. Tovuzda artileriya atəşi nəticəsində 10-dan çox yaşayış binasına ciddi ziyan dəyib. İyulun 14-də Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Tovuz rayonunun atəşə tutulması nəticəsində 76 yaşlı vətəndaş Əziz Əzizov həlak olub. Ermənistanla 29 km uzunluğunda sərhədə malik Qazax rayonunun qərbində yerləşən Xanlıqlar kəndi də ermənі hərbçiləri tərəfindən ağır artileriya atəşinə məruz qalıb. Ötən gün Ermənistan Cenevrə Konvensiyasının 18-ci maddəsini pozaraq Tovuzun Mərkəzi Xəstəxanasına hücum edib. Azərbaycan bir neçə onilliklər boyu münaqişəni sülh yolu ilə, beynəlxalq səviyyədə tanınan sərhədlər daxilində Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında həll etməyə çalışsa da, Ermənistan bütün danışıqlar prosesini pozaraq atəşkəsi davamlı olaraq pozur. İndi biz Ermənistan rəhbərliyinin Azərbaycan ərazilərini ələ keçirmək kimi tamamilə qəbuledilməz olan yeni bir məqsədlə hücuma keçdiyini görürük. BAMF, Ermənistanın təcavüzkar və qəddar hərəkətlərini kəskin şəkildə pisləyir və beynəlxalq birliyi, BMT-ni, sülhməramlı təşkilatları, ATƏT-in Minsk Qrupunun həmsədrlərini, Avropa ictimaiyyətini Ermənistanın təcavüzkar hərəkətlərinə qarşı açıq mövqe sərgiləməyə və Ermənistan silahlı qüvvələrini azərbaycanlı mülki şəxslərə hücumlarına görə qəti şəkildə qınamağa çağırır. Nəhayət, təcavüzkar və işğalçıya qarşı konkret tədbirlər görülməlidir. Əgər Beynəlxalq birlik reaksiya verməsə, bu qarşıdurma regional təhlükəsizlik üçün ciddi hədə olmaqla Ermənistan və Azərbaycan arasında genişmiqyaslı toqquşmaya səbəb ola bilər".




U. Mirzəyev bildirir ki, Azərbaycan öz torpaqlarını sülh yolu ilə azad etməyə qadirdir. Bunu ötən gün on minlərlə Azərbaycan vətəndaşının orduya dəstək yürüşü və 4 min şəxsin könüllü olaraq Səfərbərlik Xidmətində qeydiyyatdan keçməsi də göstərir. İnsanlarımız küçələrə çıxaraq hökumətdən səfərbərlik elan edilməsini tələb edib, ölkənin hər bir əyalətində "Qarabağ bizimdir, bizim olacaq" şüarları səsləndirilib. Azərbaycandakı bütün siyasi partiyalar Milli Həmrəylik Bəyanatı imzalayıblar və İrəvana ultimatum veriblər. Bizim torpaqlarımız işğal altındadır, təqribən 1 milyon 200 min insanımız el-obasından didərgin düşüb. Mən və ailəm də bu işğal nəticəsində əziyyət çəkmişik. Tovuz rayonu Qarabağ ərazisindən çox uzaq məsafədə yerləşir və Ermənistanla həmsərhəd bölgələrdəndir. Ermənilər mülki şəxsləri snayper tüfəngləri ilə hədəfə alıblar. Tovuzda baş verən hadisələr çox ciddidir. Düşünürəm ki, bu gərginliyin artması ilə Rusiyanın bölgəyə müdaxiləsi üçün zəmin hazırlanır".

Qeyd edək ki, son illər Ermənistan tərəfi nəinki danışıqlar müstəvisində, cəbhədə də uğursuzluğa düçar olur. Aprel döyüşlərindən sonra Tovuz istiqamətində düşmənin çox ciddi itkilərlə üzləşməsi buna bir sübutdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı



## “Xəmsə” restoranının sahibi qardaşına yas məclisi keçirdiyinə görə cərimələndi

***Paytaxtın Nizami rayonunda xüsusi karantin rejim qaydalarına əməl etməyən, sosial məsafənin, mövcud preventiv tədbirlərin şərtlərinin pozulması ilə müşayiət olunan yas mərasimi təşkil olunub.***

Nizami Rayon Polis İdarəsinin (RPŞ) və 24-cü Polis Polis Bölməsi əməkdaşlarının keçirdiyi müvafiq tədbirlərlə iyulun 17-də rayonun Naxçıvanski küçəsində keçirilən 40 mərasiminin təkilatçıları və iştirakçıları barəsində qanunvericiliyə uyğun tədbir görülüb.

Onlarla profilaktik və izahedici söhbətlərdə diqqətə çatdırılıb ki, hər bir şəxs tətbiq olunan qaydalara, sosial məsuliyyətdən irəli gələrək özünü, yaxınlarını və digər şəxsləri qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da buna çağırmalıdır.

Qeyd edək ki, iyunun 8-də 450 nəfərin is?tirakı ilə “Xəmsə” restoranında təşkil olunun mərhumun 3 mərasiminin qarşısı polis tərəfindən alınaraq, mərasimin təşkilatçısı, mərhumun qardaşı, restoranın sahibi M.Həsənli barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsinə uyğun olaraq, 5 000 manat cərimə olunub.

## Sumqayıtda avtobus velosipedçini vurub öldürdü



***Sumqayıt şəhərində yol-nəqliyyat hadisəsi baş verib.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən “Unikal”a verilən məlumata görə, hadisə iyulun 16-da saat 8 radələrində qeydə alınıb. Sumqayıt şəhəri Sülh küçəsində şəhər sakini R.Afdanov idarə etdiyi “Hyundai” markalı avtobusla yolun kənarı ilə velosiped sürən Abşeron rayon sakini Ərəstun Tahirovu vurub.

Nəticədə velosipedçi aldığı xəsarətlərdən hadisə yerində ölüb.

Sumqayıt Şəhər Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Ağsuda mağazadan oğurluq edən şəxs saxlanılıb



***Ağsuda mağazdan oğurluq olub. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən “Unikal”a verilən məlumata görə, Ağsu Rayon Polis Şöbəsinin əməkdaşları əməliyyat keçiriblər.***

Əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 12-də şəhər ərazisindəki mağazaların birindən 1 655 manat oğurlamaqda şübhəli bilinən Şamaxı rayon sakini, əvvəllər məhkum olunmuş R.Soltanov saxlanılıb.

# 1 146 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib

***Koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Xaçmaz, Goranboy, Göygöl, Samux, Siyəzən və Şəki rayonları ərazisində tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejiminin pozulmasına görə 16.07.2020-ci il saat 00:00-dan 17.07.2020-ci il 00:00-dək olan müddət ərzində nəqliyyat vasitələri ilə hərəkətdə olan 1 013 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211.1-ci, sərnişindaşımada istifadə olunan taksi və avtobuslarda tənəffüs yollarını***



***qoruyan fərdi vasitələrdən istifadə edilmədiyinə görə isə həmin Məcəllənin 211.2-ci maddəsi ilə 133 nəfər olmaqla ümumilikdə 1 146 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.***

Baş Dövlət Yol Polisi İdarəsindən ”Unikal”a verilən məlumata görə, qeyd olunan müddət ərzində Bakı-Quba yolunun 52-ci km-də yerləşən karantin keçid postundan 40-ı rayon, 65-i paytaxt istiqamətinə olmaqla 105, Bakı-Şamaxı-Yevlax yolunun 31-ci km-də yerləşən postdan 30-u rayon, 35-i paytaxt istiqamətinə olmaqla 65, Bakı-Qazax-Gürcüstan yolunun 65-ci km-də yerləşən keçid postundan 85-i rayon, 80-i paytaxt istiqamətinə olmaqla 165 avtomobil geri qaytarılıb.

Ümumilikdə 335 nəqliyyat vasitəsi ilə müvafiq icazə olmadan postlardan keçmək cəhdinin qarşısı alınıb.

# Gəncədə 18 min manatlıq oğurluq olub

***Oğurluqda şübhəli bilinən Gəncə şəhər sakini S.Talıbov saxlanılıb.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən “Unikal”a verilən məlumata görə, əməliyyatı Nizami (Gəncə) Rayon Polis İdarəsinin əməkdaşları keçirib.

Əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 15-də rayon ərazisindəki evlərin birindən 6 150 manat dəyərində məişət əşyaları oğurlamaqda şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş S.Talıbov saxlanılıb. Ətrafında aparılmış tədbirlərlə onun daha 1 evdən 12 000 manat dəyərində qızıl-zinət əşyaları oğurlaması da müəyyən edilib.



# Azərbaycanda həbsdə olan çempionun işi məhkəmədə

***Şamaxıda hədə-qorxu ilə pul tələb etmə və qanunsuz azadlıqdan məhrum etməkdə təqsirli bilinərək həbs olunan məşhur güləşçi Məsim Qədirlinin barəsində olan cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***

Teleqraf.com xəbər verir ki, cinayət işi baxılması üçün Şamaxı rayon Məhkəməsinə göndərilib. İş araşdırılması üçün hakimi Etibar Hümbətovun icraatına verilib.

Yaxın günlərdə məhkəmə başlanacaq.



İstintaq orqanı tərəfindən Məsim Cavid oğlu Qədirlinin barəsində Cinayət Məcəlləsinin 145.2.4-cü (qanunsuz azadlıqdan məhrum etmə - bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə) və 182.2.3-cü (hədə- qorxu ilə pul tələb etmə zor tətbiq etmə ilə törədildikdə) maddələri ilə ittiham elan olunub.

Qeyd edək ki, Məsim Qədirli sərbəst güləş üzrə Azərbaycan çempionudur. O, yığma komandasının üzvü olub və bir çox nailiyyətlər imza atıb.

Cinayət işi üzrə rayon sakini Orxan Hacıyev zərərçəkmiş qismində tanınıb.

# Şəhidlərin sayı haqda yalan məlumat yayan həbs olundu

***Göyçay Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə sosial şəbəkələrdə rayonun Mırtı kəndindən olan hərbçimizin şəhid olması ilə bağlı həqiqəti əks etdirməyən məlumatlar yayan şəxs saxlanılıb.***

DİN-in Mətbuat Xidmətindən verilən məlumata görə, rayon sakini Aydın Rəsulov iyulun 14-də özünə məxsus sosial şəbəkə hesabında Bakı şəhərinə 20 , Göyçayın Mırtı kəndinə isə 1 şəhid olmuş əsgərimizin nəşinin gətirilməsi ilə bağlı yalan, cəmiyyətdə çaşqınlıq yarada biləcək məlumatlar paylaşıb. O, polis əməkdaşları tərəfindən saxlanılaraq Polis Şöbəsinə gətirilib.

Barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək, toplanmış material rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə o, 10 gün müddətinə inzibati qaydada həbs edilib. A.Rəsulov etdiyi hərəkətdən peşman olduğunu bildirib.

# Yürüş gecəsi təxribat törədənlərin kimliyi müəyyənləşdi

***Milli Məclisin binasına ziyan vuranların kimliyi polisin həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyənləşdirilib.***

”Unikal” xəbər verir ki, həmin s?əxslər artıq saxlanılıblar.

Xatırladaq ki, iyulun 14-dən 15-nə keçən gecə Bakı şəhərində Azərbaycan Ordusuna dəstək məqsədilə yürüş keçirilib. Amma yürüşün sonunda bir qrup şəxs ictimai qaydanın kobud surətdə pozulmasına səbəb olan hərəkətlərə yol verib, aksiyanın təhlükəsizliyini təmin edən polis əməkdaşlarına müqavimət göstərərək Milli Məclisin inzibati binasının qapı-pəncərələrini sındıraraq içəriyə daxil olublar. Nəticədə binaya maddi ziyan vurublar.

# Deputat: "İqtisadiyyatın "ağarması" dövlət büdcəsi üçün yeni imkanlar yaradır"

***"2020-ci ilin birinci yarımilinin yekunları göstərir ki, pandemiya, eyni zamanda, neft bazarında olan volatillik Azərbaycanın iqtisadiyyatına təsir göstərsə də, xüsusilə qeyri-neft sektorundakı pozitiv tendensiya davam edib".***

Bunu APA-ya açıqlamasında deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bu ilin birinci yarımilində ÜDM-də 2,7% azalma qeydə alınıb, amma bu göstəricini inkişaf etmiş ölkələrlə müqayisə etsək, bu azalma məqbul hesab edilə bilər:

"Çünki iqtisadiyyata pandemiya təsir edirdi, neftin dünya bazar qiyməti aşağıdır, OPEC + çərçivəsində Azərbaycanın öhdəlikləri var idi. Bu da Azərbaycanda neft hasilatını azaltmaqla bağlı qərar qəbul etməsinə gətirib çıxardı. Bütün bunlar da ÜDM-nin səviyyəsinə birbaşa təsir göstərdi. Amma pozitiv tendensiya ondan ibarətdir ki, qeyri-neft sənayesində 11%-dən çox artım olub, eyni zamanda kənd təsərrüfatında 2,2%-lik artım qeydə alınıb ki, bu da qeyri-neft sektorunun pandemiya dövründə iqtisadiyyatdakı drayver rolunun davam etməsi rolunun davam etməsindən xəbər verir. Eyni zamanda, 2020-ci ilin ilk yarımilində sosial istiqamətlərə ayrılan vəsaitlərin həcmində azalmalar müşahidə edilməyib. Amma əksinə, biz ictimai iş yerlərinin sayının rekord səviyyədə artmasını müşahidə etmişik. 2020-ci il üçün bu rəqəm 40 min nəzərdə tutulmuşdusa, ölkə prezidentinin göstərişi ilə 90 minə çatdırıldı. Eyni zamanda, özünəməşğulluq proqramının əhatə dairəsi genişlənməkdədir. Ünvanlı sosial yardımda da, bundan istifadə edənlərin sayında da artımlar müşahidə edilir".



V. Bayramov vurğulayıb ki, ən vacib məqamlardan biri dövlət büdcəsinin gəlirlərində tam şəffaflığın təmin edilməsi ilə bağlıdır: "Bu da nəticə etibarilə həm gömrük, həm də vergi mənbələrindən daxilolmalara birbaşa təsir göstərib. İdxalın 2015-ci illə müqayisədə dəyişməməsinə baxmayaraq, idxal məhsullarından büdcəyə daxilolmalar 2015-ci illə müqayisədə 3 dəfəyə yaxın artıb. Eyni zamanda, iqtisadiyyatın "ağarması" dövlət büdcəsi üçün yeni imkanlar yaradır. Bu, özünü büdcə gəlirlərində də göstərir. Təbii ki, Azərbaycan BMT-nin dayanıqlı inkişaf indeksində əvvəlki illərlə müqayisədə irəliləyərək 54-cü yerdə qərarlaşıb. Bu, region ölkələri arasında ən yaxşı göstərici hesab olunur. Növbəti dövr üçün büdcə gəlirlərinin strukturunda, eyni zamanda, dövlət büdcəsində ayırmalarda artıq müasir çağırışlara uyğun olaraq yeni yanaşma tətbiq olunacaq. 2021-ci ilin dövlət büdcəsində sosial sahəyə xüsusi diqqət yetiriləcək və bu, həmin sahəyə ayrılan vəsaitin həcminə də təsir edəcək. Eyni zamanda, sosial layihələrlə yanaşı strateji infrastruktur layihələrinin də icrası növbəti aylarda, eləcə də 2021-ci ildə təmin olunacaq".

Deputat qeyd edib ki, bütövlükdə Azərbaycan pandemiyanın təsirlərini minimumlaşdırmaqla bağlı çevik reaksiya göstərən ölkələr sırasındadır: "Pandemiya ilə bağlı reallaşan paketlər strateji əhəmiyyət daşıyır. Növbəti aylarda, eləcə də postpandemiya dövründə bu paketlər sahibkarlarımızın, eləcə də vətəndaşlarımızın daha yaxşı dəstəklənməsi təmin olunacaq. Bu baxımdan qeyri-neft sektorundakı artım pandemiyanın iqtisadiyyata təsirlərininmümkün olduğunu göstərir. Növbəti mərhələlərdə də bu məsələ prioritet olaraq qalacaq".

# ASCO-nun Xəzərdən kənarda istismar olunan gəmilərində heyət dəyişikliyi aparılıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzərdən kənarda (Qara və Aralıq dənizləri hövzəsində) istismar olunan gəmilərində heyət dəyişikliyi uğurla başa çatıb.***

ASCO-dan verilən məlumata görə, 69 nəfərdən ibarət 6 gəminin heyəti dəyişdirilib. Onlardan 33 nəfəri Samsun limanında, 36-sı İstanbul Boğazı və Tekirdağ limanlarında əvəzlənib.

Dənizçilərimizin heyət dəyişikliyi Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi razılığı ilə həyata keçirilib. Dəyişiklik zamanı COVID-19 infeksiyasına yoluxma ehtimalının minimuma endirilməsi amili nəzərə alınaraq, zəruri tədbirlər görülüb. Həm növbədən qayıdan, həm də növbəyə yola salınan bütün heyət üzvləri mövcud qaydalara uyğun koronavirus testindən keçirilib.

Dənizçilərimiz hər iki istiqamətdə "Azərbaycan Hava Yolları" QSC-yə aid xüsusi çarter reysi ilə (Bakı-İstanbul-Bakı) daşınıb.

Çarter reysi ilə ASCO-nun xaricdə üzən gəmilərinin 70 nəfər heyət üzvü ilə yanaşı, bir müddət öncə ASCO-nun dəstəyi ilə Mavritaniyadan İstanbula gələn, xarici şirkətdə çalışan iki azərbaycanlı dənizçi də Bakıya qayıdıb.

Xatırladaq ki, koronavirus infeksiyasının geniş yayılmasının qarşısının



alınması məqsədilə dünyanın əksər ölkəsində elan edilən pandemiya səbəbindən sərhədlərin bağlı olmasına görə hava nəqliyyatı ilə beynəlxalq sərnişin daşınması dayandırılmış, xarici sularda fəaliyyət göstərən ASCO dənizçilərinin də heyət dəyişikliyi təxirə düşüb.

# Koronavirusdan zərərə düşən iş adamları üçün yeni kredit imkanı

***Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) koronavirus (COVID-19) pandemiyası ilə üzləşən və bunun təsirini idarə etmək üçün yardıma ehtiyacı olan mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün yaratdığı "Böhran dövründə necə" adlı bilik platformasının yeni modulu istifadəyə verilib.***

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən FED.az-a bildirilib ki, biznesin maliyyələşdirilməsinin yolları adlanan yeni modul maliyyənin hansı formasının biznesə uyğun olduğunu anlamaqda, maliyyə dəstəyi üçün necə




müraciət edilməsi və həlledici maliyyələşdirmə qərarları ilə qarşılaşdıqda düzgün seçimin edilməsi sahəsində sahibkarları bilik və bacarıqlarla təmin edəcək.

Modulun əhatə etdiyi 3 əsas mövzu bunlardır:

- Maliyyə resurslarının seçimi və strukturlaşdırılması
- Maliyyə resurslarının təşkili
- Maliyyələşdirmə problemlərinin həlli.

Moduldan istifadə etmək üçün www.ebrdknowhowacademy.com saytında qeydiyyatdan keçmək lazımdır. Mobil cihaz vasitəsilə proqrama qoşulmaq üçün "App Store"dan "Go.Learn" tətbiqini yükləyərək www.ebrdknowhowacademy.com saytına daxil ola bilərsiniz.

## "Mastercard" valyutaların dəyişdirmə qaydalarına dəyişiklik edir

***"Mastercard" ödəniş şəbəkəsinə məxsus ABŞ dolları və avro ilə kartlar vasitəsilə alış-veriş edərkən bir valyutadan o birisinə keçmə qaydalarına avqustun 11-dən dəyişiklik ediləcək.***

"Unikal" "RBK"ya istinadən xəbər verir ki, bu cür kartlarla alış-veriş zamanı başqa valyutalarda ödəniş həyata keçirildiyi təqdirdə həmin əməliyyat eyni günə qeydə alınacaq. Hazırda isə sözügedən əməliyyatlar zamanı valyuta dəyişdirmə və məbləğin köçürülməsi bir neçə gün sonra, banklararası hesablaşma günü həyata keçirilir ki, bu səbəbdən məzənnə dəyişikliyinə görə nağdsız ödənişim məbləğində dəyişiklik ehtimalı yaranır.

Bu dəyişikliyin istehlakçılara xidmətin təkmilləşdirilməsinə, valyuta dəyişmə məzənnələrində şəffaflığın təmin olunmasına yönəldiyi bildirilir.

## Dövlət Komitəsinin işçilərinin sayı artırıldı

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi aparatının və Komitənin regional orqanlarının işçilərinin say həddi artırılıb.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında imzaladığı fərmanda öz əksini tapıb.

Fərmanla Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi aparatının işçilərinin say həddi 88 ştat vahidi, Komitənin regional orqanlarının işçilərinin say həddi 91 ştat vahidi müəyyən edilib.

Qeyd edək ki, indiyədək Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi aparatının işçilərinin say həddi 85 ştat vahidi, Komitənin regional orqanlarının işçilərinin say həddi 89 ştat vahidi müəyyən edilmişdi.

## Azərbaycanın Rusiya ilə mənfi ticarət saldosu 15% azalıb

***Bu ilin yanvar-iyun ayları ərzində Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsinin həcmi 1 294 529,4 min ABŞ dolları təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 86 995 min dollar və ya 6,3% azdır.***

"Unikal" Dövlət Gömrük Komitəsinin dərc etdiyi göstəricilər əsasında apardığı hesablamalarına görə, hesabat dövründə ixracın həcmi 3 141,4 min dollar və ya 0,8% artaraq 380 596,2 min dollar, idxalın həcmi isə 90 136,3 min dollar və ya 9% azalaraq 913 933,1 min dollar təşkil edib.

Hesabat dövründə 533 336,9 min dollarlıq mənfi ticarət saldosu yaranıb ki, bu göstərici 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 93 277,7 min dollar və ya 14,9% azalıb.

ELAN

**Qazax rayonu, Daş Salahlı kənd sakini Eyyubov Yaşa Məhəmməd oğluna verilmiş Torpağa Mülkiyyət Hüququna Dair JN:1996; KOD:50100038 nömrəli DÖVLƏT AKTI itdiyi üçün etibarsız sayılır.**

ELAN

**Bakı şəhəri, Binəqədi rayonu, 7 mkr-n, S.S.Axundov küçəsi İ/B, ev-1 ünvanında qeydiyyatda olan 1973-cü il təvəllüdlü Baxışov Amil Alı oğluna, Binəqədi RHK-ı tərəfindən verilmiş № 070813 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**



## Abşeronunun küçələrinə asfalt örtüyü çəkilir

***Abşeron rayonunun kənd və qəsəbələrinin mərkəzi küçələrinə asvalt örtüyü çəkilir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən rayonun Saray, Ceyranbatan, Mehdiabad, Qobu qəsəbələrinin və Masazır kəndinin ərazilərində ümumi uzunluğu 29.2 kilometr olan 23 küçə və yolda təmir işlərinin həyata keçirilməsi nəzərdə tutulur ki, bu istiqamətdə də işlər davam etdirilir.***

Abşeron İH-nin mətbuat xidmətindən Unikal.org-a verilən xəbərə görə, həyata keçirilən təmir işləri ilə yerində tanış olmaq məqsədi ilə rayon icra hakimiyyətinin başçısı İradə Gülməmmədova bir neçə qəsəbəyə baş çəkib.

Əvvəlcə Ceyranbatan qəsəbəsindəki Heydər Əliyev prospektində görülən işlərə baxış keçirən İ.Gülməmmədovaya məlumat verilib ki, sakinlərin gediş-gəlişinin yaxşılaşdırılması məqsədilə uzunluğu 1.2 km, sahəsi 11 min kv.m olan küçə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən əsaslı təmir olunur. İ.Gülməmmədova H.Əliyev küçəsində görülən işlərlə ətraflı tanış olduqdan sonra yolun təmirinin keyfiyyətli aparılmasına dair bir sıra tapşırıqlar verib.

Daha sonra İ.Gülməmmədova Ceyranbatan və Saray qəsəbələrində sakinlərlə görüşüb, onları narahat edən məsələlərlə yerində tanış olub. Sakinlər tərəfindən qaldırılan məsələlərin araşdırılması və həlli istiqamətində aidiyyatı qurumlara göstərişlər verilib.

## Hava necə olacaq – Proqnoz

***Azərbaycanda sabaha gözlənilən hava şəraiti məlum olub.***



Milli Hidrometeorologiya Xidmətindən Unikal.org-a verilən məlumata görə,18 iyulda Bakıda və Abşeron yarımadasında havanın yağmursuz keçəcəyi gözlənilir. Cənub küləyi əsəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 22-26, gündüz 31-36, Bakıda gecə 23-25, gündüz 33-35 dərəcə isti olacaq.

Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində cənub küləyi əsəcək. Dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 25-26, Türkan, Hövsan, Sahil, Şıxda isə 26-27 dərəcə isti təşkil edəcək.

18 iyulda Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı, dolu düşəcəyi gözlənilir. Qərb küləyi arabir güclənəcək.

Havanın temperaturu gecə 22-27, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 20-25 dərəcə isti olacaq.

Tibbi-meteoroloji proqnoza gəlincə, iyulun 18-19-da Abşeron yarımadasında zəif cənub küləklərinin üstünlüyü və günorta saatlarında isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

# Bu tarixlərdə növbəti buraxılış imtahanları keçiriləcək

***Dövlət İmtahan Mərkəzi 23-24 iyulda növbəti buraxılış (qəbul) imtahanları keçiriləcək.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, imtahan keçiriləcək rayon və şəhərlər, imtahanda iştirak etməli olan şəxslər və imtahanların növləri barədə yaxın 2 gün ərzində məlumat veriləcək.

Xatırladaq ki, sərtləşdirilmiş karantin rejimi tətbiq olunan şəhər və rayonlarda imtahanların keçirilməsi ilə bağlı Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının müraciətinə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müsbət cavab verilib və imtahanlar pandemiya şəraiti və xüsusi karantin rejimi tələblərinə uyğun olaraq təşkil ediləcək.

Bu imtahanlarda iştirakçıların kütləviliyinin azaldılması məqsədilə kolleclərə (və ya hərbi liseylərə) ərizə verməyən 9-cu sinif şagirdləri iştirak etməyəcəklər. Bu şagirdlər üçün buraxılış imtahanı sentyabr ayında keçiriləcək.

Bundan əlavə, ictimai sağlamlığın qorunması ilə bağlı həyata keçirilən



tədbirlərə uyğun olaraq 11 illik orta təhsil bazasında kolleclərə, eləcə də ali təhsil müəssisələrinə sənəd verməyən şagirdlər hazırda keçirilən buraxılış imtahanlarında iştirak etməyə bilərlər. Həmin şagirdlər üçün də buraxılış imtahanının sentyabr ayında keçirilməsi nəzərdə tutulur.

"İmtahana buraxılış vərəqəsi" hər imtahan günündən 5 gün əvvəl DİM-in saytında yerləşdiriləcək.

Xatırladaq ki, qeyd olunan tarixlərində:

- 11-ci sinif üzrə buraxılış imtahanları;

- Əvvəlki illərin məzunları üçün I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının 1-ci mərhələsi, V ixtisas qrupu və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul imtahanları;

- Azərbaycan dilindən fərqli dildə təhsil alan və kollecə sənəd verən 9-cu sinif (cari və əvvəlki illər) və 11-ci sinif (cari və əvvəlki illər) məzunları üçün Azərbaycan dili (dövlət dili) imtahanları;

- Ümumi (9 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq istəyən cari və əvvəlki illərin məzunları üçün qəbul imtahanları keçiriləcək.

İmtahan keçiriləcək tarixlərdə rayon və şəhərlərdə sərtləşdirilmiş karantin rejimi tətbiq olunarsa, həmin bölgələrdəki imtahan iştirakçıları haqqında məlumat bazası aidiyyəti qurumlara təqdim ediləcək, imtahan iştirakçılarının və ehtiyac olarsa, iştirakçını müşayiət edən bir nəfərin imtahan binasına gedib və imtahandan sonra qayıtmasına icazə veriləcək.

***Dürrə Həsənova***

# #KarabakhisAzerbaijan, #StopArmenianAgression həştəqləri dünya trendi oldu

***Qlobal pandemiya səbəbindən bütün münaqişə və müharibələrin dayandırıldığı bir dönəmdə Azərbaycanın dövlət sərhəddində işğalçı Ermənistanın xaincəsinə hərbi təxribatlar törətməsi və bununla bağlı sosial media şəbəkələrində dezinformasiyalar yayması Azərbaycan Diaspor Könüllüləri və diaspor gəncləri tərəfindən hiddətlə qarşılanıb.***

Diasporla İş üzrə Dövlət Komitəsindən Unikal.org-a verilən məlumata görə, Azərbaycan Diaspor Könüllülərinin təşəbbüsü ilə "Karabakh is Azerbaijan!" platformasında birləşən azərbaycanlı diaspor gəncləri, xalqımızın gənclər qanadı və vətənsevər övladları birlikdə iyulun 13-dən başlayaraq sosial şəbəkələrdə, xüsusilə twitter?də ölkəmizin dövlət sərhəddində Ermənistan tərəfindən törədilmiş təxribatla bağlı həqiqəti əks etdirən informasiyalar paylaşıblar.

Gənclər facebook və twitter?də Dağlıq Qarabağ həqiqətləri, ermənilərin Qarabağda və ətraf ərazilərdə törətdikləri vəhşiliklər, hazırda cəbhədə baş verən təxribatlar haqqında, #KarabakhisAzerbaijan, #Karabakh, #StopArmenianAgression, #StopArmenianOccupation həştəqlərindən istifadə etməklə, facebook.com və twitter.com sosial şəbəkələrində 1000-lərlə foto, video və digər məlumatlar paylaşıblar. Azərbaycanlı gənclər sözügedən həştəqlərlə, ümumilikdə 100 minə yaxın paylaşım ediblər. Ölkəmizdə və xaricdə yaşayan gənclərimizin birlik, həmrəylik nümayiş etdirmələri nəticəsində 14-15 iyul tarixlərində twitter.com sosial şəbəkəsində qeyd edilən həştəqlər dünya trendinə düşüb ki, bu da ümummilli məsələlərdə azərbaycanlı gənclərin birliyinin bariz nümunəsidir.

Xatırladaq ki, Azərbaycan Diaspor Könüllülərinin təşəbbüsü ilə "Karabakh İs Azerbaijan!" YouTube kanalı yaradılıb. Azərbaycan Diaspor Könüllüləri, diaspor gəncləri ilə birlikdə, Qarabağ hə-



qiqətləri - onun tarixi, mədəniyyəti, musiqisi, şəxsiyyətləri, əhalisi, adət-ənənələri, təbiəti, mətbəxi və s. haqqında Azərbaycan, ingilis, rus və digər dillərdə videoçarxlar hazırlayaraq kanal vasitəsilə yayımlayırlar. Məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək və bu istiqamətdə həqiqətləri müxtəlif dillərdə dünyaya bir daha bəyan etməkdir.

***Zaurə***

# Daha bir neçə şəhid ailəsi və müharibə əlilinə mənzil verildi

***Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı proqramı davam etdirilir.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Unikal"a verilən məlumata görə, bu gün Hacıqabul rayonundan 17 şəhid ailəsi və müharibə əlilinə (12 şəhid ailəsi, 5 nəfər Qarabağ müharibəsi əlili) Şirvan şəhərindəki 68 mənzilli yeni yaşayış binasından mənzillər təqdim edilib.

Verilən mənzillərdən 10-u ikiotaqlı, 3-ü üçotaqlı, 4-ü isə birotaqlıdır.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, digər sosial proqramlar kimi, şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı proqramı da davam etdirilərək genişləndirilir.



Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı həmin kateqoriyadan olan vətəndaşlar üçün rekord sayda - 1500 evin verilməsinin nəzərdə tutulduğunu qeyd edərək deyib: "Əgər biz bu templə davam edəsək, yəqin ki, bir-iki il ərzində, maksimum üç il ərzində bu gün növbədə duran bütün şəhid ailələrini, hansılar ki, hələ mənzillər almayıb, mənzillərlə təmin edəcəyik".

Yeni mənzillə təmin olunan şəhid ailələri və müharibə əlilləri onlara göstərilən yüksək qayğıya, mənzillə təmin edilmələrinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

Onlar mənzillərdə yaradılan şəraitdən razılıqlarını bildiriblər.

Cari ilin ötən dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən artıq 370 mənzil sahiblərinə verilib. 200-ə qədər mənzil, əlavə 100-ə qədər fərdi ev də artıq hazırdır.

Şirvan şəhərində 68 mənzilli yeni yaşayış binası "Kapital Bank" tərəfindən sosial məsuliyyət prinsipi çərçivəsində inşa etdirilərək, bu il iyulun 10-da istifadəyə verilib. Binada müasir tələblərə uyğun yaşayış şəraiti yaradılıb.

***Nigar***

# Azərbaycan və Macarıstan XİN nazirləri arasında bir sıra sənədlər imzalandı

***17 iyul 2020-ci il tarixində Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə ölkəmizdə işgüzar səfərdə olan Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto arasında görüş keçirilib.***

XİN-dən "Unikal"a verilən məlumata görə, nazirlər arasında ikitərəfli formatda başlayan görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş formatda davam edib.

Görüş zamanı Azərbaycan Xarici İşlər naziri macarıstanlı həmkarını səmimiyyətlə salamlayıb və nazir Peter Siyartonun təbriklərini qəbul edib.

Nazirlər iki ölkə arasında mövcud olan strateji əməkdaşlıq münasibətlərin inkişafından məmnunluq ifadə edib və ikitərəfli münasibətlərin bir sıra istiqamətlərdə, o cümlədən iqtisadiyyat, ticarət, təhsil, mədəniyyət, turizm, səhiyyə və digər sahələrdə bundan sonra da möhkəmləndirilməsi üçün səylərin əsirgənməyəcəyini vurğulayıblar.

Nazir C. Bayramov bölgədə olan vəziyyət, xüsusilə Ermənistanın son təxribatı, bölgədə gərginləşən vəziyyətin kökündə məhz Ermənistanın işğalçılıq siyasətinin dayandığı, 30 ilə yaxındır ki, Azərbaycan ərazilərinin Ermənistanın hərbi işğal altında saxlandığı və məhz bu səbəbdən də bölgədə gərginliyin müşahidə olunduğu barədə qarşı tərəfi məlumatlandırıb.

Beynəlxalq ictimaiyyətin bu məsələdə tutduğu qətiyyətli mövqeyə istinad edən Ceyhun Bayramov qəbul olunan qərar və qətnamələrin həyata keçirilmədiyini bildirərək, ikili standartların müşahidə edildiyini təəssüf hissi ilə bildirib. Ermənistanın iki dövlət sərhədində son hərbi təxribatı və bölgədəki mövcud vəziyyətlə bağlı qarşı tərəfi ətraflı məlumatlandıran nazir C. Bayramov bölgədə davamlı sülh və təhlükəsizliyin, rifahın təmin olunmasında yeganə yolun məhz BMT Təhlükəsizlik Şurasının qətnamələri və digər təşkilatların məlum qərar və sənədlərinin də tələb etdiyi kimi işğalçı ölkənin silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindən və yeddi ətraf rayonundan çıxarılmasının olduğunu qarşı tərəfin diqqətinə çatdırıb.



Bölgədəki yaranmış vəziyyətlə bağlı narahatlığını bildirən macar Xarici İşlər naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Macarıstanın mövqeyinin bəlli və dəyişilməz olduğunu,

Macarıstanın Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qətiyyətlə dəstəklədiyini vurğulayıb. Beynəlxalq ictimaiyyətin sərgilədiyi ikili standartlara gəldikdə isə bu yanaşmanın Macarıstan tərəfindən də müşahidə edildiyini qeyd edən nazir Peter Siyarto Macarıstan xarici siyasətinin əsasında məhz qarşılıqlı hörmət prinsipinin durduğunu qeyd edib.

Nazirlər mövcud qlobal pandemiya şəraitində beynəlxalq əməkdaşlığın və həmrəyliyin əhəmiyyətini qeyd ediblər. Nazir P. Siyarto Azərbaycan Respublikası Prezidentinin irəli sürdüyü COVID-19 ilə mübarizəyə dair BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün Macarıstan tərəfindən dəstəkləndiyini məmnunluqla qeyd edib və bütün dünyanın hazırda əziyyət çəkdiyi bu pandemiya ilə mübarizə həsr olunacaq sessiyanın təşkil olunması təşəbbüsünün Macarıstan tərəfindən olduqca yüksək qiymətləndirdiyini bildirib. Bu xüsusda nazir Ceyhun Bayramov Azərbaycan dövlət başçısının COVID-19 pandemiyası ilə bağlı BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün Macarıstan tərəfindən dəstəklənməsinə görə təşəkkürünü bildirib.

Tərəflər, Azərbaycanın Avropanın enerji təminatının şaxələndirilməsində, xüsusilə qaz təminatında mühüm rolu barədə fikir mübadiləsi aparıblar. Macarıstan naziri Macarıstanın Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşan qaz təminatı layihələrindən faydalanmaq marağını ifadə edib.

Görüşdə, habelə iki ölkə arasında hüquq-müqavilə bazasının genişləndirilməsi məsələləri müzakirə edilib.

İki ölkə arasında mövcud olan pozitiv səfərlər və mübadilələr dinamikasının gələcəkdə də davam etdiriləcəyindən əminlik ifadə edilib.

Nazirlər həmçinin Türk Şurası çərçivəsində əməkdaşlığın əhəmiyyətindən bəhs edib, eləcə də digər beynəlxalq təşkilatlar çərçivəsində dəstək və əməkdaşlığın bundan sonra da davam etdiriləcəyini vurğulayıblar.

Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə münasibətlərinə toxunan P. Siyarto Macarıstanın Aİ ilə Azərbaycan arasında aparılan yeni saziş üzrə danışıqların tezliklə yekunlaşmasının tərəfdarı olduğunu qeyd edib.

Görüşün sonunda P. Siyarto azərbaycanlı həmkarını pandemiya ilə bağlı vəziyyət normallaşdıqdan sonra Budapeştə rəsmi səfərə dəvət edib.

Görüşdən sonra iki nazir tərəfindən "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Macarıstan insan Resursları Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq dair Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə Macarıstan Milli Vergi və Gömrük Administrasiyası arasında məlumat mübadiləsi və vergi tələblərinin alınmasında yadım haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi ilə Macarıstan İnnovasiya və Texnologiya Nazirliyi arasında səhiyyə sənayesi sahəsində əməkdaşlıq haqqında Saziş" sənədlərini imzalanıb.



# Elməddin Behbud TRT əl-Arabiyyə telekanalına müsahibə verdi

***Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının ictimaiyyətlə əlaqələr bölməsinin rəhbəri Elməddin Behbud Ermənistan ordusunun Tovuz istiqamətindəki mövqelərimizə, həmçinin, yaşayış məntəqlərinə hücumu ilə bağlı TRT World Qrupuna daxil olan TRT əl-Arabiyyə telekanalınan canlı efirinin qonağı olaraq açıqlama verib.***

O bildirib ki, müsahibədə aşağıdakı məqamları vurğulayıb:

1) Hazırkı hücum Ermənistanın Azərbaycana qarşı 30 ildən bəri apardığı işğal və terrorçuluq siyasətinin davamıdır. Ermənistanın hazırkı rəhbərliyi ölkə daxilindəki siyasi, iqtisadi və sosial narazılıq dalğasının qarşısını almaq üçün vaxtaşırı olaraq müxtəlif avantüralara əl atır. Ermənistanın xain hücumu nəticəsində ordumuzun bir neçə əsgər və zabiti, həmçinin, mülkü vətəndaşımız şəhid olub. Amma Azərbaycan ordusunun cavab atəşi ilə düşmənə sarsıdıcı zərbələr endirməsi, onun hərbi texnikasını, müdafiə qurğularını və 100-dən çox canlı qüvvəsini məhv etməsi silahlı qüvvələrimizin kifayət qədər güclü olduğunu göstərir.

2) ATƏT-in Minsk Qrupunun vasitəçilik missiyasının faydasızlığı və 30 ilə yaxın müddətdə münaqişənin ədalətli həllini təmin etməməsi Azərbaycanın torpaqlarını azad etmək üçün daha təsirli yolu seçmək məcburiyyətində qoyur. Silahlı qüvvələrimiz Qarabağ və ətraf 7 rayonumuzda qurulan terror rejimini zərərsizləşdirərək torpaqlarımızı Ermənistan işğalından azad etməyə qadirdir.

3) Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan uzaqgörən siyasət nəticəsində Ermənistanın işğalçılıq siyasətini beynəlxalq platformalarda da ifşa olunur. Ermənistanın 12 iyulda başladığı hücumla bağlı Türkiyə, Ukrayna, Pakistan, Türk Dövlətləri Şurası, TÜRKPA, GUAM, İƏT kimi dövlət və beynəlxalq təşkilatlar Azərbaycanın beynəlxalq aləm tərəfindən tanınan sərhədlərinin toxunulmazlığı prinsipini açıq müdafiə edən bəyanatlar qəbul edib.

4) Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş dövlətin xarici işlər nazirinin, müdafiə nazirinin və parlamentarilərinin Azərbaycanı birmənalı şəkildə dəstəklədikləri barədə mövqeyi bizdə böyük ruh yüksəkliyi yaradır. Ərdoğanın Türkiyənin sonadək Azərbaycanın arxasında olması, Qarabağın düşmən işğalından azad olunması ilə bağlı haqq işimizi hər sahədə dəstəklədiyini bildirməsi bir daha Azərbaycan və Türkiyənin eyni millətin qurduğu iki dövlət olduğunu göstərir.

# İspaniyadakı Azərbaycan diasporu erməni təxribatına qarşı tədbir keçirib

***"Barselonadakı Azərbaycanlılar Cəmiyyəti"nin (ASB) təşkilatçılığı ilə Barselona Azərbaycan Evində tədbir keçirilib.***

Bunu Modern.az-a arselonadakı Azərbaycan Cəmiyyətinin sədri Kərim Kərimov bildirib. Diaspor nümayəndəsi deyib ki, tədbirin keçirilməsində əsas məqsəd son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində baş verən hadisələr olub.

Tədbirdə Tovuz istiqamətində olan qarşıdurma nəticəsində vətən uğrunda canından keçən Şəhidlərimizin ruhunu ehtiramla yad etmək, həmçinin yerli ispan cəmiyyətinə sərhəddə baş verən aktual hadisələrin düzgün çatdırılması üçün lokal media və digər alternativ vasitələrdən istifadə imkanları müzakirə edilib.

Daha sonra çıxış edən Türkiyənin Barselonadakı baş konsul köməkçisi Gülay Demirtaş öz ölkəsinin hər zaman qardaş Azərbaycanın yanında olduğunu bir daha vurğulayıb.



Tədbirin ikinci hissəsi açıq panel şəklində davam edib. Barselona Vəkillər Kollegiyasının üzvü həmçinin Barselona Universitetinin professoru Javier Medina Ortiz və Barselonada fəaliyyət göstərən "Opportunity Network" şirkətinin vitse prezidenti Nizami Namazov tədbir iştirakçılarının suallarını cavablandırıb, sərhəddə baş verən aktual hadisələr fonunda Azərbaycan həqiqətlərinin ən real şəkildə İspaniyada təbliği məsələsini müzakirə ediblər.

Qeyd edək ki, tədbirdə həmçinin "zoom meeting" vasitəsilə İspaniyanın digər regionlarında yaşayan azərbaycanlılar və həmçinin Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Leyla Həmzəyeva da iştirak edib. Daha sonra İspaniyanın Bilbao və Valensiya regionlarındakı diaspora rəhbərləri Fərid Mustafayev və Mübariz İbrahimov, onlayn şəkildə öz fikirlərini tədbir iştirakçıları ilə bölüşüblər.

Diaspor nümayəndəsi Kərim Kərimov şəhidlərə rəhmət diləyərək, azərbaycanlıların bir olduğunu qeyd edib:

"İspaniya azərbaycanlıları olaraq Azərbaycandan uzaqda yaşasaq da, ürəyimiz hər zaman Vətənimiz Azərbaycanla döyünür.

General-mayor Polad Həşimov daxil olmaqla Allah vətən uğrunda canını fəda edən bütün Şəhidlərimizə rəhmət eləsin, ruhları şad və məkanları cənnət olsun. Yaxınlarına səbr diləyirik!".



# Tarixçi alimlər erməni təcavüzü ilə bağlı bəyanat yayıblar

***Tərkibində gənc alimlərin toplaşdığı, tarix üzrə fəlsəfə doktoru Ziya Hacılının rəhbərlik etdiyi "Arxeoloq" İctimai Birliyi Azərbaycanın Ermənistanla sərhəddinin Tovuz rayonu ərazisində baş bermiş erməni təxribatı nəticəsində atəşkəsin pozulması, hərbi əməliyyatların intensivləşməsi ilə bağlı bəyanat yayıb.***

Qurumun Azərbaycan ictimaiyyəti ilə yanaşı, dünyanın 20 ölkəsindəki tərəfdaş təşkilatlarına, tarix elmi üzrə birliklərinə ünvanlanmış bəyanatda bildirir:

"2020-ci ilin 12 iyul tarixindən etibarən Ermənistan silahlı qüvvələri Tovuz rayonu ərazisindəki mövqelərimizi, o cümlədən dinc əhalinin yaşadığı məntəqələri güclü atəşə məruz qoymuş, bunun nəticəsində hərbçilərimiz və mülki vətəndaşlarımız şəhid olmuş, yaralanmışdır. "Arxeoloq" İctimai Birliyi Ermənistanın işğalçılıq siyasətinin növbəti bariz göstəricisi olan bu faktı qətiyyətlə pisləyir.

Tovuz cəbhəsində baş verənlər onu göstərir ki, Qafqaz coğrafiyasına yad, etnik kökü kifayət qədər mübahisə və suallar doğuran, təhlükəli xəstə təxəyyülü ilə artıq üç əsrdir, qonşularının haqq və hüquqlarını hər fürsətdə tapdalayan, regiona köçürüldükləri tarixdən daim böyük güclərin maşasına çevrilmiş erməni adlı qaraguruhçuların törətdikləri terror günümüz üçün də aktualdır.

Böyük təəssüflə vurğulamaq istərdik ki, həm qədim Azərbaycan yurdu olan indiki Ermənistan Respublikası adlanan ərazidə, həm də işğal altında olan Vətən torpaqlarımızda xalqımızın əsrlər boyu qurub-yaratdığı dünya mədəniyyətinin irsi hesab edilən bir çox maddi mədəniyyət nümunələrimiz olan tarixi dini, arxeoloji abidələr, məzar daşları da düşmənin mənfur hədəfinə çevrilərək məhvə məruz qalıb. Proses Ermənistan hakimiyyətində təmsil olunan qüvvələr tərəfindən hazırda da davam etdirilməkdədir.

Son günlər erməni məkrinin növbəti təzahürü ilə üzbəüz qaldığımız ilk anlardan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təxirəsalınmaz əks cavab tədbirlərinin davam etdiyi bir vaxtda "Arxeoloq" İctimai Birliyində təmsil olunan gənc alimlər olaraq daim dövlətimizin və ordumuzun yanında olduğumuzu bəyan edirik, Vətən torpaqları uğrunda döyüşməyə və ərazi bütövlüyümüzü bərpa etmək yolunda veriləcək hər bir tapşırığa əməl etməyə hazır olduğumuzu bildiririk.

Onu da bildirmək istərdik ki, biz öz növbəmizdə dünyada əməkdaşlıq etdiyimiz elmi birlikləri istər Qarabağ münaqişəsinin tarixi kökləri, istərsə də erməni terrorizmi və vandalizminin Tovuzda özünü göstərən növbəti təzahür forması barədə geniş məlumatlandırmağı, onların təmsil olunduqları ölkələrin elm ictimaiyyətinə müraciətlərini diqqətdə saxlamağı hədəf seçmişik. Bu işi məsuliyyətlə davam etdirməyi Vətənimiz Azərbaycan qarşısındakı müqəddəs borcumuz hesab edirik.

Müqəddəs amalımız olan torpaqlarımızın azadlığı və müdafiəsi uğrunda qəhrəmancasına şəhid olmuş hərbçilərimizin xatirəsini qürurla anır və onların yaxınlarına Allahdan səbr diləyirik".

# Qəlblərin fatehi general Həşimovun şimal xidməti

***"General-mayor Polad Həşimovun şəhid olması xəbərini eşidəndən və mənə olduqca tanış gələn şəkilləri yayılandan çox gərginlik içərisindəyəm. Düşmənə sonsuz nifrətimi dilə gətirərək hamıya bu generalın mənə çox tanış gəldiyini deyirdim. Sən demə, səhv etməmişdim. Həkim dostlarım Anjela Əlifxanova və Mübariz Zeynalov mənə bildirdilər ki, general Qusarda xidmət edib. Həkim ehtiyatda olan tibb xidməti mayoru Əlyar Sərvərov da onu çox yaxşı tanıyır.***

Və beləcə dərhal hər şey yadıma düşdü. Müdafiə Nazirliyinin Qusardakı hərbi hissəsində tibb xidmətinin rəisi olmuş, hazırda TƏBİB-i n "Quba Rayon Mərkəzi Xəstəxanası" Publik Hüquqi Şəxsin baş direktoru Əlyar Sərvərovla şəhid generalımız barədə söhbətləşdik. Koronaviruslu xəstələrə necə xidmət göstərdiklərini açıqlamaq istəməyən, "TƏBİB sədri Ramin Bayramlıdan icazə al, gəl, danışım"- deyən Sərvərov bu dəfə general Həşimovdan məmnuniyyətlə danışdı. Özü də necə ?! Yana-yana, ürəkdən sızıldaya-sızıldaya. Həkim müsahibim dedi ki, Rolad Həşimov Qusardakı hərbi hissədə qərargah rəisi olub. "Mən hərbi həkim kimi 2005-ci ilin avqust ayında işə başlamışam. Polad məndən bir ay sonra gəlib Qusara."

Həkim Sərvərovun sözlərinə görə, generalla həm dost, həm də hərbi şəhərcikdə qonşu olublar. Ailəvi get-gəlləri də olub. Onunla bağlı xatirələrini dilə gətirən Əlyar həkim kövrələ-kövrələ deyir ki, hərbidə qaçış xidmətin ən vacib ünsürüdü:

"Polad məni o qədər qaçırıb ki...3 km qaçmalı idik hər dəfə. Bir dəfə yenə qaçırdıq. Gördüm ki, Polad polkovnik Azakovla dayanıb. Soruşdum, nəyi gözləyirsiniz? Dedi, səni, Sərvərov. Sən demə, mən bir dövrə gecikmişəm. Onlar 6 dövrə qaçıb, mən 5 dövrə. Hər qaçışda 3 km məsafədə qaçırdıq".

Əlyar həkim deyir ki, Polad Həşimov 2007-ci ilə qədər Qusarda hərbi hissədə xidmət edib. Buradan sonra pillə-pillə, öz zəhməti və qabiliyyəti hesabına yüksəlməyə başlayıb. Bildirir ki, mən 2013-cü ilin mayında Səhiyyə Nazirliyi sisteminə işə keçdim.2013 və 2014-cü illərdə qış aylarında 3 dəfə Poladın yanına getmişəm. Onda Daşkəsəndə hərbi hissə komandiri idi. "Bir dəfə getdim yenə Murova. Dizəcən qar vardı. Onu xeyli gözlədim. Nəhayət, gəldi, özü də xizəklə. Dedi, bu havada nə üçün gəlmisən? Dedim, zəhrimar telefonun işləyir ki, soruşum? Yenə bağlı idi. Ona görə narahat olub durub gəldim. Rəhmətlik mobil telefonu qəti sevmirdi."

Əlyar Sərvərov Polad Həşimovun tezliklə general rütbəsinə yüksələcəyini sanki əvvəldən hiss edibmiş də:

"Bir dəfə Murovda olanda mənə dedi ki, qayt gəl hərbiyə. Dedim, yox. Sən məni yenə qaçırtmaq istəyirsən? General sən olacaqsan. Onsuz da tibb sahəsində general rütbəsi yoxdu"

Polad Həşimovla görüşəndə zarafatlarından qalmayan Əlyar Sərvərov indi dərin hüzn içində dostunun itkisinə çox üzülür:

"Qusarda işləyəndə Polad imkan olan kimi hərbi hissənin tibb məntəqəsinə gəlirdi. Mən tibb xidmətinin rəisi idim. Həmişə deyirdi ki, bura gələndə hüzür tapıram, indi isə hüzr içərisindəyəm. Adında və iradəsində hərbiçi sərtliyi, möhkəmliyi olsa da, Poladın qaynar və yumşaq qəlbi vardı".



Əlyar həkim Polad Həşimovla sonuncu dəfə ona prezident İlham Əliyev tərəfindən general rütbəsi veriləndə telefonla danışıb. 2019-cu ilin iyun ayında:

"Təbrik etdim. Demişdim də,sən general olacaqsan. Oldun da".

Generalın dəfninə də gedə bilməyib Əlyar həkim. Qubada koronaviruslu xəstələri həyata qaytarmaq kimi şərəfli missiyanı yerinə yetirən Sərvərov onun şəhid olma xəbərini eşidəndə sarsılıb, heç nə deyə bilməyib:

"Qoy karantin bitsin.Xəstələrimiz tam sağalsın. Gedəcəyəm, onu 2-ci Fəxri Xiyabanda yad edəcəyəm. Bir kəlmə söz deyəcəyəm. Arzuna çatdın"

Polad Həşimovu yaxşı tanıyanlardan biri də Qusarda 2009-2014-cü illərdə komandir kimi xidmət etmiş,dəyərli ziyalı və vətənpərvər insan Oruc Abdullayevdi.Zabit yoldaşı haqda ağızdolusu danışan Oruc Abdullayev Polad Həşimovun Vətən xəstəsi olduğunu söylədi:"Polad Vətənin acı idi.Heç nədə tamahı,təmənnası yox idi. Vətənin Məcnun vurğunu idi. Gülərüz və ağır təbiətli insan idi. Aprel döyüşlərində xüsusi şücaət göstərdiyini hər kəs bilir. Polad yüksəkliyini, Polad postunu təkbaşına almışdı.Ermənidə qalan. əsgərlərin meyitini təkbaşına gedib gətirmişdi. Heyf ondan...

Polad müstəqil Azərbaycanın generalı olsa da sanki köhnə generallardan idi. Poladda 1918-ci il generallarının -Mehmandarov,Şıxlinski əlaməti vardı, ruhu vardı. Heç ölməli oğul deyildi. Amma, görürsünüz, qisasımızı alırıq, almaqdayıq. Onun qanını qızğın döyüşlərdə birə min alacağıq".

Yazımın əvvəlində general Həşimovun Qusarda xidmət etdiyini bildirmişdim. Sonra xatırladım ki, generalı iki dəfə görmək mənə nəsib olub. Onda ANS televiziyasında işləyirdim. Birinci dəfə Polad Həşimovla 2006-cı ildə Qusar şəhərində general Mahmud Əbilov adına mərkəzi şəhər meydanında keçirilən tədbirdə görmüşəm. İkinci dəfə Polad Həşimov Qusarda hərbi hissənin ərazisində yanğın baş verəndə. İçəri daxil ola bilməsək də küçədən çəkmişdik. O zaman hərbi hissənin girəcəyində görünən hərbçilər arasında qərargah rəisi Həşimovu görmüşəm. Açığı, bir o qədər diqqət verməmişdim o vaxt. Belə olur da... Bəzən adi bildiyimiz adamı itirəndən, itirdiyimizi dərk edəndən sonra qədrini daha çox bilməyə başlayırıq, onun böyüklüyünü sonralar hiss edirik.



General Həşimovun şəhid olma xəbərini, hamı kimi, mən də dərin hüznlə qarşıladım. Yanıb töküldüm. Azğın düşmənə nifrətim dolub daşadaşa...Bütün şəhidlərimiz kimi, Polad generalımız və onun əsgərlərinin qanının Ali Baş Komandanın rəhbərliyi altında Milli Ordumuz tərəfindən tezliklə alınacağına inamım var...Ruhları şad olsun.

Bəli, indi Azərbaycan Silahlı Qüvvələrində qulluq edən hər kəs sıravi əsgərdən generala qədər- bir örnək qazandıq: Polad ürəkli, Polad biləkli, Polad iradəli olmaq. General Polad Həşimov kimi...

***Aytəkin Alxaslı***

# Qadına görə başına bəla gələn məşhurlar: onların arasında Müşfiq də var



***“Unikal” qəzeti Kulis.az-a istinadən Emin Pirinin ”Mikayıl Müşfiq qadına görə öldürülüb” adlı yazısını təqdim edir.***

Biz nə qədər ideoloji, milli, bəşəri anlamlar verməyə çalışsaq da, bəzi qərarlar, məhz o qərarların yaratdığı ideoloji, milli, bəşəri görüntülər şəxsi travmalar, hislər, eqo, özünü isbatlamaq, qisas istəyindən başqa bir şey deyil.

Hitlerindən Napoleonuna, Oktavian Avqustundan Misir fironlarına kimi tarix kitablarının bizə öyrətdiyi siyasət, tarixi gedişat bəzi hallarda travmaların, hislərin, eqonun yaratdığı situasiyalardır.

Mədə və seks. İnsan varlığının başlanğıcından ta indiyə kimi həyat bu iki ehtiyacın təminatı və bunun uğrundakı mübariz fonunda qurulub. Yaxud keçmişin bu cür təminatsızlığının qisasını almaq üzərində gedən gələcəyin ideoloji, şəxsi savaşları...

Bəli, məhz mədə və seks. İstər milliyətçi, istər əksi olan ideologiyaların alt qatında sənin və dəyər verdiklərinin bu iki əsasda başqalarından daha çox təmin edilməsini düşünməyin durur. Düşünməsən belə, insan xislətində yatan, özünə belə etiraf etməyə qorxduğu, vəhşi canlı həmişə oyaqdır.

Yuxarıda qeyd etdiyimiz kimi bu iki təminatsızlıq gələcəkdə ideologiyayla pərdələnərək qisasa, daha geniş formatda isə dünya tarixinin, xəritələrin dəyişməsinə rəvac verir.

Napoleon kimi bir şəxsin, hər halda Rusiyada planları başqa cür ola bilərdi. Zamansız kişilik eqosu, onu hirslə Rusiya buzlaqlarına aparmasaydı, hər şey dəyişə bilərdi. Əlbəttə ki, Rusiya şahzadəsinə etdiyi evlilik təklifinə cavab olaraq ”Korsika qurbağası” damğasıyla alçaldılmasaydı. Çar bacısının - bir qadının ”yox” cavabı idi kişilik eqosunda boğulan Napoleonu zamansız Rusiya çöllərində sərgərdan edən - ”mən Napoleonam və səninlə məhz öz evində, Kremlin taxtında sevişəcəm”, düşüncəsinin yaratdığı eqo və kişilik qüruru.

Gələcəyin böyük potenasiallı liderinin sevdiyi biri ilə evlənmək ömür boyu çiynində Demokl qılıncı gəzdirməkdir. Böyük imperator Oktavian Avqustun sevdiyi qadınla evlənən əyan oğlunu dövlətə xəyanətdə ittiham edərək edam etdirməsi kimi.

Dövlətə xəyanət demişkən, bizim 30-cu illər yadıma düşür. Sağdan, soldan millətçilərə heç bir adiyyatı olmayan, sovet dövründə yetişən xeyli şəxsiyyət dövlətə xəyanətdə ittiham olunaraq sürgün və edama məruz qaldı. Onların hamısı dövlətə xəyanət etmişdi? Və ya şeirlərində az qala başdan-başa Soveti tərənnüm edən biri milliyyətçi damğasıyla necə qurban gedə bilərdi? Bir-birindən xoşu gəlməyənlər şəxsi davalarına görə donoslar göndərərək bunu dövlətçilik adıyla pərdələyərdi.

Hansısa milli şairlə, elə götürək Hüseyn Cavidlə görüşə görə bir adam repressiya oluna bilərmi? İndini götürək, üzdə olan şairlər az qala hamsı bir-biriylə və ustad bildikləri ilə görüşür, oturur. O dövrdə də eynilə. Ustad Cavidlə onun kimi şəxslərlə hansı şairlərin yolu kəsişməmişdi ki?

37-ci illərdə qadının ucbatından ”dövlətə xəyanət” adıyla çox ziyalının, şairin başına bəla gəlib. Hər halda hansısa sovet məmurunun ”filankəsin xanımından xoşu gəlməsinə görə” ərini edama, sürgünə göndərməsi üçün maddə yox idi. Adını da qoyurdular dövlətə xəyanət, pantürkçülərlə əlaqə, antiinqilabçılıq və.s.

Müşfiq yadıma düşdü. Nakam, gözəl Müşfiq. Yaradıcılığının böyük əksəriyyəti sovet tərənnümü olan, saf, bir qədər dəcəl, Azərbaycanın ən ilhamlı şairlərindən biri. Qadın ucbatından, hansısa sovet məmurunun hislərinə görə dövlətə xəyanətdə ittiham olunaraq edam olunnunur...

Nəyəsə eyham etmirəm, əsla! Sözdü də, deyirəm, hərdən bizə fövqəladə görünən hadisələrə, qərarlara mədə və seks prizmasından baxaq. Bəlkə çox şeyi görə bildik. ”Çörək və tamaşa” illuziyasında yaşayanlar onsuz da belə şeyləri anlayacaq gücdə deyillər.

# "Ermənilərin Azərbaycana qarşı alçaq siyasəti xalqı qəzəbləndirir" - İlham Namiq Kamal



***Son hadisələr əhval-ruhiyyəmizi çox korladı. Bunu Milli.Az-a açıqlamasında Xalq artisti, Azərbaycan Akademik Musiqili Teatrının aktyoru və rejissoru, ”Şöhrət” ordenli, Prezidentin fərdi təqaüdçüsü, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqili teatr aktyoru kafedrasının müdiri, professor İlham Namiq Kamal deyib.***

Xalq artisti aksiyanı döyüş meydanına çevirmək cəhdi edənlərlə bağlı bildirib ki, cəbhədə əsgərlərimiz erməni ilə döyüşür, burada da polisə, dövlətə qarşı təxribat törətməyə cəhd edirlər:

”Ermənilərin abırsız, alçaq siyasəti, Azərbaycana qarşı olan məkirli planları xalqın əsəblərini tarıma çəkir, xalqı qəzəbləndirir. Ancaq onunla bərabər Azərbaycan dövləti, Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin apardığı uğurlu iş nəticəsində bunların hamısını dəf edir və dəf edəcək. Amma bu, o demək deyil ki, insanlar sakit durmalıdırlar. Siz gördünüz ki, bizim gənclərimiz necə yüksək səviyyədə öz vətənpərvərliklərini göstərdilər. Amma bununla bərabər onların vətənpərvərliyindən sui-istifadə edən qüvvələr də var ki, o qüvvələr, sözün əsl mənasında, Azərbaycan xalqına cəbhədə döyüşlər getdiyi bir dönəmdə, şəhidlər verdiyimiz bir dönəmdə, birlik-bərabərlik nümayiş etdirdiyimiz bir dönəmdə arxadan zərbə vururlar. Çıxmışdılar Qarabağ, müharibə şüarları səsləndirməyə, amma nə etdilər?! Polisə müqavimət göstərdilər, asayişi pozmağa çalışdılar, təxribata əl atdılar. Cəbhədə əsgərlərimiz erməni ilə döyüşür, burada da polisə, dövlətə qarşı təxribat törətməyə cəhd edirlər”.

Professor qeyd edib ki, yaşından asılı olmayaraq, əgər Ali Baş Komandanın səfərbərlik, müharibə əmri olsa, ön xəttə də gedib gənclərə dəstək olmağa hazırdır:

”Cənab Prezidentin son zamanlar keçirdiyi müşavirələrdə bəzi məmurlara, nazirlərə dediyi sözlər, tutduğu iradlara da şərikik. Mən yaradıcı adam da olsam, yaşımdan asılı olmayaraq, əgər Ali Baş Komandanın səfərbərlik, müharibə əmri olsa, ön xəttə də gedib gənclərə dəstək olmağa, ruhlandırmağa hazıram. Mən bu dəqiqə Şamaxıdayam. Burada olan insanlar arasında mənə nə qədər müraciət edən var ki, ”Biz nə edək? Necə kömək edək hərbçilərimizə?” Biz buradakı gəncləri sakitləşdiririk ki, ”Darıxmayın, lazım olanda Ali Baş Komandan əmr verəcək. Biz də onun əmrinə tabe olub, ürəklə irəli gedəcəyik”. Mən burada olduğum üçün bunu şamaxılılar adından da qeyd etmək istəyirəm ki, şamaxılılar həmişə vətənlərini seviblər, Şirvan camaatı həmişə dövlətin və cənab Prezidentin ətrafındadır”.

# “Qayınanam "yox" deyirsə, heç yerə gedə bilmərəm" - Dilarə Əliyeva

***İTV-də yayımlanan ”Gəl qonaq ol” proqramı bu dəfə Əməkdar artist Dilarə Əliyevanın evində çəkiliş edib.***




“Unikal” axşam.az-a istinadən xəbər verir ki, aktrisa həyat yoldaşı, övladı və qayınatası, Xalq artisti Vidadi Əliyevlə kamera qarşısına keçib.

”Dilarə ilk gəlinim idi. Toy edəndə narahat idim ki, necə olacaq? Amma evə gələn kimi elə öyrəşdi, hərəkətlər etdi ki, oldu evin qızı. Qızım yox idi, mənə qız olub” deyə, qayınatası gəlini haqda danışıb.

Dilarə isə ailəsindən, qayınanası, Xalq artisti Elmira İsmayılovadan söz açıb:

”Bu evə gəlin yox, qız kimi gəldim. Hər şeydə gözəllik görməyi bacarıram. Nəyisə səhv edəndə, qabaqdangəlmişlik edirəm ki, bunu düz etmədm. Dayanın düzəldəcəm. Bu siyasəti işlədirəm. 14 il qayınanamla bir yaşamışıq. Bir dəfə çox tədbirlər, çəkilişlər oldu, evdə çox olmurdum. Səhəri uşaq məktəbə gedəcəkdi, sentyabrın 15 idi. Bir yaxınımın isə toyuna getməliyəm. Qayınanam dedi ki, getməyəcəksən, otur uşağı məktəbə hazırla. O, nəyəsə yox deyirsə, Oktay (həyat yoldaşı Oktay Əliyev - red.) icazə versə də, gedə bilmərəm. Oturdum evdə, axşam saat 9-du, taleyimlə barışdım ki, toya getmədim. Deyirəm ki, nətər qoymadın ey gedim. Amma mənə də haladır, oturdum evdə. İndi biz onu yumor kimi danışırıq. Ona görə də biz mehribanıq”.

# Xəyyam Mirzəzadənin həyat yoldaşı vəfat etdi

***Xalq artisti, bəstəkar Xəyyam Mirzəzadənin həyat yoldaşı Lamiyə Mirzəzadə dünyasını dəyişib.***

“Unikal”axşam.az-a istinadən bildirir ki, L.Mirzəzadə ötən gün 82 yaşında ürək çatışmazlığından vəfat edib.

Qeyd edək ki, mərhum 21 yanvar 1933-cü ildə Bakı şəhərində anadan olub. L.Mirzəzadə Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadənin anasıdır.

Xatırladaq ki, Xəyyam Mirzəzadə 2018-ci il iyulun 30-da 82 yaşında vəfat edib.



# Müsəlman necə qidalanmalıdır?

***Yeməkdə ifrat etmək bir müsəlmana yaraşmayan əməllərdəndir. Ona görə də bir müsəlman necə yemək yeməlidir? Bunu hədislərə nəzər salaraq öyrənək.***

İmam Əli (ə) buyurur: "Çox yemək yeməkdən çəkinin ki, qəlbi daşlaşdırar, namaza qarşı tənbəllik mənbəyidir, bədəni xəstələndirər".

İmam Sadiq (ə) buyurur: "Evinizdə yemək yeyən zaman süfrəyə və qabınızın ətrafına düşənləri toplayıb meyl edin ki, onlarda daxili xəstəliklərin şəfası vardır".

İmam Sadiq (ə) buyurur: "Hər növ meyvə zəhərli və çirkli olar. Nə zaman onlardan istifadə etmək istəsəniz, su ilə yuyun".

İmam Əli (ə) buyurur: "Heç bir zaman həzmsizliyə düçar olmamışam". Soruşurlar ki, niyə? Buyurur: "Çünki ağzıma apardığım hər bir tikədə Allahın adını çəkmişəm".

Həzrət Peyğəmbər (s) buyurur: "Dünya və axirət içəcəklərinin başında su durur".

Həzrət başqa yerdə buyurur: "Şamı tərk etməyin, baxmayaraq ki, bir dənə quru xurma olsa belə. Mən ümmətimə görə qorxuram ki, şam yeməyini tərk etməklə qocalıq soraqlarına gələr. Çünki şam yeməyi qoca və cavanın güc mənbəyidir".

İmam Əli (ə) buyurur: "Xurma yeyin, çünki dərdlərin şəfasıdır".

Həzrət Peyğəmbər (s) buyurur: "Allah yanında üç nəfər hamıdan daha çox mənfurdur: o kəs ki, gündüzləri çox yatır, halbuki, gecə heç namaz qılmamışdır. O kəs ki, çox yeyir və yeyən zaman Allahın adını və həmdini demir. O kəs ki, səbəbsiz gülür".

İmam Sadiq (ə) buyurur: "Allah çox yeməyə və işsiz qalmağa niftrət edir".

Həzrət Peyğəmbər (s) buyurur: "Uşaq üçün ən yaxşı süd - ana südüdür".

Həzrət başqa yerdə buyurur: "Hər bir şeydə yaxşı niyyətin olmaldır, hətta yemək yeyəndə və yatanda belə".

İmam Əli (ə) buyurur: "Nə zaman Allah bəndəsini islah etmək istəsə, ona üç şeyi nəsib edər: az danışmağı, az yeməyi və az yatmağı".

İmam Kazım (ə) buyurur: "Əgər insanlar yeməkdə mötədil olsalar, bədənləri sağlam qalar".

İmam Sadiq (ə) buyurur: "Mömінin qəlbi üçün çox yeməkdən daha çox ziyan verən şey yoxdur. Çox yemək iki şeyə səbəb olar: qəlbi daşlaşar, şəhvətə təhrik edər".

İmam Baqir (ə) buyurur: "O kəsin ki, mədəsi doludur, Allaha ən uzaq insandır".

İmam Əli (ə) buyurur: "Az yemək iffətin nişanəsidir, çox yemək isə israfın nişanəsidir".

Həzrət Peyğəmbər (s) buyurur: "O kəs ki, yeməyi az yeyər, mədəsi sağlam qalar, qəlb səfası əldə edər. Nə zaman çox yeyən olsa, mədəsi xəstə, qəlbi sərt olar".

İmam Əli (ə) buyurur: "O kəsin ki, yeməyi az olar, düşüncəsi zülal olar".

İmam Əli (ə) başqa yerdə buyurur: "Aclıq nəfsi əsir etmək və adətini sındırmaq üçün necə də yaxşı dostdur".

# Necə edək ki, Covid-19 – a təslim olmayaq? - Alman metodikası

***Karantin qaydalarına düzgün əməl etmək Covid-19 - un yayılmasını azaltmağa və epidemiyanın pik səviyyəsindən qaçmağa imkan verir ki, bu da səhiyyə orqanlarının üzərinə düşən yükü azaldar - daha çox həyat xilas olar.***

COVID-19-u yüngül simptomlarla keçirənləri xəstəxanaya yerləşdirməyə ehtiyac olmur.

Yaşı 65 -dən yuxarı olan insanlar, həmçinin ürək-damar xəstəlikləri, şəkərli diabeti, tənəffüs sisteminin xəstəlikləri, hipertoniya xəstəliyi, xərçəng xəstəliyi, piylənməsi olan pasientlər və immunosupressiv müalicə alanlar arasında COVID-19-dan ölüm riski çox böyükdür.

Qalan yetkin insanlarda yaşlı və sadaladığımız xəstəlikləri olan pasientlərlə müqayisədə ölüm riski azdır.

Uşaqlarda böyüklərə nisbətən xəstəliyin gedişi daha yumşaq və proqnozu daha yaxşıdır, ölüm halları olduqca nadirdir

Özünütəcrid və ya karantini necə faydalı etmək olar?

Özünü təcrid edib evdə oturmaq fiziki fəaliyyətin azalmasına, sağlamlığınızın pisləşməsinə və depressiyaya səbəb ola bilər.

Evdə gəzinti, velosiped sürmə, aerobika, Tai Chi gimnastikası - Çindəki tədqiqata görə koronavirus səbəbilə karantin müddətində çinlilər hərəkət defisitini belə kompensasiya etdilər.

Gündəlik ən az 30 dəqiqə orta fiziki aktivlik və ya günaşırı 20 dəqiqə intensiv fiziki aktivlik hipodinamiyanı istisna etmək, depressiyanın qarşısını almaq və sağlamlığınızı dəstəkləmək üçün vacibdir .

Sadə karbohidratları qidanızdan çıxarın. Hiperqlikemiya və çox miqdarda karbohidrat yemək, infeksiyaya qarşı anadangəlmə immun cavabı zəiflədə bilər; Covid-19 ilə xəstəxanaya yerləşdirilən şəkərli diabetli olan xəstələrin bəzilərində ağırlaşmalar bununla izah edilə bilər.

Stresdən qaçın. Stress- stress hormonlarını artırır. Məsələn, adrenalinlə adrenergik reseptorların aktivləş-



dirilməsi immuniteti zəiflədir.

Yuxu çatışmazlığını aradan qaldırın. Yuxu pozulması və çatışmazlığı immunitetin funksiyasını azaldır.

Bərpaedici yuxu olana qədər, hətta gecənin yarısına qədər yuxusuz qalmağınız növbəti günə qədər immuniteti azaldır. Yuxu rejiminin pozulması xəstəliyə qarşı spesifik immunitetin meydana gəlməsini bloklayır.

Xəstələnmə riskini azaltmağın vacib aspekti - stresi azaltmaq və yuxu çatışmazlığını aradan qaldırmaqdır.

Lakin, həddindən artıq panika, qeyri-müəyyənlik, saxta xəbərlər - bütün bunlar stresə və yuxu keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər.

Çinli alimlərin apardığı araşdırma göstərir ki, Çinin mərkəzində, 2020-ci ilin yanvar ayında COVID-19 epidemiyası səbəbilə karantin zamanı, evdə 14 gün qalarkən, dövlət tədbirlərinə sosial etimad göstərmiş insanlar daha az stress keçirmiş və yuxunun keyfiyyəti yaxşı vəziyyətdə olmuşdur. Buna görə saxta xəbərlər oxumaq və özünüzü aldatmaq lazım deyil.

Karantin qaydalarına, düzgün qidalanmaya, yoluxmamaq üçün sanitar-epidemioloji qaydalara (əlləri tez-tez yumaq, maska taxmaq, sosial məsafə saxlamaqla) əməl etməklə zənciri qırıb, COVİD -19 -a qalib gələ bilərik.

Əgər tənəffüsünüzdə problem, döş qəfəsində davamlı ağrı və ya təzyiq varsa, təcili yardım çağırın!

Təəssüf ki, davamlı stresdən qaçmaq hər zaman əlimizdə deyil. Amma orqanizmin stresə qarşı reaksiyasını normallaşdırmaq və onun yaratdığı pozulmaları aradan qaldırmaq mümkündür.

Bunun üçün Neurexan preparatından istifadə etmək məqsədə uyğundur. Təbii tərkibli, kiçik dozalarda olan, biotənzimləyici Neurexan preparatı Almaniya istehsalıdır. Neurexan preparatı biotənzimləyici təsiri hesabına sinir sistemini sakitləşdirir, fizioloji yuxu ritmini bərpa edir, qanda stress hormonunun miqdarını tənzimləyərək orqanizmin stresə qarşı reaksiyasını normallaşdırır: beləliklə, yuxusuzluğu, qorxunu, həyəcanı, narahatlığı, nigaranlığı, tez özündən çıxmanı və s. aradan qaldırır.

Neurexan preparatının heç bir əlavə təsiri, əks göstərişinin olmaması, gündüz yuxululuq verməməsi və asılılıq yaratmaması onu uzun müddət istifadə etməyə imkan verir. Bütün yaşlarda istifadə etmək olar.

İstifadəsi də rahatdır:

Neurexan- 1 tab gündə 3 dəfə dil altına qoyulur, yeməkdən 30 dəq əvvəl və ya 1 saat sonra.

İmmun sistemin zəifləməsi infeksiyalara yoluxma riskini artırır.

İnterferon sintezini stimulə edir

Virusların replikasiyasını inhibə edir

Qranulositlərin faqositar aktivliyini stimulə edir

Beləliklə, Engystol preparatı virus infeksiyalarına yoluxmadan qoruyur və ya xəstəliyin yüngül keçməsinə, sağalma dövrünün qısalmasına səbəb olur.

İstifadəsi: 1 tab gündə 3 dəfə dil altına qoyulur, yeməkdən 30 dəq əvvəl və ya 1 saat sonra.

Engystol təbii tərkiblidir, nanodozalardadır, heç bir əlavə təsiri və əks göstərişi yoxdur. Hamilələr, süd verən analar, qocalar, hər yaşda uşaqlar istifadə edə bilər. Biotənzimləyici preparat olduğu üçün immun sistemin fəaliyyətini normallaşdırır, artıq çalışdırıb yormur.

# Koronavirus ölümlərinin daha bir səbəbi bilindi

***Koronavirus tam gücü ilə can almağa davam edərkən alimlər onun haqqında yeni məlumatlar əldə etməyə davam edirlər.***

Medicina.az-ın məlumatına görə, dünyada COVİD-19-a yoluxanların sayı 14 milyona yaxınlaşıb. Peyvənd axtarışında olan, həm də gecə gündüz xəstələrin həyatlarını xilas etməyə çalışan elm adamları virus haqqında daha bir araşdırmaya imza atıblar.

COVİD-19 səbəbi ilə həyatını itirənlərin çoxunun ölüm səbəbi kimi tənəffüs çatışmazlığı göstərilirdi. İngiltərədə koronavirusdan ölən xəstələrin tibbi ekspertizası heç kimin gözləmədiyi nəticələri üzə çıxarıb. Bu, çox önəmli araşdırmanın nəticəsinə görə, ölən xəstələrin vəziyyətinin pisləşməsinə səbəb qan laxtalanmasıdır.



"Imperial College London"nun araşdırması bütün dünyanın marağına səbəb olub. Yoluxucu xəstəliklər üzrə mütəxəssis olan professor Graham Kooke koronavirusdan ölən bütün xəstələrdə qan laxtalanması - tromboz olduğunu bildirib. Tromboz ölümcül nəticələri olan ciddi bir problem kimi qəbul edilir.

Professorun sözlərinə görə, bu bütün xəstələrin ölüm səbəbi olmaya bilər.

Ancaq araşdırmalar COVİD-19-un qan damarlarına böyük ziyan vurduğunu sübut edir.

Əslində koronavirus tənəffüs yolu xəstəliyi kimi bilinsə də, irəliləyən mərhələlərdə ürək, beyin, böyrək kimi həyati vacib orqanları da zədələyə bilir.

"Northwestern" Universitetinin kardioloq mütəxəssisi Robert Bonovun sözlərinə görə, tomboza səbəb olan amil COVİD-19 virusunun başqa heç bir virusda görülməyən özəlliyi ola bilər. Virus hüceyrə reseptorlarına yapışdığı kimi qan damarlarına da yapışa bilər. Nəticədə həm damarlar. həm də ürək əzələləri zərər çəkir.

# Çempionlar Liqasında yeni mövsümün ilk püşkü atıldı

***UEFA Çempionlar Liqasında 2020/2021 mövsümünün ilkin mərhələsinin püşkü atılıb.***



"Unikal" qəzetinin məlumatına görə, püşkatmada UEFA reytinqində ən aşağı pillələrdə olan 4 ölkənin - Şimali İrlandiya, Kosovo, Andorra və San Marinonun çempionları iştirak edib.

San Marino çempionu - Şimali İrlandiya çempionu

Kosova çempionu - Andorra çempionu

Avrokuboklar üçün klubların yekun siyahısı avqustun 3-də təsdiqlənəcək. Bu səbəbdən, püşkatmada ölkələrin adları yer alıb.

Qeyd edək ki, ilkin mərhələnin yarımfinal matçları avqustun 8-də, final isə 3 gün sonra neytral meydanda olacaq. Turnirin qalibi 18-19 avqustda keçiriləcək Çempionlar Liqasının I təsnifat mərhələsinə vəsiqə qazanacaq.

# "Qarabağ" Miçellə müqaviləyə xitam verdi

***"Qarabağ"dan ayrılan futbolçuların sayı 7-yə çatıb.***

"Unikal" qəzetinin məlumatına görə, son günlərə kimi 4 legioner - Maqaye Qeye, Vaqner da Silva, Ailton Silva, Faysal Rerras və Rəşad Sadıqov (karyerasını bitirib) və Nicat Mehbalıyevlə ("Sabah") vidalaşan Azərbaycan çempionu Miçal Madera ilə də yollarını ayırıb.

2015-ci ildən Ağdam təmsilçisinin şərəfini qoruyan ispaniyalı legionerin ölkəsindən qayıtmayacağı dəqiqdir. İki həftə öncə komanda yoldaşı Xayme Romero ilə birgə vətəninə yollanan yarımmüdafiəçi karyerasını elə orada davam etdirəcək.

İntizamsız davranışları ilə zaman-zaman Qurban Qurbanovu narahat edən 35 yaşlı futbolçunun hələ 1 illik müqaviləsi var idi, lakin tərəflər anlaşmaya qarşılıqlı razılaşma yoluyla xitam verməyi qərara alıblar.



"Sportinq"in (Xixon) yetirməsi Azərbaycana 2015-ci ildə Hayfa "Makkabi"sindən gəlib. Bir ara milliləşdirilməsi gözlənilən orta sahə oyunçusu karyerasının geridə qalan illəri ərzində İngiltərədə "Birmingem"in, Yunanıstanda AEK-in şərəfini qoruyub.

# "Məğlub olacağıq" -Messi

***İspaniya La Liqasının 37-ci turu çərçivəsində "Osasuna"ya 1:2 hesabı ilə məğlub olan "Barselona"nın hücumçusu Lionel Messi açıqlama verib.***

"Unikal" qəzeti klubun saytına istinadən xəbər verir ki, argentinalı futbolçu, oyunla və Çempionlar Liqası ilə bağlı bunları deyib:



"Bu oyun bütün mövsüm ərzində necə oynadığımızı əks etdirir. İlk hissəni "Osasuna"ya hədiyyə etdik, ikinci hissədə daha yaxşı idik, amma bu, yetərli olmadı.

"Real"ın La Liqanın qalibi olacağını bilirdik, çünki çox xal itirdik. Komanda olaraq özümüzü tənqid etməliyik. Çünki biz "Barselona"yıq və hər zaman qalib gəlmək bizim vəzifəmizdir.

Artıq Çempionlar Liqasını düşünməyə başlamalıyıq və düzəlməli çox şey var. Hamımız qalib gəlmək istəyirik, amma bunun üçün daha yaxşılaşmalı və çox şeyi dəyişdirməliyik. Bu şəkildə davam etsək, "Napoli"yə də məğlub olacağıq".

# "Qarabağ" icarəyə verdiyi futbolçunu geri çağırdı

***"Səbail" klubunda icarə əsasında çıxış etmiş futbolçu Ruslan Hacıyev müqavilə üzrə məxsus olduğu "Qarabağ"a qayıdıb.***

"Unikal" qəzetinin məlumatına görə, bu barədə paytaxt təmsilçisinin baş məşqçisi Aftandil Hacıyev açıqlama verib. Onun sözlərinə görə, indiyədək 22 yaşlı yarımmüdafiəçidən əlavə, Fəhmin Muradbəyli "Neftçi"yə dönüb. Bundan başqa, qarşılıqlı razılıq əsasında Şəhriyar Rəhimovla yolların ayrıldığını deyən Hacıyev müqaviləsi bitən Maykl Essyenin də "Səbail"i tərk edəcəyini açıqlayıb.

39 yaşlı baş məşqçi özünün və digər futbolçuların komandadakı taleyi ilə bağlı qərarın tezliklə qəbul olunacağını da diqqətə çatdırıb. O, yerli futbolçularla yanaşı, legionerlər Aleksandr Rıbka, Peyman Keşavarz, Eriko da Silva, Mabidi Çikito Lemanı da komandada saxlamaq istədiyini bildirib: "Təbii ki, mövcud vəziyyət büdcəmizə də təsir edəcək. Belə bir şəraitdə futbolçuların komandamızda qalıb-qalmayacaqları hələlik bilinmir. Ümidvaram ki, tezliklə bütün məsələlərə aydınlıq gələcək. Avqustun 14-də növbəti mövsümün startı nəzərdə tutulub. Vaxtımız azdır, bir araya gələrək növbəti mövsümün hazırlıqlarına başlamalıyıq".

Qeyd edək ki, "Səbail" yarımçıq dayandırılmış 2019/2020 mövsümündə Azərbaycan Premyer Liqasını 20 xalla 7-ci pillədə başa vurub.

# Rəşad Sadıqov bu kluba məşqçi keçdi

***"Zirə" futbol klubunun yeni baş məşqçisi müəyyənləşib.***



"Unikal" qəzeti xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Məlumatda bildirilir ki, qəsəbə təmsilçisinin yeni baş məşqçisi Rəşad Sadıqov olacaq. Mütəxəssislə 3 illik müqavilə bağlanıb.

"Zirə"-nin fəxri prezidenti Orxan Məmmədovun təyinatla bağlı fikirlərini bölüşüb:

"Rəşad Sadıqovla geniş və ətraflı müzakirələrdən sonra razılıq əldə etdik. Onun bizimlə çalışmağa razılıq verməsinə görə çox şadam. Futbolçu karyerasını yeni bitirsə də, baş məşqçi kimi təcrübəsi hamıya məlumdur. "Qarabağ"ın gənclərdən ibarət komandası ilə yanaşı, U-21 millimizdə də qısa müddətdə yaxşı işlər görüb. Onun baş məşqçi kimi klubumuzun inkişafına müsbət təsir edəcəyinə inanıram ".

"Zirə" bir müddət əvvəl Zaur Həşimovla yollarını ayırıb.

# "Neftçi" yarım milyona futbolçu alıb

***"Neftçi" Yusuf Lavalın transferini açıqlayıb.***

"Unikal" qəzeti xəbər verir ki, klub rəsmi saytı vasitəsilə nigeriyalı vingerlə imzalanan müqavilə müddətini bəyan edib.

22 yaşlı sağ cinah oyunçusu bakılılarla 2+1 illik sazişə qol çəkib. O, yeni komandasında 24 nömrəli formanı geyinəcək.

Dünyaca məşhur "transfermarkt" saytı Y.Lavalın transfer qiymətinin 250 min avro (təxm:500 min manat) olduğunu yazıb.

Qeyd esək ki, Nigeriyanın klubu "36 Lion"un yetirməsi olan Yusuf Laval 2017-2020-ci illəri Belçika təmsilçisi "Lokeren"də keçirib.

# "Yuventus" 5 futbolçusunu satır



***"Yuventus" mövsümün sonunda bir neçə futbolçusunu transferə çıxaracaq.***

"Unikal" qəzetinin məlumatına görə, "qoca sinyora" 5 oyunçusu ilə yollarını ayırmağı planlaşdırır.

Bunlar müdafiəçi Daniele Ruqani, yarımmüdafiəçilər Federiko Bernardeski, Sami Xedira, Blez Matuidi və hücumçu Qonsalo İquaindir. Turin təmsilçisi adıçəkilən futbolçularla bağlı təklifləri dəyərləndirməyə hazırdır. Rəhbərlik onların yerinə kollektivə gənc oyunçular cəlb etməyi niyyətindədir.

Qeyd edək ki, "Barselona"dan Artur Melonu transfer edən "Yuventus" əvəzində Miralem Pyaniçi qarşı tərəfə satıb.

# FIDE olimpiadaya qatılacaq komandaların sayını açıqladı

***Ümumdünya Şahmat Olimpiadasında iştirak edəcək komandaların sayı açıqlanıb.***



"Unikal" qəzeti Beynəlxalq Şahmat Federasiyasının (FIDE) rəsmi saytına istinadən xəbər verir ki, 150 federasiya onlayn formatda keçiriləcək yarışa qatılacağını təsdiqləyib. Olimpiadanın favoritləri olan ABŞ, Çin və Rusiya şatmatçıları da onların arasında olacaq. Qeyd edək ki, avqustun 22-də start götürəcək yarışda Azərbaycanı Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Günay Məmmədzadə, Gülnar Məmmədova, Vüqar Əsədli və Xanım Balacayeva təmsil edəcək. Azərbaycan Şahmat Federasiyası tərəfindən ehtiyat oyunçular siyahısına Rauf Məmmədov, Qədir Hüseynov, Türkan Məmmədyarova, Ülviyyə Fətəliyeva, Aydın Süleymanlı və Gövhər Beydullayevanın adı daxil edilib. Komandanın kapitanı Eltac Səfərli və Rəhim Qasımov olacaq. Ümumdünya Şahmat Olimpiadasına avqustun 30-da yekun vurulacaq.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# Nazpəri ilk dəfə sirləri açdı: "Məmmədbağırla gizli..."

***Xalq artisti Nazpəri Dostəliyeva mərhum əməkdar artist Məmmədbağır Bağırzadə haqqında etirafı ilə hər kəsi təəccübləndirib.***



Xalq artisti "Ay Zaur" verilişində Məmmədbağır Bağırzadə ilə biri-birini sevdiyini açıqlayıb: "Hər kəsə elə gəlirdi ki, Nazpərini onu əldə edə bilər, ailə qurmadan öncə də. Mən uşaqkən qadın toylarına gedirdim. Məmməbağır Bağırzadənin dörd-beş bacısı var idi. Hamısının qadın toylarını mən eləmişdim. O zaman toylara gedəndə hər kəs məni öz övladı ilə evləndirmək istəyirdi.

Onda belə bir fikir Məmmədbağır Bağırzadənin ailəsində də yaranmışdı. Sonra illər keçdi. Mən toylara getmədim. Bu sevgi Məmmədbağırın qəlbində qalmışdı. Mən ailə qurdum, onun da gözəl ailəsi oldu. Amma o sevgi unudulmaz sevgi idi. Onun da, mənim də ürəyimdə gizli sevgi kimi qaldı".

Xalq artisti aparıcının "Bəs, niyə münasibətinizi açıqlaya bilmədiniz?" sualına: "Çünki hər iki tərəfdən razılıq olmadı. Sevgi onun həyatının sonuna və bu günə qədər hörmət, izzət kimi qalıb. O, mənə çox mahnılar həsr edib, "Naz-naz" və sair" - deyə, cavab verib.

Nazpəri Dostəliyeva "Elza Seyidcahanla düşmənsinizmi?" sualına isə cavab vermək istəmədiyini deyib: "Mən bu suala cavab verməyəcəm. Mən özümə layiq insanlarla düşmən ola bilirəm. Düşmən deyəcəyim insan mənim kimi sənətkardırsa, onunla sona qədər düşmən olaram".

Nazpəri Dostəliyeva əməkdar artist Xumar Qədimova ilə münasibətinin soyuq olduğunu da etiraf edib: "Onunla küsülü olmamışam. Bir müddət münasibətimiz soyuq oldu. Onun tərəfindən bir yanlışlıq olmuşdu".

## "Şəhid anasının nə çəkdiyini mən bilirəm" – Flora Kərimova

***"Xalqımız əsrlər boyu şəhid verib. Bu, müxtəlif vaxtlarda, müxtəlif səbəblər üçün olub. Şəhidlik bizim qismətimizdir. Çünki xalqımız nə vətinindən, nə torpağından keçə bilir. Bu, namus, qeyrət, ana, ailə, övladdır. Vətəni ürəklə sevmək lazımdır. Amma ağılla ürəyin arzusunu idarə etmək lazımdır".***



Bunu Xalq artisti Flora Kərimova "ATV səhər"ə açıqlamasında deyib. Müğənni son günlər cəbhədə yaşananlardan, yürüşdən bəhs edib:

"Milli Məclisi dağıtmaqlarına ürəyim ağrıdı. İnanmaram ki, vətənini sevən gedib boş stollarla dava edib, savaşsın. Bunu vətənini sevməyən edib. Nə qədər orada birlik, bir-birini anlamaq var idi. Nər kişilər biri-birini qucaqlayıb ağlayırdı. İstəməzdim ki, oradakıların şüurundan istifadə edib başqa səmtə göndərsinlər.

Bir vaxtlar sərhədlərə gedirdim. Güclə buraxırdılar... Camaata ürək-dirək verirdim. Gedirdim cəbhəyə yazılmağa, deyirdilər olmaz. Şəhid analarına təskinlik verəcək sözüm yoxdur. Ananın nə çəkdiyini mən bilirəm. Nə deyim, deyim ağlama? Övladının qanlı paltarını tutub bağrına basıb ağlayır və "Vətən sağ olsun" deyirsə, ona nə demək olar?".



## "Niyə paylaşım etmirsiz, kimdən qorxursunuz?" - Xəyyam onlara səsləndi

***Müğənni Xəyyam Nisanov Rusiyada məşhurlaşan azərbaycanlıları tənqid edib.***

Bunla bağlı sosial şəbəkədə paylaşım edən sənətçi onların şəhidlərimizlə bağlı heç bir paylaşım etməməsini qınayıb:

"Heç kəsdən qorxacaq yerim yoxdur. Çünki Azərbaycan Respublikasının vətəndaşıyam, bununla hər zaman fəxr etmişəm. çalışdığım qədər bütün dünyada ölkəmi təbliğ edirəm. Amma çox heyif ki, mənim Rusiyada və dünyada tanınan həmkarlarım bu gün susublar. Heç bir paylaşım etmirlər. Niyə? Kimdən qorxursunuz, çəkinirsiniz? Mən də 20 ildir Rusiyanın paytaxtında çalışıram. Orada ermənilərlə üz-üzə gəlirəm. Amma heç bir zaman mövqeyimi dəyişmirəm". İfaçı İnstaqramda "story" bölümündə bir neçə Rusiyada çalışan tanınmışın profilini paylaşaraq, onlara sual ünvanlayıb. Qeyd edək ki, Rusiyada məşhurlaşan azərbaycanlılar siyahısına bloqqer Hüseyn Həsənov, müğənnilər Bahh Tee (Bəxtiyar Əliyev), Elman Zeynalov, Coni (Cavid Hüseynli), Aleksandr Əliyev və Nəvai Bəkirov (HammAli & Navai) yer alıblar.

## "Pul qazanmalı, balamı böyütməliyəm" - Nura iş tapdı

***Koronavirus infeksiyasının qarşısının alınması məqsədilə toy, ad günü, bir çox tədbirlərin təxirə salınmasına görə bir çox sənət adamı işsiz qalıb.***



Axşam.az xəbər verir ki, müğənni Nura Suri özünə fərqli sahələrdə iş axtarmağa başlayıb. O bildirib ki, nəhayət çalışmağa başlayıb:

"Son iki aydır ki, başqa sahədə iş axtarırdım. İyulun əvvəlləri bir neçə təklifi gözdən keçirdim və bir tikinti şirkətində işə başladım. Müğənniliklə yanaşı, başqa bir işimizin olmağı da vacibdir. Bir həftə öncə əmək müqaviləsi bağlamışıq.

Balamı böyütməliyəm, işləməliyəm, pul qazanmalıyam. Hələ ki, bu, bizim sahədə mümkün deyil. Ölkəmiz isə çətin günlər yaşayır. Bir tərəfdən virus, o biri tərəfdən ermənilər. Allah köməyimiz olsun".

## Onlar da səfərbərlik üçün qeydiyyatdan keçdilər

***Prezident İlham Əliyevin çağırışına səs verən minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qeydiyyatda olduqları yerli idarə, şöbə və bölmələrinə gedərək könüllü olaraq orduda xidmət etmək haqqında öz arzularını ifadə edir və müvafiq qaydada qeydiyyata alınırlar.***

Onlar arasında Xalq artisti Faiq Ağayev və reper Qurd da yer alıb. İfaçılar ötən gün qeydiyyatdan keçiblər. F.Ağayev bunla bağlı paylaşım edərək "Zəfər ilə yürüş edərik biz!" qısa şərhini yazıb. Qurd isə "Prezidentimizin göstərişi və eləcə də öz istəyimlə Xetai rayonunda qeydiyyatdan keçdim. Hazırıq müharibə elan edilən kimi düşmən qanını tökməyə" deyə, vurğulayıb.